

# ZƏFƏR SƏDASI

ZƏRƏNGİZ DƏMİRÇİ QAYALI

İKSAD
Publishing House

ZƏRƏNGİZ DƏMİRÇİ QAYALI

# ZƏFƏR SƏDASI

İKSAD
Publishing House

Copyright © 2021 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced,
distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or
mechanical methods, without the prior written permission of the publisher,
except in the case of
brief quotations embodied in critical reviews and certain other
noncommercial uses permitted by copyright law. Institution of Economic
Development and Social
Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com

It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2021©

**ISBN: 978-625-7687-76-8**
Cover Design: İbrahim KAYA
January / 2021
Ankara / Turkey
Size = 16x24 cm

Kitab, Milli Ordunun Qazax 707- №-li hərbi hissəsinin, 5-ci batalyonunun, 1-ci bölüyünün könüllü döyüşçüsü, bacım, **şəhid Vəfa Dəmirçioğlunun (Mansurova)** əziz xatirəsinə həsr olunur.

**Kitabın naşiri:** İbrahim Kaya

**Kitabın ideya müəllifi:** Sənətşünaslıq Elmləri Doktor, Qaziantep Universitetinin Professoru İlqar İmamverdiyev

**Kitabın redaktoru:** Azərbaycan Milli Məclisin deputatı, Akademik Nizami Cəfərov

*(Annatasiya)*

Kitabda şairin son dövrlərdə yazdığı şeirlər və poemalar toplanıb. Nəşrdə dərc olunan «Hər ömür bir nəğmə...» poeması poeziya nəhəngi, Xalq şairi Rəsul Rzaya, "Tənha qayıq» poeması isə unudulmaz şairə, Prezident təqaüdçüsü Nurəngiz Günə həsr edilib. Eyni zamnda müəllifin Çanaqqala zəfərinə həsr olunmuş balladası da bu məcmuədə yer alıb.

Toplu əsasən vətənpərvərlik mövzusuna həsr edilmiş əsərlərdən ibarətdir. Bu əsərlərdə Vətən nisgili, torpaq itkisi, yurd həsrəti, zorla sürükləndiyimiz Vətən müharibənin törətdiyi bəlalar və nəhayət qələbə müjdəli şeirlərdə, qalib əsgərlərimiz və ölməz şəhidlərimiz, onların misilsiz qəhrəmanlıqları tərənnüm olunub.

Kitabda Vətənin keşiyində dayanan əsgərlərimizi qələbəyə səsləyən şeirlər çoxluq təşkil edir. Kitabda dərc olunan şeirlərin az bir qismi dövri mətbuatda dərc olunub. Poemalar və şeirlərin əksəriyyəti ilk dəfə işıq üzü görəcək.



Zərəngiz Dəmirçi Qayalı

# MÜNDƏRİCAT

**Ön söz**: Akademik Nizami Cəfərov....................15

*ALOV SAÇAN SƏTİRLƏR*

Zəfər sədası..........................................................19

Qələbə harayı ..................................................... 20

Hücum marşı....................................................... 22

Qisas ................................................................... 25

Çağla Cəlaloğlu .................................................. 27

Davam edir 37.................................................... 28

Şuşa ...................................................................30

Qarabağ ..............................................................32

Şuşanı qaytar......................................................33

Kürreyi-ərz qorğa bişən sac deyil!...................35

Təbiblərim, məlhəm qoyun yaraya...................37

Fariz Bədəlova ....................................................39

Qubaya çağırın bütün xalqları..........................43

Vətən keşikçisi....................................................54

Qələbə gətirdin...................................................56

Qələbə marşı ....................................................58
Əsgərim..........................................................60
Yaşa Ərdoğanım, Türkiyəm!..........................61
Çağır məni.......................................................63
Yazılsın bu gün..............................................67
Daş Salahlı oyaqdır ....................................... 69
Bir gün ........................................................... 71
Nə idi günahımız?......................................... 72
Qulağıma çatar ............................................. 74
Salam  Fidat Palıd!  ....................................... 75
Baba, sənin xəbərin var?............................. 78
Şəhidlərin “Qız qardaşı” ..............................81
Yurda Vəfalı...................................................83
Yürü əsgər......................................................85
Bayrağımı çək başına!..................................86
İradəmiz yenilməsin ....................................88
İndi qeyrət zamanıdır ..................................89
Güləcəksən yenə Vətən!..............................90
Sözüm var mənim........................................91

Şikəstələr ölkəsi..................................................93
Təsəlli ..........................................................95
Gözün aydın, Vətən! ...........................................96
İntiqama çağırış ..............................................98
Gör hansı zamanlar düşür yadıma? ..................99
Yaşadıq ...................................................... 102

*MÜXTƏLİF ŞEİRLƏR*

Var ol, a Daş Salahlı ....................................... 104
Əlli beş yaşım ............................................... 106
Xoş gəldin ................................................... 107
Ay ana ....................................................... 108
Əlli yaşıma .................................................. 110
"Yanıq Kərəmi"............................................... 111
Kəndim ....................................................... 113
Dərbənd dedi ................................................ 115
Sevinsin ...................................................... 118
"Atamsız Atamla" silsiləsindən ...................... 119
*Ata* ............................................................ 119

*Atama* ....................................................... 121

*Ata, yerin görünür* ...................................... 123

Gəlmişəm ................................................... 126

Talan ömrüm ............................................... 127

A Baytaloğlu ................................................ 128

Şairləri körpü bilin ...................................... 130

Qarşıla ....................................................... 132

Vidadi Babanlıya ......................................... 133

Beşikdən tabutacan ..................................... 135

Dayım oğlu İsrailə ....................................... 136

Mən bir türk qızıyam ................................... 138

Adım Böyük Turan oldu ............................... 139

Döz ............................................................ 142

Aşıq Avdıya ................................................ 143

Qazax mahalı .............................................. 145

Anam Qazax ................................................ 147

Qazax ......................................................... 148

Doğma yurdum ............................................ 153

Dünyada ..................................................... 155

Gəzib gördüyüm yerlər ....................................156
Təbrizim ......................................................160
Məşhədi gördüm ...........................................162
Ömər Xəyyama ..............................................163
Şəhriyar .......................................................164
Savalanın yaraları .......................................... 166
Açılsın güllərim ............................................ 167
Dünyadı ........................................................ 170
Aşıq Camoy, “Dağlar”ı çal, “Dağlar”ı .............. 171
Aşıq Camoya ................................................ 173
Akif Aşırlıya ................................................. 176
Nizami babam ............................................... 177
Vurğun ......................................................... 179
Mirvarid Dilbaziyə ......................................... 181
Olur ............................................................. 182
“Qafqaz Media” .............................................. 184
Ay Buta ........................................................ 187
Borçalı .......................................................... 189
Tiflis ............................................................ 192

Bayramlar ................................................194
Türkəm ....................................................195
Türkünamə ..............................................196
Novruzum ................................................198
Sözümü deməkçün cahana gəldim ............200
Torpaq .................................................... 201
Ömrüm ................................................... 202
Şair şeir oxuyanda ................................... 203
Çatar məhəbbətim .................................... 206
Qələmim .................................................. 208
Ana dilim ................................................ 209
Yol gedirəm ............................................215
Atam qocalır ...........................................216
Mən bu yolun yolçusuyam ........................218
Neylərəm?...............................................219
İkilik .......................................................220
Şükür ......................................................221
Yaranan gündən bəri ..............................222
Dostuma söylə .........................................223

Araz niskili ........................................................ 224
Söz haqqını ........................................................ 225
Gələn gedərgidir ................................................ 227
Eləmə ................................................................ 228
Cavidə ................................................................ 229
Ölməz ................................................................ 231
Həncərisən? ........................................................ 234
İnciməsin ............................................................ 238
Nəsimi ömrü ........................................................ 239
Şeirim mənim ...................................................... 241
Mizan-tərəzi ........................................................ 244
Ay kimi nurlu qızım ............................................ 245
Göyçək Fatma ...................................................... 247
Mənim Türkiyəm .................................................. 250
Bənövşə gözlüm .................................................. 253
Cümhuriyyət ........................................................ 255
Arzum üzümə gülsün .......................................... 257
Adı gözəl Banu .................................................... 258
Qızımın toy günüdür .......................................... 260

Salam Günəş ............................................262
Özün eşit ...................................................264
Öz şəklini çəkən qadın .............................265
Gözlərim ağlar ..........................................267
Başımın üstdən .........................................268
Bilmirəm ................................................... 269
Yaman, dünya ........................................... 271
Bu dünyanın eybi ...................................... 273
Müəmma .................................................. 275
Gəldi ........................................................ 276
Olmayıb .................................................... 278
Bayraqdarım ............................................. 279
Ya Allah ................................................... 281
Bir yaşıl yarpaq ......................................... 288
Həzin nəğmə ............................................. 289
Bir deyim ................................................. 290
Salam XXI əsr ........................................... 291
Şəki ......................................................... 293
Tapşırma .................................................. 294

Körpə Məhəmmədə ....................................... 296

Zəfər torpağı ................................................ 298

## BALALAR ÜÇÜN

Ailəm mənim ................................................ 299

Qızım Aynura ............................................... 300

Ülkərə ......................................................... 304

Sevimli balalar ............................................. 306

Ülkərə ......................................................... 308

Cücənin nəğməsi ......................................... 309

A sərçə ........................................................ 310

Küçüyün nəğməsi ......................................... 311

Quzunun nəğməsi ......................................... 312

Balaca nənəş ............................................... 313

Aynur .......................................................... 314

Ataların atası ............................................... 315

Tək qızam .................................................... 316

Ayam mən ................................................... 317

And içmişəm ................................................ 318

Çiçək qız ..................................................... 319

Fərid üçün ....................................................320

İlahəyə ..........................................................321

*POEMALAR*

Milli Qəhrəmanımız Mübariz İbrahimova ..322

Zəfər sədası–Çanaqqala 100.......................331

Hər ömür bir nəğmə ................................ 338

Getdi ..................................................... 349

AYTAM ................................................... 353

Kazım Qara Bəkir Paşa ............................. 373

Bir elegiya ............................................... 379

Barat Vüsal, de əhvalın necədir? ............... 384

"Vəfam mənim" poemamdan bir parça ..... 389

Tənha qayıq .............................................. 390

Bir poema ................................................403

Xocalı .......................................................418

Zərəngiz Dəmirçi Qayalı ...........................469

# ÖN SÖZ

## *ŞAİR XOŞBƏXTLİYİ*

Zərəngiz Dəmirçi Qayalının, doğrudan da, şair olduğunu, ilk növbədə, ondan bilirəm ki, adında - sanında, sözündə - söhbətində, işində- hərəkətində təkzib edilməsi heç cür mümkün olmayan sadəlövh (və kəskin!) bir şairlik havası, iddiası var. Bu elə bir iddiadır ki, hətta Zərəngiz arada bir and içib aman eləsə ki, mən şair deyiləm, elə belə sözdür gəlir ürəyimə, deyirəm, yazıram; heç kim inanmaz...

Məsələnin ikinci, fikrimcə, ən mühüm cəhəti özünü onda göstərir ki, Zərəngizin artıq bir sıra maraqlı şeir kitabları nəşr olunub, nüfuzlu ədəbi mükafatlara, Prezident təqaüdünə layiq görülüb, hələ on il bundan qabaq "İlin Qadın Şairi" adını alıb. Yəni ötən illər ərzində öz istedadı, zəhmətkeşliyi ilə sübut edib ki, o, həqiqətən, söz adamıdır...

Və nəhayət... Zərəngizin bilavasitə poeziyası barədə...

O, hər şeydən əvvəl, vətənpərvər şairdir. Vətənpərvərliyi də el- obadan, yurd- yuvadan, doğma kəndi Daş Salahlıdan başlayır:

Qoynunda xəzinə, dürr Avey dağı,
Damcılın zövq verər ilk bahar çağı,
Alimlər, şairlər, pirlər oylağı,
İgidlərin beli xəncərli kəndim.

Oradan keçir Qazağa…

Sərvətin gözəllik, qaynağın ilham,
Eşqin həyat dolu, nur dolu bir cam.
Hüsnünə heyrandı bu Azərbaycan,
Yaxına, doğmaya mehriban Qazax.

Ordan da keçir Azərbaycana, bütün Türk dünyasına..

Mən sazı dindirim, dillən a Türküm!
Gülüstanımda gəl güllən, a Türküm!

oradan da keçir bütövlükdə bu dünyanın işlərinə:

Tilovu bəzəkli don olan dünya!
İnsanı ələkdə dən olan dünya!
Məsləhəti yaman gen olan dünya!..

Və aydın hiss olunur ki, poetik təfəkkürü nə qədər mütəvaze, hətta sadəlövh təsir bağışlasa da, Zərəngizin bu dünya ilə əməlli- başlı cəngi- cidala çıxacaq hökmü-hikkəsi də var:

Tanrı sirdi, dünya naşı,-
Göyərmir qaraca daşı…
Araz, Kür oldu göz yaşım,
Baba, sənin xəbərin var?..

Yaşı əllidən altmışa keçən Zərəngiz Dəmirçi Qayalının işi-gücü sirr olan Tanrıdan təmənnası isə cəmi- cümlətanı bundan ibarətdir ki:

Həzin- həzin yazan mən oldum, ya Rəbb!

İki kəlmə sözüm qalar dünyada!..

Şair üçün bundan böyük xoşbəxtlik varmı?..

**Nizami Cəfərov-akademik,**

*Əməkdar İncəsənət Xadimi,*
*Milli Məclisin deputatı, Əməkdar Elm Xadimi,*
*Azərbaycanda  Atatürk Mərkəzinin direktörü*

# *ALOV SAÇAN SƏTİRLƏR*

## Zəfər sədası

Dağ sökülər, qaya uçar, daş düşər,
Gözlərimdə şimşək çaxar, yaş düşər!
Torpağıma sahib olmaq istərəm!
Ulu Tanrım, uca Rəbbim, ya Kərəm!

Xain düşmən, sayqı göstər orduma!
Sahib çıxam özüm dilbər yurduma!
Mən güc vursam, bircə dəfə, dağ uçar!
Düşmən o gün dara düşər, qan qusar!

Qeyrətim var, namusum var, arım var!
Qələbə çal, oğul, bu xalqı qurtar!
Şahbaz-şahbaz igidlərim oyansın!
Bütün dünya haqq səsimə inansın!

Haqq sözümü neçə kərə demişəm,
Hayqırmışam, göyə, yerə demişəm!
Qalib olaq! Budu şair duası!
Çalaq bu gün qəti zəfər sədası!

06.06.2020-ci il.

## Qələbə harayı

Bu yüksələn bayrağım,
Qəlbimə qürur mənim!
Ana Vətən eşqiylə
Ürəyim vurur mənim!

Vətən andı içməyim,
Varlığımdan keçməyim,
Şəhid yolu seçməyim,
Müqəddəs diləyimdi!
Mavi mənim göyümdü,
Yaşıl cənnət payımdı,
Qanımda çimən torpaq,
Bu gün mənim toyumdu!

Yola çıxdım, uğura!
Qəhrəmanlar doğula!
Qələbəyə çağıran,
Əslim, köküm, soyumdur!

Dalğalan uca bayraq!+
Min yaşa, ana torpaq!
Səni qanla suvarmaq!
Qədərim, haqq-sayımdır!

Vətən dedim, ünlədim!
Zərəngizi dinlədim!
Qəlbimdən gələn səsim,
Qələbə harayımdı!
Qələbə harayımdı!

21.11.2020-ci il

## Hücum marşı

Vəfa çağırır,
Yurdu qoruyaq!
Mənfur düşməni,
Əzib yeriyək!
Ey, igid əsgər!
Sənindir zəfər!

Torpağı alaq!
Qələbə çalaq!
İgid Vəfa tək,
Tarixdə qalaq!
Ey igid əsgər!
Sənindir zəfər!

Ürəyim deyir,
Mərdlər ölməsin!
Mənfur düşməndən
Nişan qalmasın!
Ey igid əsgər!
Sənindir zəfər!

Bağanıs Ayrım,
Haray qoparır!
Vəfanın ruhu,
Bizi aparır!

Ey igid əsgər!
Sənindir zəfər!

Bu Atillalar,
Metelər yurdu!
Möhkəm dayanaq,
Yerisin ordu!
Ey igid əsgər!
Sənindir zəfər!

Birləşsin ellər!
Çalaq min zəfər!
Şuşama qədər,
Qəti yürüş var!
Ey igid əsgər!
Sənindir zəfər!

Yeni tarixi,
Yazacağıq biz!
Üçrəng bayrağı,
Qoca Murovdan,
Asacağıq biz!
Ey igid əsgər!
Sənindir zəfər!

Şuşa gözləyir,
Qəlbi yaradır,

Viranə köksü,
Para-paradır
Ey igid əsgər!
Sənindir zəfər!

Ana Vətənim
Mərdlər diyarı!
Üz tutdum hər an,
Tanrıma sarı!
Ey igid əsgər,
Sənindir zəfər!

## Qisas

Oğullarım! Qan yerinə qan gərək!
Oğullarım! Can yerinə can gərək!
Qoy silahlar
atəş açsın, parlasın!
Qəzəbimiz vulkan
olsun, gurlasın!
Mənim elim, mənim
yurdum dardadır!
Haray çəkdim,
Mübarizlər hardadır?
Hayqır, hayla,
ərşi külə döndərək!
Düşmənimi xarabaya göndərək!
Əsgərlərim, aman günüm,
dad günüm!
Gözləyirəm, qalib günü
şad günü!
Mən dözümün
köynəyin cıraram!
Düşmənimi qarışqa tək
Qıraram!!!
Sipər nədir, çəpər
nədir, bilmərəm!
Otuz ildir, mən

Ürəkdən gülmərəm!
Darda qalan əsirlərim çağırır!!
Yatmış aslan dara
Düşüb, bağırır!
Ürətimin göynəyi var,
Közü var!
Bir şairin bu gün sizə
Sözü var!
Alaq alçaq düşmənimdən öcümü!
Qoy yağılar
görsün mənim gücümü!
“Yatmış vulkan”!
Qisas günüm, qan günüm!
Bu gün mənim
yurdum alınan günüm!
Mübarizlər, Vəfalardır çağıran!
Mayamızı al qanıyla yoğuran!
Babaların haqq qovğası bilinsin!
Yağı düşmən,
torpağımdan silinsin!
Ana torpaq çərək-çərək alınsın!
Oğullar!
Zəfər sədası çalınsın!

08.08.2020-ci il.

## Çağla Cəlaloğlu

*(Gənc aşıq Samir Cəlaloğluna)*

Top atarsam, Bilgə Xaqan ayılar!
Qələm alsam, eşqim ərşə yayılar!
Bu sevdamdan nazik qəlbim oyular,
Çağla Cəlaloğlu, mənim dərdimə!
Düşmən yeriməsin ana yurduma!

Gedənlər getdilər qalanlar qalar,
Gülsün Vətənimdə əbədi bahar,
Səslənsin qoynunda saz, kaman və tar,
Çağla, Cəlaloğlu, mənim dərdimə!
Düşmən yeriməsin ana yurduma!

Əsrin o üzündən gələr sədamız!
Düşmənim bağrını dələr nidamız!
Ərdəbildən Şah İsmayıl babamız!
Çağla, Cəlaloğlu, mənim dərdimə!
Düşmən yeriməsin ana yurduma!

Təbəri, Köçərli soraqlar bizi,
Tarix zaman-zaman varaqlar bizi,
Zərəngiz, oxuyar uşaqlar bizi,
Çağla, Cəlaloğlu, mənim dərdimə,
Düşmən yeriməsin, ana yurduma!

04.08.2020-ci il.

## Davam edir 37...

*(Xəlil Rza Ulutürkə nəzirə)*

Cavidin yurdunu eylədi bərbad!
“Səyavuş”, “Peyğəmbər” olmadı imdad,
Müşfiqimi qara yellər apardı,
Bu nakam xalqımı taladı cəllad!

“Sapı bizdən olan baltalar” ki var!
Qıracaq bizləri “doğma” canavar!
Cəllad cəlladlığı ondan öyrənsin!
Nə rus, nə erməni onun tək olar!

İstedad düşməni, qəlbi məkrli,
Niyyəti, arzusu, vicdanı kirli,
Şeyriyyat qənimi, cəfəng kabusu!
Kreslosu rahat, uzun ömürlü!

Tanrı bol-bol ruzu bəxş etmiş ona,
Böyüklər önündə girir min dona,
Nəfsi qələmindən iti bəxtəvər!
Eyb etməz pisliklə yetişər sona!

Sanma qurtarıbdır 37-lər,
İndi daha ciddi, daha da betər,
Kəsilən dilləri görən olmayır?!
Ay ustad, bu dərdim heç azalmayır?!

Yüz illik şairim torpaq altında,
Qalıbdır yüzillik soraq altında,
Üç kəlmə yazana "dahi" deyirlər?!
İblislər böyüyür papaq altında!

İndi nə ölçü var nə biçi şair,
"Şair" şeir sözün mənasın bilmir!
Təqaüd verilir, "istedad!!!"- deyə,
O, Füzuli yazan qəzələ gülür?!

Mənəvi ölçülər su ilə axır,
Mənəvi ucalıq dağlardan baxır,
Bisavad danışır ağzıköpüklü,
Nadir istedadın evini yıxır!

"Mən belə dünyanın nəyindən küsüm?"
"İti"ndən, "atı"ndan, səyindən küsüm?
Məmməd Araz özün yandırardı bil,
Odla köz mat qalıb, suyundan küsüm?

Neçə ki, kalfa var, 37 var!
Neçə ki, halva var, 37 var!
Tamah olan yerə yüyürsə iblis!
İstedad qan qusar, 37 var!!!
İstedad qan qusar, otuz yeddi var!!!

17.04.2014.

## Şuşa

Dağların başını dumanmı aldı?
Qəzamı, qədərmi, amanmı aldı?
Oğlun bur can verib, yüz canmı aldı?
Oldun niyə talan-talan, ay Şuşa?
Düşmənin əlində qalan, ay Şuşa!?

Yüz yolun, keçidin, bəndin var idi,
Yarğanın, uçrumun, həndin var idi,
İgidlərdən qalma fəndin var idi,
Oldun niyə talan-talan, ay Şuşa?
Düşmənin əlində qalan, ay Şuşa!?

Xan qızı Natəvan qəm yeyir indi,
Vaqif, Cabbar, Seyid nə deyir indi?
"Cəngi" bəstələməz Üzeyir indi…
Oldun niyə talan-talan, ay Şuşa?
Düşmənin əlində qalan, ay Şuşa!?

Oğlu qurban gedir, dirilir Vətən!
Qəlbimdən keçəni bir duya bilsən?
Sənin yoxluğuna dözə bilmirəm,
Oldun niyə talan-talan, ay Şuşa?
Düşmənin əlində qalan, ay Şuşa!?

Pənah xan ömrünün yadigarıydın,
Bir qədim ölkənin qədim varıydın!
Sən bizə bu dərdi, de, necə qıydın?
Oldun niyə talan-talan, ay Şuşa?
Düşmənin əlində qalan, ay Şuşa!?

Zərəngiz Dəmirçi, mən çox ağladım,
Alovdan don geydim, coşdum, çağladım,
Hayıf, məğlub şəhər çağrılır adın….
Oldun niyə talan-talan, ay Şuşa?
Düşmənin əlində qalan, ay Şuşa!?

## Qarabağ

*(Qəzəl)*

Qarabağ, getdi yolunda nə qədər canlarımız?
Haqqın olsun tökülür torpağına qanlarımız!

Başı bəlalı Vətən, nələr gəlmədi başına?
Uğrunda qurban oldu gül kimi cavanlarımız!

Bu necə faciədir, düşmən əl götürmür geri?
Yoxsa ki doyurmadı Tanrını qurbanlarımız?

Açılmamış gül kim körpələr yandı bələkdə,
Çatmadı Haqq məqama. bir belə ehsanlarımız?

Xocali dad elədi, gəlmədi fəryada biri?
Odlar ərşə dayandı, söndü çırağbanlarımız!

Şuşa, Malıbəyli, Laçın silindi Haqq dəftərindən,
Ağdərə qırğınında kükrədi tufanlarımız?

Kərbəla müsibəti adi bir ağlaşma imiş?
Kəlbəcər tonqalında kül oldu insanlarımız?..

Bir belə zülmü bizə kim rəva bildi. Görəsən???
Xəbərsizdik, nə bilək qopacaq amanlarımız???
Zərəngiz, Haqq yolunda Haqqı görənlər çox olur,
Qiymət verər bu işə sonrakı dövranlarımız!

## Şuşanı qaytar

*(Milli Qəhrəman Ramiz Qəmbərova)*

Düşmən axın–axın, yol bələn–bələn,
Yoxmu, qol çırmayıb köməyə gələn?
Olmadı eşidən. olmadı bilən…
Şuşanı qanına boyadın, Ramiz!
Şuşanın qanına boyandın, Ramiz!

Qəlbində yurd eşqi, dilində Vətən!
Olmadı dadına, olmadı yetən!
Qaçmadın yağış tək yağan güllədən,
Şuşanı qanına boyadın, Ramiz!
Şuşanın qanına boyandın, Ramiz!

Tükənməz varımdan doymayır düşmən,
Yaxşılığa hörmət qoymayır düşmən,
Köksündənmi vurdu, bu gavur düşmən?
Şuşanı qanına boyadın, Ramiz!
Şuşanın qanına boyandın, Ramiz!

Soyuq səngərlərdə yatanda, mərdim!
Qanını torpağa qatanda, mərdim!
Yurdu namərdciyim satanda, mərdim!
Şuşanı qanına boyadın, Ramiz!
Şuşanın qanına boyandın, Ramiz!

Bir tərlan balasan əməlinlə sən!
Alınmaz qalasan, hünərinlə sən!
Gəl, Şuşanı qaytar öz əlinlə sən!
Şuşanı qanına boyadın,  Ramiz!
Şuşanın qanına boyandın, Ramiz!

## Kürreyi-ərz qorğa bişən sac deyil!

*("...mənim yurdum astanalar torpağı, Balama*
*göz dikənlərin, gözünə bibər yarpağı!"*
*Anamın oxuduğu layla)*

Laylana mən qurban olum, ana!
Niyə dedin, "astanalar torpağı"?
Karvanları qatar-qatar yol gedən,
Gözəl yurdum indi düşmən tapdağı!

Biri dedi, Təklə-Muğan mənimdir!
Biri deyir Dərbənd çoxdan mənimdir!
Biri deyir Təbriz, Ağdam mənimdir!
Necə oldu, Topxananın yaylağı!?

Şah İsmayıl doğan ana hardadır?
Koroğlular zindandadır, dardadır,
Tutşsuyumun havası da bal dadır,
Bizim olub, gözəl İsa bulağı!

Qoy eşitsin tərs dığalar, gec deyil!
Kürreyi-ərz qorğa bişən sac deyil!
Bu xalq heç vaxt, heç kəsə möhtac deyil!
Yassar düşmən, dağılacaq növrağın!

Əzəl başdan yurd sevəndir ürəyim,
Getmir rahat boğazımdan çörəyim,
Göydə Allah! Yerdə əsgər köməyim,
Dalğalansın ay-ulduzlu bayrağım!

Zərəngiz - Allaha qul olan bəndə!
Ürəyindən haqqa yol olan bəndə!
Tanrıya duası bol olan bəndə,
İnşəallah, alacağıq torpağı!
Qarabağım, toy-büsatım, növrağım!

21.03-2010-cu il.

## Təbiblərim, məlhəm qoyun yaraya

Bu torpağın baharı var, yazı var,
Candan keçən oğulu var, qızı var,
Qəza, qədər, tale, qismət, yazı var,
Təbiblərim, məlhəm qoyun yaraya,
İgid üçün igid gedər haraya!

Vətən andı içən oğul var olsun!
Oğul gedən yola uğurlar olsun!
Ulu Tanrım bu ərlərə yar olsun!
Təbiblərim, məlhəm qoyun yaraya,
İgid üçün igid gedər haraya!

Bir əsgərim, aman, darda qalmasın,
Can yaralı, intizarda qalmasın,
Ürəyini qüssə, kədər almasın,
Təbiblərim, məlhəm qoyun yaraya,
İgid üçün igid gedər haraya!

Arxamızda alovum var, közüm var,
Qəlbimizdə mətanət var, dözüm var,
Bu gün mənim ərənlərə sözüm var,
Təbiblərim, məlhəm qoyun yaraya,
İgid üçün igid gedər haraya!

Vətən bizi çağıranda yüyürək!
Haqq-ədalət uğurunda yüyürək!
Daha dözmür qırğınlara bu ürək!
Təbiblərim, məlhəm qoyun yaraya,
İgid üçün igid gedər haraya!

## Fariz Bədəlova

*(2011-ci il martın 8-də Ağdam rayonunun Orta Qərvənd sakini, 9 yaşlı Fariz Bədəlov öz evlərinin həyətində oynayan zaman erməni gülləsi ilə qətlə yetirilmişdir)*

8 Mart–Beynəlxalq Qadınlar Günü,
Bu gün qadınlara çiçək verirlər!
Bu gün analara xoş sözlər deyib,
Şirin təriflərlə əzizləyirər!
Bu gün qadınlara çiçək verirlər!

Hamıdan bir xoş söz eşidir qadın,
Analar həmin gün sevinir, qatil!
Atanı, qardaşı, doğmanı, yadı,
Özünə ən yaxın kəs bilir, qatil!
Analar həmin gün sevinir, qatil!

Cəllad! Gecikəydin bircə gün barı!
Nə idi günahı yazıq ananın!?
Düşəydi yanına, xain, qolların!
Ən miskin adamı sənsən dünyanın!
Cəllad, keçikəyin bircə gün, barı!

Baxır məlul-məlul ana gözləri,
Bu məsum gözlərin nə günahı var?!
Oğul böyüdürdü, illərdən bəri,
Yanır, alovundan kül olur dağlar,
Bu məsum ananın nə günahı var???

Dünya anaları səs verin mənə!
Analar günündə balalar ölməz!
Bəşərin ən böyük cinayəti bu,
Bir qatil bir ana haqqını bilməz?!
Analar günündə balalar ölməz!
Qisas almaq üçün etdin sən bunu?
Körpədən intiqam alınmaz, qatil!
Bəşər cinayəti say tutduğunu!
Tarixdən bu ləkə silinməz, qatil!
Körpədən intiqam alınmaz, qatil

Sənə insan adı yaraşmır, kafir!
Kaş yurdun dağılıb, elin çökəydi!
Bir körpə oynayır öz həyətində,
Dağılmış ölkənə ziyanmı dəydi?
Kaş yurdun dağılıb, elin çökəydi!

De, həyasız qatil, de nədir qəsdin?
İnsanlıq tamammı ölmüş içində?!
Bir Tanrı qarğışı tutacaq sizi!
Belə düşmən yoxdu, sizi biçimdə!
İnsanlıq tamammı ölmüş içində?!

Ey qəlbi kin ilə, küdurət ilə,
Qaynayan kafirlər, eşidin məni!
Səbr kasam dolub, bir gün gələcəm,
O zaman yox olsun, gərək erməni!
Qaynayan kafirlər, eşidin məni!

Göyçənin haqqını alacam sizdən!
Vedinin haqqını alacam sizdən!
Mehrinin haqqını alacam sizdən!
Gələcək hamısı kor gözününzdən!
Yurdumun haqqını alacam sizdən!

Kafirlər! Bir belə namərdlik olmaz!
Mən gəzən torpaqda gəzirsən azmı!?
Yüz dillə vəsf edib, nəğmə qoşduğum,
Gülümü budaqdan üzürsən, azmı!?
Mən gəzən torpaqda gəzirsən azmı!?

Bir gün səbr kasam daşacaq mənim!
Şah İsmayıl yurdu çıxacaq yola!
Dədə Ələsgər də köksündə qopuz,
Bayrağım əlimdə, uğurlar ola!
Şah İsmayıl yurdu çıxacaq yola!

Qopacaqdır Nuhun tufanı o gün!
Kafir, qəzəbimdən özünü qoru!
Nemətimi yedin, ac gözün doymur!
Belə atırmışlar dayazda toru?
Kafir, qəzəbimdən özünü qoru!

22.02 2011-ci il.

## Qubaya çağırın bütün xalqları

Qubaya çağırın
bütün xalqları!
Qoy bu dəhşətləri
görsünlər barı!
Bir deyil, beş deyil
kəsilmiş başlar!
İndi təzələnir
köhnə yaddaşlar!
Neçə şahid dinir
Bu müsibətə,
"Qisas qalmaz
qurd ilə qiyamətə!"
Belə söyləmişdir
bizim babalar.
Dedi: "Hər zamanın
bir hökmü var", var!
Hər yaxşının,
pisin öz adı vardır,
Pisin bu gen dünya
başına dardır!

O qırğından
indi soraq alırlar,
Şahidlər tarixi
yada salırlar,
Danışır, sarsılır,
fikrə dalırlar,
Nələr etməyibdir
aləmin şəri?
Erməni törədən
o dəhşətləri,
Danışır, bayılır,
axır gözləri,
Deyirlər qadını,
uşağı, piri,
Kəsirmiş cəlladlar
hey diri-diri!?
Bu sözlər göynədir,
həm göyü, yeri!!!
Oda atırmışlar,
yandırırmışlar?!
Soyuq qış suyunda

dondururmuşlar!?
Allahdan qorxmurmuş
kafir erməni!
Doğrudan heyrətə
salmışdır məni!?
Hələ də cəzasın
almamış bunlar???
Əksinə, car çəkib,
bu kafir, barbar,
Söyləyir "genosid",
filan bizimçün?
Nə qədər uydurub
yalan bizimçün?
Guya ki, qırmışdır
türklər onları?
Bir başa salan yox,
bu yasarları!
Deyələr "genosid"
törədən sənsən!
Əzəldən vəhşisən,

ən qaniçənsən!
Sən salan davanın
sorağı çatmış,
Türklər gəlib çıxmış,
səsiniz batmış!
Erməni–müsəlman
davası ki var,
Nuru Paşa deyən
igid cəngavər,
Bir türk komandanı,
başında əsgər,
Özünü yetirmiş,
bu dava bitmiş,
Kafir ermənilər
yurdumdan itmiş!
XI qızıl
orduyla birgə,
Erməni cəlladlar
cərgəbəcərgə,
Andronik, başında
vəhşi dığalar,

Bakıda, Şəkidə
xalqı qırmışlar!
Şamaxı, Qubanın
çox qəzaları,
Qana çalxayıbdır
Tanrı murdarı!
Qırmışlar barbarlar
köməksizləri,
Qan gölünə dönmüş
Quba düzləri!
Kazim Qara Bəkir
Paşam gəlmişdir,
Kafirlər üstündə
zəfər çalmışdır!
İndi zaman bunu
aşikar edir!
Qudurğan dığalar
nə cövlan edir?!
Türklər gəlməsəydi
Azərbaycana,
Bütün bu mənləkət

batarmış qana?
Ruslarla birləşib
bu nakəs yağı,
Çəkmişdi yurduma
dağ üstdən dağı!?
İndi nə istəyir,
şərin oğlu şər?!
Yenə də aldanır
bunlara bəşər?!
5-ci illərdə,
18-lərdə,
Qurbanlar törədib
çox-çox yerlərdə,
Sonra da
tarixi danızdırdılar!
Danışan dilləri
tapıb qırdılar!?
Lal edib xalqımı
rus şovinizmi,
Bu boyda cinayət
qalmışdır gizli!?

“37”-deyən
“ölüm maşını”,
Sürgünlərlə qatdı
xalqln başını!
Xalq öz dərdlərini
içində çəkdi!
Analar, bacılar
göz yaşı tökdü!
Dağıdıb yurdumun
xanəgahını,
Rus bərqərar etdi
öz tamahını!
Sonra da araya
“qardaşlıq!” qatdı,
Yurdumu taladı,
yadlara satdı!
Beləcə ört-basdır
etdi şərləri!
Hayları, eses və
menşevikləri,
Eylədi yurdumda

hökmüran, ağa,
Üst başa çəkildi
hər mundar dığa!
Zövq alır qanlardan
azğın yağılar,
Eyb etməz, fitnənin
yuyrdu dağılar!
Bəşər nifrət edir
bu mənfur ada,
Hökmüran olanmaz
onlar dünyada!

O zaman torpağa
gömdü dığalar!
Gizlədə bilməzlər
indi ağalar!
Törədilən dəhşət
göz qabağında!
Qaldılar dünyanın
söz qınağında!
Yalandı, böhtandı,
şərdi sözləri,

Düzü əyri görür
qanlı gözləri!
Nahaqdan tarixi
ləkələyirlər!
Haqq yaxalar tutub
silkələyirlər!
Kirli vicdanların
əməli budur!
Hiyləgər dığalar
haqqı unudur!
Bir yalan üstündə
qərar tutublar,
Bir qara kabus tək
hasar qurublar!
Bu qara böhtandan
elim qurtarar!
Tanrı bir eşidər,
bir verər qərar!
Bəşər tanımayır
bu şər oğlunu!
Necə aldadıblar

bəşər oğlunu?!
Çirkli niyyətləri
üzündə pərdə,
Bir gün düşəcəklər
yaman bir dərdə!
Bütün həqiqəti
görəndir Tanrım,
Qəzanın cəzasın
verəndir Tanrım!
Xocalı fəryadı
Unudularmı???
Kəlbəcər dərdindən
ağır dərd varmı???
Şuşa kimi qala
fitnə qurbanı,
Ağdərə, Qubadlı,
Laçın tufanı!
Bağanis Ayrımda
yandı beşikdə,
Üç ay yaşamadı,
südəmər körpə!

Yox! Tanrım!
Götürmə bu dəhşətləri!
Kürü yer üzündən
şər oğlu şəri!
Bəşər xilas olar,
şərdən qurtarar,
Bu dünya başabaş
gülüstan olar!

12.09.2009.

## Vətən keşikçisi

*İgid leytenant, şəhid Məhəmməd Məmmədova*

Ömrümü verdim mən, qurban, sadağa,
Ana, yollarımı gözləmə daha!
Canım sipər oldu ana torpağa,
Ana, yollarımı gözləmə daha!

Sən, ey həzin külək, bir salam apar,
Həsrət qalan yarım, saçın yolmasın!
Bizim məhəllədə sevgilim yaşar,
De ki, qara gözü yaşla dolmasın,
Həsrət qalan yarım saçın yolmasın!

Yurdum yad əllərdə, ruhum nigaran,
Bir gün də Şuşamı alarıq geri!
Ana, sən fəxr eylə, bu şəhid balan,
Vətən keçikçisi, Vətən sipəri,
Bir gün də Şuşanı alarıq geri!

Sən məni Vətənçün böyütdün, ana,
Mən şəhid oldum ki, gülsün Vətənim!
Yenidən qayıdıb, gəlsəm cahana,
Yenə şəhidlikdi qismətim mənim!
Mən şəhd oldum ki, gülsün Vətənim!

Ağlama arxamca, dözmərəm ana,
Qələbə günündə dönüb gələcəm!
Ey sevgili Vətən, borcluyam sana!
Göydən mələk kimi enib gələcəm!
Qələbə günündə dönüb gələcəm!

Necə bir fırtına gəldi cahana,
Sanki, göy titrədi, yerlər də dindi!
Oğul Məhəmmədi böyütdün, ana,
Şəhid Məhəmmədi qarşıla indi!
Sanki, göy titrədi, yerlər də dindi!

10.10.2020-ci il.

## Qələbə gətirdin...

*İgid leytenant, şəhid Yaqubov Mayis Rəhim oğluna*

İgid leytenantım, fəxrim, vüqarım,
Səni qalib kimi sevdi diyarım!
Düşməninə qanlar qusdurdun, Mayis!
Kafiri atəşlə susdurdun, Mayis!

Başını əzdin sən, o nakəslərin,
Arxası, köməyi oldun əsgərin!
Anadan olanda, ər doğulmuşdun!
Qalib cəngavərdin, alıcı quşdun!

Qartal tək sinəni gərdin Vətənə!
Vətən oğul dedi, Mayisim sənə!
Kəşfiyyata getdin cəsarətlə sən,
Əvəzsiz igidsən, onu bilirsən?

İstəyin yurdumu azad etməkdi,
Şanlı qəhrəmanlıq yolu getməkdi!
Yaddaşlara ər tək yazıldı adın!
Bircə an gözünü belə qırpmadın!

Tanrı saığal çəkmiş sənin telinə,
Qələbə gətirdin oğul, elinə!
Arzun qələbəydi, çatdın arzuna!
Yanıram, igidim, alın yazına!

Adına əjdaha əsgər deyirlər!
Sənə buta vermiş pirlər deyirlər!
Səfərin mübarək, adın mübarək!
Qəlbində atəşin, odun mübarək!

Qoca Daş Salahlı güvəndi sənə!
Qalib şəhid kimi döndün Vətənə!
Yurdumu düşməndən aldın, igidim!
Qarabağda zəfər çaldın, igidim!

Hər gün anan gözlər yolunu, bilsən,
Bayraqdar elədin elini, bilsən!
Göz yaşı soyutmaz odunu, Mayis!
Vətənim unutmaz adını, Mayis!

28.11.2020-ci il

## Qələbə marşı

Qalib əsgərəm!
Mən müzəffərəm!
Ana Vətənim,
Bir müjdə verəm!

Düşmən yenildi!
Yer-göyüm dindi!
Gözlərin aydın!
Qalibəm indi!

Torpaq alınd!
Zəfər çalındı!
Üç rəngli bayraq,
Dalğalan indi!

Baş Komandanım!
Varlığım, canım!
Qalib sərkərdəm!
Şöhrətim, şanım!

Başım sadağa!
Ana torpağa!
Oğlum yol salsın,
Qoy, Qarabağa!

Aldıq yağıdan,
Bürcü, qalanı!
Dünya görməyib,
Belə talanı!

Yurdlar dağılıb,
Viranə qalıb!
Ana Vətənim,
Taru-mar olub!

Ana, bil bunu,
Haqqadı yönüm!
Şəhadət günüm,
Həm müjdə günüm!

Gülsün üzümə,
Azad ölkəmiz!
Çalındı qəti,
Tam qələbəmiz!

21.11.2020-ci il.

## Əsgərim

Tarixim varaqlanır,
Atilla soraqlanır,
Mübariz yaraqlanır,
Sən qalibsən, əsgərim!

Türk oğlu, türksən yürü!
Dünyada təksən, yürü!
Düşmənə görksən, yürü!
Sən qalibsən əsgərim!

Ali Baş Komandanım!
Çağladı qızıl qanım!
Son  qələbə ünvanım!
Sən qalibsən, əsgərim!

Şuşamda bayrağım ol!
Murovda yarağım ol!
Haqqım ol, sorağım ol!
Sən qalibsən, əsgərim!

Oğul, həmişə varsan!
Əzəmətsən, vüqarsan!
Əbədi bayraqdarsan!
Sən qalibsən, əsgərim!
Sən qalibsən, əsgərim!

12.12.2020-ci il

## Yaşa Ərdoğanım, Türkiyəm!

Şəhidlərin al  qanından bayrağı var!
Atatürkdən miras qalan torpağı var!
Ərşə-gürşə meydan deyən növrağı var!
Haqdan yanan, alovlanan çırağı var!
Yaşa, Ərdoğanım, Türkiyəm!

Əsrin nəbzi səndə vurur!
Öz yurdunda gəz də məğrur,
Hər an yürü, hər an doğrul!
Arxanda nə ərlər durur?
Yaşa, Ərdoğanım, Türkiyəm!

Əqrəbdən yar olmaz, olmaz!
Qaplan kimi sərhəddi gəz!
Xainlərin başını əz!
Vətən eşqin heç tükənməz!
Yaşa, Ərdoğanım, Türkiyəm!

Yağış yağar, torpaq doyar,
Qardaş cana minnət qoyar!
Ömrümü möhnətdən qurtar!
Əsl igid, qaplan, soyər!
Yaşa, Əroğanım, Türkiyəm!

Bir qardaş ölkəsiyəm mən!
İgidlərin nəsliyəm mən!
Zərəngizin səsiyəm mən!
Soraq gəldi mənə Səndən!
Yaşa, Ərdoğanım, Türkiyə!
Yaşa Ərdoğanım, Türkiyə!

Bakı. 04.08.2020-ci il.

## Çağır məni

Ana Vətən!
Çağır məni!
Darda qalsan,
Gələrəm mən!
Hər ağrını, hər acını,
Silərəm mən,
Silərəm mən!

Şəhidimi,
Qucan torpaq!
Oxunmusan varaq-varaq!
Öp gözümdən,
Gəl ayrılaq!
Sənin üçün,
Ölərəm mən!
Ölərəm mən!

Yurdun bağrı ayaqlanır!
Burda mərdlər soraqlanır,
Gavur düşmən,
Nə haqq qanır!
Nə utanır!
Cəsədimlə,
sipərəm mən!

sipərəm mən!

Araz axır,
Kür də baxır!
Qanım Qarqar
olub, axır!
Namərd düşmən,
Yurdu yıxır!
Başımda tufan oynayır,
Gözümdə ildırım çaxır!
Nur tökülsün,
şəfəq-şəfəq,
Ovuc-ovuc
İçərəm mən!
içərəm mən!

Günəş çıxmır
Murovlara!!!
Tərsa hara?
Murov hara!
Vətən olan
Bu daşlara,
Al qanımı,
Çilərəm mən!
Çilərəm mən!

Haqqım gələ,
Bu dağlara!
Məzar ola,
Qorxaqlara!
Uçan ağban
Saraylara!
Dönərəm mən,
Dönərəm mən!
Gavır düşmən!
Onu bil ki!
Adı oğuz
Olan yurdda!
Sorağımız
Göy türklərdə!
Bayrağımız,
Şaman, Alpər!
Yol göstərən
Ulu Qurtla!
Pis qanına
Bələrəm mən!
Bələrəm mən!

Vəfa Dəmirçioğluyam!
Adı Avey soraqlıyam!
Düşmən haqsız!

Mən haqlıyam!
Bir gün olar,
Gülərəm mən!
Gülərəm mən!

Ana Vətən!
Çağır məni!
Gələrəm mən!
Gələrəm mən!
Hər ağrını,
Hər acını,
Bilərəm mən!
Bilərəm mən!

03.03.2020-ci il.

## Yazılsın bu gün

Şuşaya, Laçına xəbər göndərin!
Füzuli alındı, gəlirik deyin!
Darda qalanlarım gözləsin məni,
Sizin halınızı bilirik deyin!
Rəhbərim and içdiVətən adına!
Əsgərim and içdi torpaq adına!
Nigaran ruhlarım, nigaran yurdlar,
Sizlər də güc verin qol-qanadıma!

İgid əsgərinəm, candan keçərəm!
Vətənim gözləyir, vardı xəbərim!
Qalibəm, mən bu gün, əziz anacan!
Duaların olub, mənim sipərim!
Qarabağımı da azad edəcəm!
Kəlbəcərimə də rahat gedəcəm!
Atıldım mən hərbə, gülür gözlərim!
Çox yaxınlıqdadır mənim zəfərim!

Vətənə canımı əsirgəmərəm,
Gözəl yurdlarıma bir salam verəm!
Qubadlı da məndən imdad istəyir!
Cəbrayıl: “Gəl, məni azad et!”-deyir!

İgid əsgərinəm, candan keçərəm!
Vətənim gözləyir, vardır xəbərim!

Mən bu gün qalibəm, əziz anacan!
Duaların olub mənim sipərim!

Xocam Xocalı da ayaq üstədi!
Xocavənd də hazır, kəmərbəstədir!
Əsir yurdlarım da nəfəs dərməyir,
Hər an:"Gəl, bizləri azad et!"-deyir

Mən türk oğlu türkəm, vardır hünərim!
İlham-Ərdoğandır cücüm, kəsərim!
Keçərəm, bil, bütün keçilməzləri!
Yazılsın bu gündən hünər dəftərim!

01.10.2020-c i

## Daş Salahlı oyaqdır

*(Milli Ordunun könüllü döyüşçüsü bacım Vəfa Dəmirçioğlu və onun igid, qəhrəman cəbhə dostlarına)*

"Vətən!" deyib bu torpağı qoruyan,
Yaşıl düzü, göy bucağı qoruyan,
El-obamı, od-ocağı qoruyan,
İgidlərim Ana yurda dayaqdır!
Daş Salahlı gecə-gündüz oyaqdır!
Başımızı qara bulud alanda,
Gümanımız Tanrımıza qalanda,
Bir tərpəniş, bir həyəcan olanda,
İgidlərim Ana yurda dayaqdır!
Daş Salahlı gecə-gündüz oyaqdır!

Bilsin düşmən, sonra daha gec olar,
Qələbəyə inam da var, güc də var-
Bayrağımız bir gün ərşə ucalar...
İgidlərim Ana yurda dayaqdır!
Daş Salahlı gecə-gündüz oyaqdır!

Hər tufandan soyumasın sobalar,
Darıxmasın, karıxmasın obalar,
Bu torpağı miras qoyub babalar -
İgidlərim ana yurda dayaqdır!
Daş Salahlı gecə-gündüz oyaqdır!

Zərəngizəm, ana yurdumdur mənim,
Axan qanlar ağrım, dərdimdir mənim,
Canım, qanım, arxam, ordumdur mənim,
İgidlərim ana yurda dayaqdır!
Daş Salahlı gecə-gündüz oyaqdır!

1993.

## Bir gün

Qəm eləmə, məlul könlüm,
Od-ocağın yanar bir gün!
Gizli çəkdiyim dərdləri,
Dünyamız da qanar bir gün!

Dağlarım darda qalıbdır,
Ürəyim orda qalıbdır!
Boz qurdum yurdda qalıbdır,
Düşmənləri yenər bir gün!

Zərəngiz, hikmətə vardın,
Qara tellərin ağardı!
Elimin dünyaca dərdi,
Axır çalar zəfər bir gün!

## Nə idi günahımız?

"Təmiz insan, nahaq qan"
*(Xalq Rəssamı Mikayıl Abdullayev)*

Yandı bağrım, göynədi,
Nə idi günahımız?
Buna göylır nə dedi?
Nə idi günahımız?

A sım-asım asıldıq,
Basım-basım basıldıq!
Göydə haqqa qısıldıq!
Nə idi günahımız?

Saçlarıma dən gələr,
Gözlırimə çən gələr,
Mərhəmət Göydən gələr,
Nə idi günahımız?

Bax, o qanlı yaraya,
Düşmən girdi araya,
Dünya gəlsin haraya!
Nidi günahımız?

Yer ilə göy dayansın,
Qoy vicdanlar oyansın!
Dünya haqqa inansın!
Nə idi günahımız?

Ürəyimdə qəmim var,
Çalınmamış simim var,
Haqdan qeyri kimim var?
Nə idi günahımız?

## Qulağına çatar...

Qurd qorumadı bizi,
Mərd qoruymadı bizi,
Dərd qatdılar çörəyimə,
Dərd bizi qırdı qurtardı!

Gözdə bəbəklər saraldı,
Canda hövsələ daraldı,
Ağladıq, göylər qaraldı,
Dərd bizi qırdı qurtardı!

Düşmən qatar-qatar, Allah!
Ahım səni tatar Allah!
Qulağına çatar, Allah!
Dərd bizi qırdı qurtardı!

Dan yeri-qanlı sərgimi?
Kimə söyləyim dərdimi?
Asılanım, didərginim?
Dərd bizi qırdı qurtardı?

## Salam, Fidat Palıd!

Qələmçə meşəsində,
Bir  Fidat yaşayır,
Palıd donunda!
Bir palıd ucalır,
Fidat adında!
Fidat çox səngərlər
Keçdi, dolandı...
Hər səngər.
Fidata xatirə tutdu.
Əfqan torpağında
Göylər dumandı!
Demirəm ki,
Fidat bunu unutdu!
Vəən orpağında,
Yarpaq da qandı,
Gğrürdü, bunları
Gözüylə Fidat!
Yaşadıb, şaxlardı,
Özüylə Fidat!
Hərdən səngərləri
Xatırlayardı...
Sonuncu xatirə
Palıd köksündə!

Özünə bir səngər
Seçmişdi onu.
Ürəyindən dəydi!
Namərd gülləsi,
Töküldü torpağa,
Al-qızıl qanı!
Bəli, ürəyindən
axan qan ilə,
Suvardı Palıdı!
Həyəcan ilə...
Silkələndi, palıd:
Nə oldu, Allah!
Bayaqdan döyüşən
O qoçaq əsgər,
Deyəsən, deyəsən,
Vuruldu, Allah?
Bu nədir?
Kökümə isti,
Qan gəlir?
Mən adam oluram,
Deyən, ay Allah?
Gövdəmə, canıma,
Ruh, insan gəlir?
Fidat Palıd kimi
Çökmüşdü yerə,

Palıd Fidat kimi,
Qalxdı göylərə!

Şəhidin qanıyla
Suvarılmasa,
Ora Vətən deyil,
Dedi babalar!
Qələmçə meşəsi!
Səndə, yadigar,
Bir Palıd yaşayır!
Fidat adında!
Bir Fidat yaşayır,
Palıd donunda!
Salam,Fidat Palıd!
Salam, Şəhid Palıd!
Salam, Vətən Palıd!

**Baba, sənin xəbərin var?**

*(Səməd Vurğuna)*

Yusif kimi gəzəl Yusif,
bu dünyadan köçdü, getdi,
Baba, sənin xəbərin var?
Həqq əlindən haqq badəsi
Naqafildən içdi getdi,
Baba, sənin xəbərin var?

Əzəldən butalı idi,
Hər mətləbdən halı idi,
Sevimli, vəfalı idi,
Dövrü çox xatalı idi,
Baba, sənin xəbərin var?

Tanrı sirdi, dünya naşı,
Göyərmir qaraca daşı,
Titrətdi ağlımı, huşu,
Kür, Araz oldu göz yaşım,
Baba, sənin xəbərin var?

Açılmır Fələk düyünü,
Qurtarmır namərd oyunu,
İnsan itirib soyunu,
Torpaq qan ilə yuyunur,
Baba, sənin xəbərin var?

Çox butalar verən oldu,
Ərən idi, ərən oldu,
Görülməzi görən oldu,
Qara saçı dən-dən oldu,
Baba, sənin xəbərin var?

Həsrəti Xəzərdən dərin,
Sirrin bildi göyün, yerin,
Xocasıdır ölməzlərin,
Kamalına səd afərin,
Baba, sənin xəbərin var?

Elin hikmətinə vardı,
Eşqi sönməz bir bahardı,
Ərəsət, tufan qopardı,
Özüylə sevgi apardı,
Baba, sənin xəbərin var?

Dağlarımız muma döndü,
Qürurumuz şuma döndü,
Kükrədi səmuma döndü,
Göydən fəlakətlər endi,
Baba, sənin xəbərin var?

Ruhu bənövşə qoxuyar,
Zərəngiz yanar-yaxılar,
Məzarında qoşa küknar,
Üstündə qumru oxuyar,
Baba, sənin xəbərin var?

## Şəhidlərin "Qız qardaşı"

*(Qəhrəman bacım-Milli Ordunun könüllü döyüşçüsü Vəfa Dəmirçioğluna bu adı verən Gülaya Həsənovaya minnətdarlığımı bildirirəm)*

Şəhidlərin "Qız qardaşı"-
Adın mübarək, İgidim!
Aslanların, ərənlərin,
İçində çiçək, İgidim!

Sən qorudun canın ilə,
İndi gülüstan Vətənin!
Yaraşdırdı hünərinə,
Uca şöhrət, şan Vətənin!

Sən igidsən bu adını,
Halallıqla qazanmısan!
Öz eşqini torpağına,
Qanın ilə yazanmışsan?

Ulu məqam, uca türbə
Yaraşır, mərdim, adına!
Qədir bilənlər var olsun!
Mənə əziz, sənə doğma!

Mərdliyinlə Vətənimə
Uca məqam gətirmisən!
Yurd eşqini, ey qəhrəman,
Şəhadətə yetirmisən!

İti ağılın, sevən qəlblə,
Düşmənlərdən qisas aldın!
Yurd qorudun, Vətən sevdin,
Beləcə tarixdə qaldın!

Ruhun bizə kömək olsun,
Uca göylərdən, igidim!
Qələbəyə qoşaq daha,
Günü səhərdən, igidim!

Mərd adınla mərd yaşadın!
Yaşa, Vəfa Dəmirçioğlu!
Ruhumla həyatda varsan,
Qoşa, Vəfa Dəmirçioğlu!

15.03.2018-ci il.

## Yurda Vəfalı

İgid əsgərim!
Yurda vəfalım!
Fəxrim, vüqarım!
Vətən butalım!

Xalqım unutmur,
Bu xidmətini,
Qəlblərdə qazdın,
Sən surətini!

Yaşadın məğrur,
Qanında qeyrət!
İgid Vəfamı!
Çox sevir millət!

Dəmirçioğlu!
Adı yaşayır,
İgidlik eşqi,
Sənlə başlayır!

Sən Vətəninə,
Fəxr, vüqarsan!
Qışda, baharda,
Həmişə varsan!

Körpə fidanlar,
Unutmur səni!
Sən də ruhunla,
Qoru Vətəni!

02.07.2018-ci il.

## Yürü əsgər

Yaralarım səngiməyir!
Yurdum intiqam istəyir!
Yürü əsgər, yürü əsgər!
Harda hünər, orda zəfər!

Düşmən bağrını əzməyə!
Vətən sərhəddi gəzməyə!
Ucal əsgər, ucal əsgər!
Düşmənimdən öc al, əsgər!

Vətən çağırır, dardadır!
Analar intizardadır!
Yağıya gücümü göstər!
Səhvini, suçunu göstər!

Qəlbimdə dözüm var bu gün!
Ərlərə sözüm var bu gün!
Yeriyək düşmən üstünə!
Duraq yağının qəsdinə!

Qüvvəmizə arxalandıq!
Məşəl olub alovlandıq!
Vətənim bu gün səfərbər!
Yürü əsgər, yürü əsgər!

## Bayrağımı çək başına!

Kim verəcək təpər bizə?
Gülsün elə bəşər bizə?
Vətən, güvən qeyrətinə,
Neyləyəcək bu şər bizə?

Çağırır odda yananlar,
Çağırır şəhid fidanlar,
Bayrağımı çək başına,
Utansın bizi dananlar!

Yerdə qaldı igid qanı,
Dili kəsik körpən hanı?
Vətən, dözmə göz dağına!
Qopar ərəsət tufanı!

Hayqır, ayılt bu dünyanı!
Ulu xalqın qəhrəmanı,
Kor dünya, aç de, gözünü!
Tanı, həqiqəti, tanı!

Qarabağa yol salınsın!
Təbillərim gur çalınsın!
Ya bu gündə, ya sabahda,
Qan alınsın, öc alınsın!

Çəkil! Qəvi düşmən, çəkil!
Yerini bil, həddini bil!
Xocam xocalıq taxtında!
Gül üstündə ötər bülbül!

Göydə uçan mələklərim,
Yerdə açan çiçəklərim,
İnanıram Tanrıma mən!
Güləcəkdir diləklərim!

Göyçə də mənim olacaq!
Düşmənə qənim olacaq!
Qoca tarix! Yol ver bizə!
Dalğalansın uca bayraq!

Hayqır, igidim, amandı!
Susmuşuq xeyli zamandı!
İçin-çölün alovlansın!
Həlledici imtahandır!

## İradəmiz yenilməsin

Yara dərin, bu gün fəqət,
Qoy eşitsin məni millət,
İradəmiz yenilməsin!
Yağı düşmən qoy gülməsin!

Bu dərdimi ovudacaq,
Səngərləri dağıdacaq,
Bir təpər var ürəyimdə!
Tanrı gücü biləyimdə!

Ordu quraq, səf-səf duraq!
Düşmənlərə qan udduraq!
Kor olmuşduq tüstümüzdən,
Qəza keçdi üstümüzdən!

## İndi qeyrət zamanıdır

Alovlanır içim–çölüm!
Ey igidlər, yaxşı bilin!
İndi qeyrət zamanıdır!
Yurdun imtahan anıdır!

Dalğalansın bayrağımız!
Yox! Dağılmaz növrağımız!
Oğuz eli ölməmişdir!
Düşmən görə bilməmişdir!
Damarımda axan qandır!
Həlledici imtahandır!
Ya, bu günüm, ya sabahım!
Qoy qurulsun ordugahım!

Guruldasın mərmilərim!
Düşmən üstədir səfərim!
Mübarizlər doğulacaq!
Düşmənlərim qovulacaq!

## Güləcəksən yenə Vətən!

Alovlara sinə gərən,
Vətənsevən bir əsgərəm!
Bu gün məğlubdur ölkəmiz!
Vətən eşqim–ümman, dəniz!

Yenilməzlər ordusuyuq!
Canfədalıq bizə buyruq!
Haqq yoluyla mən gedərəm!
Torpağı azad edərəm!
Od almışam ocağımdan,
Ad almışam torpağımdan!
Sadiqəm mən sənə Vətən!
Güləcəksən  yenə Vətən!

## Sözüm var mənim

Dalğalı dənizlər qoy coşmasınlar,
Çaylar məcrasını çox aşmasınlar,
Zəkalı şairlər söz qoşmasınlar,
Şahə dayanıbdır təbi- köhlənim,
Hələ bu dünyaya sözüm var mənim!

Hərcayı gədalar dönməsin yelə!
Dəyib toxunmasın obaya, elə!
Əriyər dağlarım dönər bir selə!
Güllələr bitirər çölüm-çəmənim!
Hələ bu dünyaya sözüm var mənim!

Oğuz qəbirləri tapdağ oldumu?
Sınan ürəkdimi, düşən qoldumu?
Bu yol həqiqətə gedən yoldumu?
Qoy, bir yol məhv olub, ölsün düşmənim!
Hələ bu dünyaya sözüm var mənim!

Körpə çiçəkləri güllə biçməsin!
Qoy, mərdin qanını namərd içməsin!
Dünya bu qırğından soyuq keçməsin!
Yoxsa coşa gələr, qaynayar qanım!
Hələ bu dünyaya sözüm var mənim!

Zərəngiz, istəsən baharın olsun,
Gülüstan deyilən diyarın olsun,
Onda düşün, qəti qərarın olsun,
Çünki, amandadır bu gün Vətənim!
Hələ bu dünyaya sözüm var məni!

## Şikəstələr ölkəsi

Dağı uca, torpağın dürr, daşın gövhər, suyun
mərcan,
Can demişəm çağrışına, canıma can Azərbaycan!

Ruhum oynar qartal kimi qoca Qafqaz zirvəsində,
Köksüm dolu bir Xəzərdir, bu mənalar ölkəsində!

Sərinlədər ürəkləri, təbim Şahdağ qarı kimi,
Könlüm mədən dolu məna, Kəlbəcərin varı kimi.

Saf diləklə ayna tutdum, Göygölümün sinəsinə,
Bülbül kimi nəğmə dedim şikəstələr ölkəsinə!

Laçın, Ağrı dağ qartalı həsrətimdən qocalmışdır,
Ahım göyə bülənd olan Göyəzən tək ucalmışdır.

Anam, sonam, Qırxqız, Şuşa, qədim Göyçə,
Gözü yolda həsrətlim var neçə-neçə.

Nənəm, babam, Dərbənd, Təbriz, Laçın ağlar,
Damarımda qanım kimi, Kür-Arazım, Xaçın
ağlar!

Həkəri, Bərgüşad gurlar haqdan gələn sədam
kimi,
Sözüm qaynar dağ köksümdən Damçılılı çeşmən
kimi.

Kitablarım tala-tala, bir gülüstan, çəmən olmuş,
Adım qoşa Avey ilə, elə həmən-həmən olmuş.

Vətən köksüm şəhid-şəhid yaralardan ağrıyıbdır,
Qartal sözüm Savalanın zirvəsindən şığıyıbdır.

Can vermişəm hər mənana, eşqim sənə mehman olmuş,

Təbim çağlar dəryan kimi, təlatümlü ümman olmuş.

Gün olacaq şeirim ilə qələbəni çalacağam,
Dilbər yurdum Qarabağı düşmənlərdən alacağam!

Zərəngizəm, ölməmişəm, yaşayıram, mən ki, sağam!
Bu hiyləgər, bic düşməni torpağımdan qovacağam!!!

## Təsəlli

Qəlbimdə arzular ümman qədərdir,
Xəyalım göylərdə səyyarələrdir.
Ruhum, cismim, gözüm daim gülərdir,
Düşmənə üsyanım təbəssümümdür!

Həyat gülümsəsə, donar qüssə, qəm,
Yalançı sevinci mən istəmirəm,
Ürəyim açılır güləndə aləm,
Pisə, yamanlığa ruhum qənimdir.

Tanrıdan yurduma kərəm istədim,
Sağalar qəlbimdə yaram, istədim,
Dünyada bir büsat quram istədim,
Zərəngiz təsəllim, sözüm-ünümdür!

25. 09.2005.

## Gözün aydın, Vətən!

Qələbə çalanda Vətən!-
Bilirsən neyləyəcəm?
Qalib gələn günümüzdə
Ağlayıb, göynəyəcəm!
Əsəcəm, selləyəcəm,
Dəryalar, dənizlər tək,
Coşacam, çağlayacam!
Ürəkdən ağlayacam-
Göz yaşımı gölləyəcəm!
Ölənlərə, itənlərə,
Köçənlərə yox!
Qaralan ocaq yerinə,
Şəhid körpə təbəssümünə,
Ağızda kəsilən dillərə,
Sındırılan dişlərə, əllərə,
Qollara, qıçlara, boyunlara,
Kəsilən başlara,
Pərişan saçlara,
Acı-acı yaşlara,
Arzulara, ümidlərə,
Qara yağan yağışlara!
Dərdi hasar tək ucalan,
Qalalaşan analara,
Palıdlara, söyüdlərə,

Çiçəklərə, şəhid ağaclara...
Həsrətdə qalan sevincimə,
Gülüşə həsrət gözlərə,
"Can!", "Dərdin alım"-
Deyə bilməyən dillərə!
Sızlayacam, ağlayacam!
Şəlalə, göy gurultusu,
Gurşad yağış kimi çağlayacam!
Göz yaşlarım axdığı yerdən,
Qəzəbim çaxdığı yerdən,
Ürəyimi çıxdığı yerdən,
Düşmənin "ağban evlər"imi,
Uçurub, yıxdığı yerdən,
Ərlik, ərənlik, yurdsevərlik göyərəcək!
bir də son, qəti qələbə bitəcək!
Ümidlər, sevgilər, göyərəcək!
Bülbüllər, qumrular,
Nəğmələr ötəcək-
Gözün aydın Vətən!
Gözün aydın Vətən!
Deyəcəm, insallah!
Canidildən, könüldən,
Ürəkdən, ucadan, bərkdən!

20.02.2002.

## İntiqama çağırış

Ac-yalavac qalanlar,
O lüt-üryan fidanlar,
Çarmıxa çəkilənlər!
Torpağa əkilənlər!
Gözləri baxa-baxa,
Qanları axa-axa!
Dərisi soyulanlar!
Məzara qoyulanlar!
Çağırır səni, Yurdum!
Çağır qibləmi, Yurdum!
Daha dözə bilmirəm,
Qana-qan söylə, Vətən!
Yerim-Göyüm bağırır,
İntiqama çağırır!
Torpağım bölüm-bölüm,
Ya öldürüm, ya ölüm!
Son nəfəsimdə tərpən,
Qana-qan söylə, Vətən!
Açmır Xarıbülbülüm,
Nigaran yurdum, elin,
Ər-şahbaz igidlərim,
Çoxalır dərdi-sərim!
Bəyzadə gəlinlərim,

Al-xara geyənlərim,
Şikəstə deyənlərim,
Çağırır səni, Yurdum!
Cövlana gəlsin ordum!
Cövlana gəlsin ordum!

## Gör hansı zamanlar düşür yadıma?

*(Aşıq Şəmşirə)*
*(Kəlbəcər 1993-cü il aprelin 2-də erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Aşıq Şəmşirin məzarı vəhşicəsinə dağıdıldı)*

Dağların, bağların oda qalandı,
Köçdü Kəlbəcərin cəlalı, Şəmşir!
Gözəl yaylaqların alışdı-yandı,
Kül oldu Vurğunun xəyalı, Şəmşir!

Ağdaban dağıldı, ruhum göynədi,
Kafir qırdı-tökdü yurdu, neylədi?
Açıb-bükənmirəm bu ağır dərdi,
Oldum ürəyimdən yaralı, Şəmşir!

Yansın erməni, çalda, çəpərdə!
Söz deyə bilmirəm cavana, mərdə,
Köçdü Sücayətim durduğu yerdə!
Yaman kəsilibmiş qərarı, Şəmşir!

Alışıb-yanıram, çatın dadıma,
Nə deyim Vurğuna, söz ustadıma?
Gör hansı zamanlar düşür yadıma?
Ceyran bulağından aralı, Şəmşir!

“Kəklikli daşlar”ın qana bulandı,
Ceyranın yanında balası yandı!
Gözlülər görməsin, bu nə tufandı!?
Silinməz düşmənin babalı, Şəmşir!

Dünyadı, keçəcək, qəm belə qalmaz!
Xəyalım o yurdu gəzər, yorulmaz!
Qanlı göz yaşımın suyu durulmaz,
Sən çatdır dərgaha bu halı, Şəmşir!

Ruhunla dağları bir başa-baş gəz,
Qızılgül kolunda qanqal bitənməz!
Zərəngiz o yurdu heç kəsə verməz!
Sızlaram, ağızım dualı, Şəmşir!
Sızlaram, ağızım dualı, Şəmşir!
12.02.2012.

## Yaşadıq

*(Son hadisələr zamanı Şəhid olan əsgərlərə)*

Zaman - zaman aldı bizi ağuşuna,
Ölüm, qırğın, qan, yaşadıq!
Yem etdilər cismimizi qurğuşuna,
Alnımızda şərəf, şöhrət, şan, yaşadıq!

Ancaq dana bilmədilər haqq işimi,
Dəyişdirə bilmədilər vərdişimi,
Dağıtdılar torpağımı, növrağımı, bayrağımı,
Sübhümüzdə söküldükcə dan, yaşadıq!

Düşmən qədim yurdlarımı unutdurdu,
Birləşərək millətimə qan uddurdu,
Biz susduqca, yağı coşdu, hey qudurdu,
Qəlbimizdə dözülməz hicran, yaşadıq!?

Çörəyimə şərik oldu bir kəmhünər,
Gözlərində qəzəb, hiylə, kin, nə qədər?
Canfədalar nəsliyik biz, bilmədilər!
Tariximdə neçə qəhrəman, yaşadıq!

Dərbənd, Təbriz-müasir müstəmləkələr!
Vedi, Göyçə, Borçalıdı ağ ləkələr,
Kəlbəcərim, Qarabağım bilmir məgər?
Bir ürəyik, bir bölünməz can, yaşadıq?

Türkün eli, türkün əri, ayıq olun!
Sökün, yıxın bu sədləri, ayıq olun!
Qoca Turan əsrlərin cəgavəri, ayıq olun!
Bölünməsin qoy Azərbaycan, yaşadıq !!!

18.04.2016

## *MÜXTƏLİF ŞEİRLƏR*

### Var ol, a Daş Salahlı

Cənnətdənmi enmisən?
Qüdrətdənmi dinmisən?
Aveyə söykənmisən,
Var ol, a Daş Salahlı!

Sevmişəm oylağını,
Səfalı yaylağını,
Damcılı bulağını,
Var ol, a Daş Salahlı!

Hər qeylü-qalın gözəl!
Hüsnü-camalın gözəl!
Beçədə balın gözəl
Var ol, a Daş Salahlı!

Aşırlıda güllərin,
Oxusun bülbüllərin,
Heyran qoydun elləri,
Var ol, a Daş Salahlı!

Göl yeri oylağın var,
Bir Qara bulağın var,
Hər fəsil qonağın var!
Var ol, a Daş Salahlı!

Ana qucağın gözəl,
Səsin-sorağın gözəl,
Yansın çırağın, gözəl!
Var ol, a Daş Salahlı!

Adın tutub cahanı,
Şeirin, sözün məkanı,
Sən ərənlər sultanı!
Var ol, a Daş Salahlı!

İgidlərin adı min,
Ürəyinin odu min,
Vəfası, Fidatı min!
Var ol, a Daş Salahlı!

Ərənlər məkanısan,
Söz-sənət ünvanısan,
Zərəngizin canısan!
Var ol, a Daş Salahlı!
Var ol, a Daş Salahlı!

## Əlli beş yaşım

İki “5” almışam Tanrıdan bu gün,
Tanrı verdiyindən gözəli yoxdu!
Ömür barxanası salmışam bu gün,
Al-yaşıl atlasdı, xəzəli yoxdu.

Ürək-saf gövhərdi, sinəm sədəfdi,
Fikrim-tərlan quşu, zirvə hədəfdi!
Həyat-sirr boxçası, əlvan kələfdi,
Ha çöz ki, axırı, əvvəli yoxdu.

Əslim pak, zatım pak, təmiz qanlıyam,
Ağlım-ümman, dərya, həyəcanlıyam,
Atamla, anamla adlı-sanlıyam,
Zərəngiz, onlardan özəli yoxdu!

16.02.2017.

## Xoş gəldin

İki “5” qoşa-qoşa,
İki “5” yaşa-yaşa,
Olur “55”-tamaşa,
Nömrə, xöş gəldin!
Xoş gəldin!

Günəşim, ayım var mənim,
Büllur sarayım var mənim,
Xızrdan payım var mənim,
Əmrə xoş gəldin!
Xoş gəldin!

Nurla, eşqlə doluyam,
Haqq göndərən, haqq quluyam!
Mən Zərəngiz Qayalıyam-
Ömrə xoş gəldin!
Xoş gəldin!
15.02.2017-ci il.

## Ay ana

*(Anama)*

Qıvrım–qıvrım tellərimi darardın,
İndi qızın ana olub, ay ana!
Çiçək kimi körpə nəvələrin var,
Evim, bir əfsanə olub, ay ana!

Çəmən, çiçək oxşayanda gözümü,
Təbiətə söyləmişdim sözümü,
Yaz olanda uşaq billəm özümü,
Ürəyim pərvanə olub, ay ana!

Sən balanı xoş arzuyla böyütdün,
Çəmən yaşıl, dəniz mavi, söyüd tünd,
Bir alovdum, tufanında soyutdu,
Dünya xarabxanə olub, ay ana!

Ürəyimdə bir ərzim var, haqdadır,
Fələk mənim gözümü oymaqdadır,
Nəsimi tək dərimi soymaqdadır.
Sinəm də dərdxanə olub, ay ana!

Zərəngizi pir tutarmı, görəsən?
Sevgisiylə uyudarmı, görəsən?
Axıracan mənlə yarmı, görəsən?
Pənahım Mövlanə olub, ay ana?

06. 04.2010

## Əlli yaşıma

Çiçəklər ətriylə yaysın eşqimi,
Dağlar, dumanın da, çəninlə gəlsin!
Mənim 50 yaşım, mənim şah yaşım!
Ömrümün xoş günü səninlə gəlsin!

Qar olsan zirvədən almaq istərəm,
Bar olsan budaqdan salmaq istərəm,
Qəlbinə dəniz tək dolmaq istərəm,
Köklə sarı simi, dəminlə gəlsin!

Ömür tamaşadır, həyat səhnədir,
Dünya dəyirmandır, çarxı köhnədir,
Suyu selləmədir, arxı dəhnədir,
Zərəngiz, de bəxtin gəminlə gəlsin!

30.06.2012

## "Yanıq Kərəmi"

*(Əməkdar İncəsənət Xadimi aşıq Ədalət Nəsibova)*

Ziyadxan babamın Rəsul oğlunun
Sevdasına "Yanıq Kərəmi" çal, aşıq!
Alovlanıb yanır sazın simləri,
Sazın yanır, özün yanma, qal, aşıq!
Nəvasına, "Yanıq Kərəmi" çal aşıq!

Dartınırsan oda sarı yanırsan!
Od köynəyin-od hasarı, yanırsan!
Hazaratı çağır barı, yanırsan!
Qucaq-qucaq gül sənindir al, aşıq!
Bahasına, "Yanıq Kərəmi" çal, aşıq!

Bu fələyin çox cövrünü görmüşəm,
Kafirlərin hər tövrünü görmüşəm,
Anaların nə səbrini görmüşəm?
Bir el tamam yandı, oldu kül, aşıq?
Obasına, "Yanıq Kərəmi" çal, aşıq!

Çal Ədalət, qəmin yaman qəmiymiş?
O dəmlər də elə həmin dəmiymiş,
Heç demirsən Əsli, Kərəm kimiymiş?
Dərdlərini dostun ilə böl, aşıq!
Qovğasına, "Yanıq Kərəmi" çal, aşıq!

Bu yazıdı, bu əmrdir, çıxılmaz!
Zülm əliylə haqqın evi yıxılmaz!
Gedər zalım, zülm yerində qalmaz,
Qaynar qanım, ceyhun yaşım sel, aşıq!
Nidasına, "Yanıq Kərəmi" çal, aşıq!

Bir yaralı aslan kimi inlərəm,
Tanrı qulu şaman kimi inlərəm,
Fəryad çəkib, kaman kimi inlərəm,
Qırılıbdır ürəyimdə tel, aşıq!
Sədasına, "Yanıq Kərəmi" çal, açıq!

Zərəngizəm, güllü yaza heyranam!
Göydə durna, göldə qaza heyranam!
Bülbül gülə, mən də saza heyranam!
Yaman saldın ürəyimə yol, aşıq!
Qadasına, "Yanıq Kərəmi" çal aşıq!

## Kəndim

Bir yanın Qarasu, bir yanın Avey,
Axarlı, baxarlı, çinarlı kəndim!
Damcılı bulağın cənnətdəki mey,
Yarpızlı, pencərli, lilparlı, kəndim!

Qoynunda xəzinə, dürr Avey dağı,
Damcılın zövq verər ilk bahar çağı,
Alimlər, şairlər, pirlər ovlağı,
İgidlərin beli xəncərli kəndim!

"Bəynişan" deyildi oğullarına,
"Çırağban" deyildi sonsuz varına,
Ərənlərin bənzər səf dağlarına,
Zirvəli, arxalı, sipərli kəndim!

Könüllər söz deyər gözəl hüsnünə,
Mən şükür edirəm bu xoşbəxt günə,
Düşmənini salar tərsə, düyünə,
Toplu, topxanalı, səngərli kəndim!

Qazax mahalında Daş Salahlılar,
Oğlu da, qızı da yaşar bəxtiyar,
Tükənməz sərvəti, sonsuz varı var,
Gələcəyi nurlu, baharlı kəndim!

Mirzə Səməd, Paşa nəğmələr qoşdu,
Baharın eşqiylə çağladı, coşdu,
Mehrin ürəklərdə çoxaldı, daşdı,
Sözü məhəbbətdən tumarlı kəndim!

Aşığın çağlasın elin toyunda,
Şəfam Damcılımın bulaq suyunda,
Zərəngiz dil açdı ana qoynunda,
Sözüm lalasından ovxarlı, kəndim!

05.07.2008

## Dərbənd dedi ...

Dədəm Qorqud girib mənim yuxuma,
“Dərbənd!”-dedi, saçın yoldu, ağladı!
Qulağımda zambraqlar çalındı,
Arazla, Kür şahə qalxdı çağladı!
Dədəm Qorqud: “Dərbənd!”-dedi, ağladı!

Savalan Vətənin çiyərparası,
Göyçə elin ürəyinin yarısı,
Borçalı yurdumun bəbək qarası,
Ceyhun kimi gözümdən qan çağladı!
Dədəm Qorqud: ”Dərbənd!”-dedi, ağladı!

Fələk bizə niyə belə zülm edər?
Qapı bağlı, oğul qalıb dərbədər?
Ulu türk nəsliyik, bilmirlər, məgər?
Yollarımı zalım düşmən bağladı!
Dədəm Qorqud: ”Dərbənd!”-dedi, ağladı!

Burnuma bir yovşan iyi toxundu,
Qulağımda “Allah-Əkbər”-oxundu,
Bu dünyanın bir sahibi yox, indi?
Boynu bükük bənövşələr yuxladı,
Dədəm Qorqud: ”Dərbənd!”-dedi ağladı!

Məğlub gəzmək mənə yaman ar gəlir!
Nuhun gəmisindən dogma yar gəlir,
Gəmiqaya təpəsindən qar gəlir,
Simurq quşu göydə qanad saxladı,
Dədəm Qorqud: "Dərbəd!"- dedi, ağladı

Arxivlər açıldı, Təbəri keçdi,
Neçə yüzilliyin xəbəri keçdi,
Belindən İncəçay kəməri keçdi,
Qazax, köks ötürdü, durdu, toxtadı,
Dədəm Qorqud: "Dərbənd!"-dedi ağladı!

Şuşa- qəlbim, bilin, cilik-cilikdi,
Laçın darda, Kəlbəcərim perikdi,
Topxanasız seyran, cüyür, əlikdi,
Murov dürna tellərini qoxladı!
Dədəm Qorqud: "Dərbənd!"- dedi, ağladı!

Avey ruhu damcı oldu, süzüldü,
Şah dağ, Qafqaz əmrə hazır düzüldü,
Yatmış idim elə bil ki, yüz ildi,
Xəzərimiz neçə sahil bağladı?
Dədəm Qorqud: "Dədbənd!"-dedi, ağladı!

Gəzmişəm dənizi okeanı, çayı,
Şirvanşahlar, Atabəylər sarayı,
Zülfüqar dayımın qulancar payı,
Süfrəm üstə samavarım qaynadı,
Dədəm Qorqud: “Dərbənd!”-dedi ağladı!

Viranə bağçalar, viranə bağlar!
Həkəri, Bərgüşad qəlbindən ağlar!
Zərəngiz dərdini içində saxlar,
Mövlam özü zamanı buxovladı!
Dədəm Qorqud: “Dərbənd!”-dedi ağladı!

25.05.2017-ci il.

## Sevinsin

*(Toyda Museyib və onun dostları mənim şeirimi oxuduğunu dedilər)*

Başınıza dönüm, ay Qazaxlılar!
Oxuyun şeirimi, sözüm sevinsin!
Al-yaşıl geyinmiş uca dağlara,
Bir baxım doyunca, gözüm sevinsin!

Sözün şirəsini çəkən arıyam,
Elin sərvətiyəm, elin varıyam,
Sənət zirvəsinə yetəm, yarıyam,
Çatam söz tonqlı, közüm sevinsin!

Yazıldı qəlbimə sözlər sir kimi,
Vaqifi, Vurğunu sevdim pir kimi,
Abbas, xəstə Qasım, dədə Qurbani,
Ələsgər yolunda izim sevinsin!

Kükrəyən, çırpınan nəhrlər mənəm!
Açılan, tutulan səhərlər məbəm!
Zərəngiz, yazdığın sətirlər mənəm,
Yanlışım, naxışım, düzüm sevinsin!

## “Atamsız Atamla” silsiləsindən

### *Ata*

Sevgimin bir adı ATA deməkdir
Tanrının verdiyi buta deməkdir!
Hər bir dövranların bayrağı ATA!
Bütün zamanların növrağı ATA!
Atasız bir evin üst damı yoxdur!
Atasız günəş də mənə soyuqdur!
Ata övladına göydən nur ələr,
Ata ömürləri nəşəyə bələr!
Atanın ürəyi cahan qədərdir!
Atanın sevgisi mman qədərdir!
Atasız yer ağlar, göy qəmə batar,
Ata övladını ucada tutar!
Atanın nəfəsi dirilik suyu,
Atanın kölgəsi bir elin toyu,
Ömür bağçasının bağbanı ATA!
Uğurun, sevincin ünvanı ATA!
Atasız balanın gözləri gülməz,
Ata olan evin gülşəni solmaz!
Atanın kölgəsi haqqın dayağı,
Atanın varlığı uğur sorağı!
Övladın başının tacıdır ATA,
Vətənin düşməndən öcüdür ATA!

Atanın bağında çiçəklər solmaz,
Ataya bərabər dünyada olmaz!
Atanın çiynində dayanar cahan!
Atanın gözündə şəfəqlənər dan!
Atanın nəfəsi Xızr nəfəsi,
Atanın öyüdü Quran kəlməsi!
Övladını haqqa çağırdın, ATA,
Dünyamı nur ilə yoğurdun, ATA!

## *Atama*

Bircə “Can!”-söyləsən, dünya gülərdi,
Ürəyim yadı da doğma bilərdi,
Bu bivəfa dünya gəldi-gedərdi…
Taledən müjdəmdin, payımdın, ATA!
Dünyada günəşim, ayımdın, ATA!

Yazı belə gəldi bizə, bilmirəm?
Sənsiz gülşənində gəzə bilmirəm,
Dünya dərd nəhridir, üzə bilmirəm,
Taledən müjdəmdin, payımdın, ATA!
Dünyada günəşim, ayımdın, ATA!

Sən tək ürək dostum bir daha olmaz,
Deyirdin dayanma, vaxt var ikən yaz!
Yuxuma girmişdin-SƏN, Bahar və Saz,
Taledən müjdəmdin, payımdın, ATA!
Dünyada günəşim, ayımdın, ATA!

Min çalarlı dünyam ovuldu, getdi,
Gülşənimdən bülbül sovuldu, getdi,
Elə bil yer göyə sovruldu, getdi,
Taledən müjdəmdin, payımdın, ATA!
Dünyada günəşim, ayımdın, ATA!

Bağçanda bülbüllər ötər, ağlaram,
Köksündə bənövşə bitər, ağlaram,
Yoxluğun dərdindən betər, ağlaram,
Taledən müjdəmdin, payımdın, ATA!
Dünyada günəşim, ayımdın, ATA!

Zərəngiz kimsəyə deyə bilməyir,
Dərd açı loxmadır, yeyə bilməyir,
Gedən geri dönmür, niyə, bilməyir?
Taledən müjdəmdin, payımdın, ATA!
Dünyada günəşim, ayımdın, ATA!

## *Ata, yerin görünür*

Ürəyimdə intizar,
Can evimə yağır qar…
Yerim-göyüm boşalıb!
Ürəyimdə dağ boyda,
Bir viranə boş qalıb!
Sənin gülşən bağçanda,
Qərib sükut sürünür,
Ata, yerin görünür!
Ata, yerin görünür!
Nəfəsin ocaq imiş?
Od qucaq-qucaq imiş?
Bülbüllü gülşənində,
Qəmgin qumrular ötür…
Gözlərim yaşla dolur,
Ahım dünyanı tutur,
Yer-göy qəmə bürünür,
Ata, yerin görünür!
Ata, yerin görünür!

Açan gülün solmayıb,
Sanki olan olmayıb,
Qapanquşlar da gəlib,
Yenilənib yuvalar.
Gəldi məhəbbət dolu,
Sevgi dolu bu Bahar...

Sanki dolaşıq düşüb,
Baharım da, qışım da,
Sənin olsun, ay ATA,
Ən gözəl alqışım da!
Tarazlayıb özümü,
Bir az aldanım deyə
İçimi yeyə-yeyə,
Adını çağırıram,
“Can!”-deyə, gəlmir səsin!..
Bağrım iki bölünür,
Ata, yerin görünür!
Ata, yerin görünür!
Söhbət edir qohumlar,
Hər sözün bir məsəldir,
Adını çəkən kimi,
Hər müşgüllər düzəlir.
Qonşuların yığışıb,
Şirin sözünə həsrət,
Sevinclə, fərəh ilə
Gülən gözünə həsrət…
Hər qəlbdə bir məhəbbət,
Hər dildə bir xatirə…
Yoxluğun gilə-gilə
Axan yaşlara dönür…
Ata, yerin görünür!

Ata, yerin görünür!

Qapına boylanıram,
Bənövşənin gözüylə
İçin-için yanıram,
Evə qanadlanıram,
Qaranquş qanadında-
Yaxınındı yadın da…
Həyat-dönüş, mərhələ,
Kim düşünə, kim görə?
Gedən yol geri dönmür,
Susub od-ocaq, dinmir,
Xəbərin var Bahardan?
Susub ürək qübardan,
Leysan olur tökülür,
Sel kimi göz yaşlarım…
Ucub arxamın dağı,
Gedib ürəyimin yağı…
Qəlbimin qanı axır,
Başımdan alov çıxır,
Ağrılı qəlbim dinir,
Ata, yerin görünür!
Ata, yerin görünür!

22.03.2016

## Gəlmişəm

Əzəl gündın qönçə kimi açıldım,
Dör yanıma qızıl gül tək saçıldım,
Qocaman Tanrıma şirincə quldum,
Bürünmüşdü ömür tülə, gəlmişəm!

Heyif, dörd bir yanımı qəm , kədər oldu,
Yaxşı şey gözlədim puç, hədər oldu,
Həsrət də bitmədi, yol  çəpər oldu…
Koram, önümdəsə, tələ gəlmişəm!

Tufanlar oynadı, fırtına qopdu,
Qaçqınlar yanğısı canıma hopdu,
Dostam deyən kəslər azaldı, yoxdu,
Gözümdə yaş gilə-gilə gəlmişəm!

Heç baxmadı gözlərimin yaşına,
Qəza qılıncını çəkdi başıma,
Əlim çatammadı dost-tanışıma,
Saçlarımı yola-yola gəlmişəm!

Zərəngizəm dərd qapımı tanıyır,
Köhnə-təzə yaralarım qanayır,
Kədər mənlə hey qol-qola oynayır,
Səpələyib sağa, sola gəlmişəm!

06.06.2020-ci il

## Talan ömrüm

*(Vaxtsız dünyasını dəyişən ömür-gün yoldaşıma)*

Sükutla keçəl ömrüm,
Mənə hikmət danışır,
Xəyalımda yoxluğun,
Həsrətindən alışır!

Xeyirə qalan ömrüm,
Həyatının bəkçisi,
Yoxluğun bir kədər ki...
Yoxdur onun ölçüsü!

Taleyimdə, ömrümdə,
Sənin özün yaşayır,
Şirin sözün yaşayır,
Gülər üzün yaşayır.

Dünya fani deyiblər,
Ömür xəyal karvanı,
Talan ömrü ağa yaz,
Ey  xəyallar sarvanı!

08.05.2020-ci il.

## A Baytaloğlu

*(Ömür-gün yoldaşım Nurəddin İsmayıllı-İlham Baytaloğluna)*

Yanıram oduna, a Baytaloğlu!
Şərəfdin adıma, a Baytaloğlu!
Ərşə bülənd olub, ahım-amanım!
Düşübsən yadıma, a Baytaloğlu!

Soyun soy içində tanınsın dedim,
Adın hörmət ilə anılsın dedim,
Kaş ki, əzrayılın yanılsın dedim,
Çatasan dadıma, a Baytaloğlu!

Dərdin ürəyimi paralayıbdı,
Həsrətin könlümü yaralayıbdı,
Biçarə bəxtimi qaralayıbdı,
Yetiş imdadıma, a Baytaloğlu!

Ürəyim yasdadır, gedənim gəlməz,
Talanıbdı könlüm, doyunca gülməz,
Ruhun xəbərsizdi, halımı bilməz,
Dön qol-qanadıma, a Baytloğlu!

Başımı yolunda qoyaram, dur gəl!
Viranə könlümü oyaram, dur gəl!
Bircə dəfə görsəm, doyaram, dur gəl!
Qıyma, büsatıma, a Baytloğlu!

Qaynayıb-coşubdu ilhamım mənim,
Yer-göyü titrədir amanım mənim!
Sənə qurban olsun, bu canım mənim!
Susmaz ilhamım ol, a Baytaloğlu!

Yeridim yolumu, ya Ali-Mədəd!
Haqdan güc almışam, Tanrıdan qüvvət!
Üzün çox göyçəkdi, Yusifi-surət,
Gəlsəm,  bələdçim ol, a Baytaloğlu!

Balalar yolunda əridin şam tək,
Yoxdu bu dünyada bir can ki, sən tək!
Çəkərəm ömrümdə hicran ki, sən tək,
Orda ustadım ol, a Baytaloğlu!

Zərəngiz adına dastan bağlayar,
Ah çəkər, fəğanı sinə dağlayar,
Yuxuda bulud tək dolar ağlayar!
Oyan fəryadıma, a Baytaloğlu!

10.05.2020-ci il.

## Şairləri körpü bilin

*(Gənc şair Mövlud Mövludun ölümünə)*

Mövlud Mövlud yaman yandırdı məni,
Üşütdü qəlbimi, yaxdı qəlbimi,
Bilmirəm nə vaxtdan düyünlənmişdi,
Əritdi qanımı, axdı qəlbimə!
Sanki atəş girdi, çıxdı qəlbimə!

Şairləri körpə bilin, nə olur,
Şairləri körpü bilin, nə olur,
Tanrıya uzanan əldi şairlər,
Ən gözəl arzu, əməldi şairlər…
Dünyaya köməksiz gəldi şairlər…

Hər sözü Tanrının öz diktəsidi,
Kəlam diqtəsidi, söz diqtəsidi,
Bircə dogma baxış bəzən bəs edir…
Şairləri körpə bilin, nə olur,
Şairləri körpü bilin, nə olur…

Gözləri bənövşə yuxulu olur,
Sözləri ayrılıq qoxulu olur,
Bəzən həzin, bəzən qorxulu olur,
Şairləri körpə bilin nə olur,
Şairləri körpü bilin nə olur…

Körpə tək saf olur, müdrik tək mətin,
İlahi körpüsü- Haqqa millətin!
Dövrümüz nə ağır, nə acı? Çəitin!
Layla, körpə Mövlud Mövludum, layla!
Haqqa belə tezmi qovuşdun,  layla!

Şairləri körpə bilin, nə olur,
Şairləri körpü bilin, nə olur…

25.05.2017-ci il

## Qarşıla

Ucu şiş qayalı uca dağları,
Görməyə gəlmişəm, ana, qarşıla!
Mən səni içimdə ürək bilərdim,
İndi can bilmişəm, sona, qarşıla!

Dünya nə şirinmiş keçə bilmirsən?
Göz yaşı acıdır, içə bilmirsən....
Yaxçını-yamanı seçə bilmirsən,
Ürək, sən də yana-yana, qarşıla!

Əzəldən: "Can!"-dedi, bu dünya mənə,
Sonradan bürüdü dumana, çənə,
Atamı, anamı istərəm yenə,
Bəlkə, yuxularda dönə, qarşıla!

Dünya sirr  qazanı tökülsə dolmaz,
Hər düşünən kimsə ağıllı olmaz,
Cavanlıq keçəndi, axıra qalmaz,
Qocalıq gəlsə də, yenə qarşıla!

Zərəngiz, ədalət dəvə bonunda,
Yaxşı da, yaman da oynar oyununda!
Beşcə qarış yer ver, ana qoynunda,
Ey Vətən, sığındım sənə, qarşıla!

10.06.2017-ci il.

## Vidadi Babanlıya

*(Əsərlərinin adına kompozisiya)*

“Vicdan susanda” da heç susmadım mən,
“Bulanıq dünya”nı aydınlaşdırdım.
“Dönüş”lə “Təbrizdə bir gecə” yarı,
“Müqəddəs ocaq”dan yollar açdırdım!

“Öz evində qonaq” yaşayır hamı,
Vətənə söylədim: ”Anam sən oldun”!
“Kişilik haqqında himn” yazan “Gəlin”,
“Ömürlük cəza”mı yenən sən oldun!

“Ana intiqamı” qalmasın yerdə,
“Ömürlük əzab”dan xilas edək biz!
“Ayazlı gecələr” dözmüşük dərdə,
“Axtar”ma, “Bulud”u, necə güdək biz?

“A dili qurtlamış”, bu “Tüstü”, bu pər
“Həyat bizi sınayırmış” sən demə?
“Dərk etmədim” bəzən, a “Yetimçələr”,
“Tanışlarım və dostlarım”, qəm yemə

“Seçilmiş əsərlər”i “İnsaf nənə”mlə,
“Axtardım”, “Utandım”, adına güman,
Bu “Yanğı”, “Qəriblik” mənə bir həmlə,
“Hoydu dəlilərim, hoydu”, ay aman!

Ey könül, heç zaman dara düşməzsən,
Qədrini bilən bir yar olacaqdır!
Vidadi Babanlı bilsin onun da,
Zərəngiz yanında var olacaqdır!

**Beşikdən tabutacan**

*(Ramiz Rövşənə)*

Səndən mənə qalan sözlər,
Əbədiyyət olan sözlər,
Filan, filan, filan sözlər,
Beşikdən tabutacanmış?

Göyün o üzündə nə var?
Ərəsət düzündə nə var?
Tanrının gözündə nə var?
Beşikdən tabutacanmış?

Haqq hasarı qurar özü,
Haqq açarı arar özü,
Haqqa sarı durar üzü,
Beşikdən tabutacanmış?

Əlçim bulud ipək kimi,
Könlüm gülər çiçək kimi,
Həyat çarpan ürək kimi,
Beşikdən tabutacanmış?

Ürəyindən haqqı arar,
Əli dolu haqqa varar,
Zərəngiz məqamın sorar,
Beşikdən tabutacanmış...

02.05.2018-ci il

## Dayım oğlu İsrailə

Çeyrançoldən səhər tesdən gəlibsən,
Nə tezcə qayıtdın, ay dayım oğlu?
Balalarım söhbətinçün darıxıb,
Yuxudan ayıltdım, ay dayım oğlu?

Ağızda bal dadır, o toyun payı,
İbrahim gözləyir samovar çayı,
Çağırıb, soruşur, bəs, hanı dayı?
Çayını soyutdun, ay dayım oğlu?

Gədəbəyli qızı  yağı göndərib,
Elə bil dağların çiçəyin dərib?
Kəkotunu önlük ütünə sərib,
Nə gözəl qurutdun, ay dayım oğlu?

Mustafanın işi rastına düşər,
Cücələr körpədi, tezcənə bişər,
Axşamın soyuğu, uşaq üşüşər,
Dənini üyütdün, ay dayım oğlu?

Yerini əkdirdin, suyu suladın,
Gəzdin bütün kəndi, rahat olmadın,
Uşaqlıqdan elə bəlliydi adın,
Dəlisov iyitdin, ay dayım oğlu!

İsrail, sakitcə, rahatca otur,
İlqar sözlərində yaman səhv tutur,
Zərəniz doğmasın heç vaxt unutmur,
Sağ ol, admı tutdun, ay dayım oğlu!

06.08.2017-ci il.

## Mən bir türk qızıyam...

Mən bir türk qızıyam!
Gözlərimdə işıq, alnımda qürur,
Qəlbimdə insanlara məhəbbət daşıdım!

Mən bir Vətən övladıyam!
Dağı, daşı, bulağı, torpağı,  yarpağı,
Səması, dənizi, zəmisi ilə yaşıdam!

Mən bir anayam!
Hamıya səadət, balalara sülh,
Dünyama, övladıma əbədi ədalət aşıdım!

Mən bir şairəm!
Nigaran, narahat, talesiz, üzgün,
Amma, sabaha ümidlə yaşadım!...

Mən Zərəngiz Dəmirçiyəm!
Dəmirdi sözüm də, haqq nuru üzümdə,
Qayalı, beləyəm haqq işim, haqq adım!

16.10.2012.

## Adım Böyük Turan oldu

Bozqırlardan Tyanşana,
Ulu Türkə məkan oldu!
Uca zirvə–Kazbek demə,
Qazi bəy adlanan oldu!

Sibir elinin bağrını,
Ləpirlərim imzaladı!
Yaşadı türkümün adı!
Zirvələrə qonan oldu!

Göy rəngində, qan rəngində,
Din rəngində bayrağımız!
Çağdaş ruhum, müasirim,
Buluda ağ yelkən oldu!

Əziz anam–Ağrı, Qoşqar,
Şahdağ, Kəpəz, Avey, Qırxlar,
Savalan, Səhənd, Babakar,
Ovlağım bu meydan oldu!

Ulduzum var, hilalım var!
Nə şöhrətim, cəlalım var?
Baykallardan Dərbəndlərə,
Neçə qurğu quran oldu!?

Dədə Göyçə, Vedi, Urud,
Van deyilən o qədim yurd,
Olmadı Tanrı qəzəbi,
Demə, yoldan çıxan oldu!

Yumruq kimi birləşəlim!
Ünvanlaşa, sirləşəlim!
Paylaşalım, hürləşəlim!
Türk sevgisi ümman oldu!

Addımını at da mətin!
Ey ulu, qutsal millətim!
Dirçəlişin yaman çətin,
Çağrışımız: “Can, can!” oldu!

Türk nəsliyik özbək, qazax,
Uyğur, türkmən, qırğız, qıpçax,
Görüş yerimiz də hər vaxt,
Cənnət Azərbaycan oldu!

Altaylardan Yeniseyə,
Tatar, çuvaş, Dərbənd yiyə!
Sevəriz “eşq!” deyə-deyə,
Sevdalım Türküstan oldu!

Param-parça parçalandıq!
Bölümləndik, haçalandıq!
Düşmən od vurdu, biz yandıq!
Nəsibimiz hicran oldu!

Hunam, heyəm, saqam, ərəm!
Dünən vardıq, bu gün varam!
Şaman, boz qurd əziz yarım!-
Sən Atatürk, mən Heydərəm!
Adım Böyük Turan oldu!

21/11-2011-ci il

# Döz

*(Fikrət Qoca - "Oğluma sonuncu layla")*

Lalə tək sinənə dağlar basıldı,
Sən bağrıyanıqsan, döz, Fikrət Qoca!
Namərdin nə dini, nə imanı var,
Tutuşduğun atəş, köz, Fikrət Qoca!

Cahilin qəsdini kim bilə, bilməz?!
Daşlaşan dərdlərin silsilə, bilməz,
Yanğını sel, daşqın da silə bilməz,
Sözüm dərya olsa, az, Fikrət Qoca!

Dağlar bulud töksün, çiskin eyləsin,
Bir şair qəlbini təskin eyləsin,
Zərəngiz nə desin, mümkün eyləsin?
Ələsin başından söz, Fikrət Qoca!

15.03.2017

## Aşıq Avdıya

Nəfəsi qəlbi göynədər,
Haqq mizrabı çalan Avdı!
Titrəşər güllər tökülər,
El dərdinə qalan Avdı!

Pərvanə şama dolanıb,
Xalıloğlu oda yanıb,
Dərdini öz dərdi sanıb,
Həzin layla çalan Avdı!

Ruhu çiçəyə qarışar,
Səsi sularnan yarışar,
Oxu, küslülər barışar,
Ürəyə od salan Avdı!

Xalıloğlu bir bahardı,
Demə, meydanımız dardı,
Saranı sellər apardı,
Xançobanı talan Avdı!

Səsin uzaqdanmı gəldi,
Anan bulaqdanmı gəldi,
Köçün yaylaqdanmı gəldi,
Dərya kimi bulan Avdı?

Sinəndəki telli sazdı,
Avazın bir güllü yazdı,
Zərəngiz dediyi azdı,
Bu dünyanı dolan, Avdı!

27. 07.2016-cı il

## Qazax mahalı

*(Aşıq İlham Aslanbəylinin oxuduğu havacata cavab)*

Bu qoca tarixi vərəqlədim mən,
Dahilər yetirib Qazax mahalı!
Dərya olub, dəniz olub çalxanıb,
Qazanıb, itirib Qazax mahalı!

Bir əli qaşında Bidadi babam,
Zamanın zərbindən uculub xanam,
Qorqud qopuzunda çalınan laylam,
Ruhuma ötürüb Qazax mahalı!

Çeşməsi, bulağı, suyu ağlardı,
Səngəri qocaman, qarlı dağlardı,
Dövrəsi, çevrəsi barlı bağlardı,
Çinarlar bitirib Qazax mahalı!

Nə sirrlər var torpağında, daşında?
Kərəm, İsrafili igid yaşında,
Ruhum oynar qayaların qaşında,
Bu günə gətirib, Qazax mahalı!

Vaqifin, Vurğunun adı bəllidi,
Hüseyni, Osmanı söz, məsəllidi,
Şairi, aşığı min, yüz, əllidi?
Dərsini götürüb Qazax mahalı!

Mehdi, İsmayılı eşidib, tanı,
Muğanna hikməti gəzər cahanı,
Mirvarid Dilbazi gövhərin kanı,
Gör kimləri verib, Qazax mahalı?

İlham, bu dastanlar bizlərə qalıb,
Əlinə saz alan "Kərəm"i çalıb!
Zərəngiz eşqini bu eldən alıb,
Ona ruh yetirib Qazax mahalı!

23.07.2016-cı il.

## Anam Qazax

Zirvələri şəfəq saçan,
Yaxası tər güllər açan,
Dağlarından qartal uçan,
Bir tərəfi duman Qazax,
Aman Qazax, anam Qazax!

Kəsişir cada yolların,
Heç azalmır qeylü-qalın,
Bir halını xəbər alım,
Bərəkətli binəm, Qazax,
Aman Qazax, anam Qazax!

Zərəngiz müştaq halına,
Bük məni güllü şalına,
Qat sözü beçə balına,
Ləzzətindi tamam, Qazax,
Aman Qazax, anam Qazax!

23.07.2016.

## Qazax

*(Mədəniyyət və Turizm Nazirliyinin Sərəncamı ilə 2010-cu ildə Qazax Azərbaycanın Folklor paytaxtı elan olunmuşdur)*

**"Sənsən son ümidim, andım, Qazağım!"**
*(Prof. Dr. Rəfiq Sarıvəlli)*

Mən səni görəndə könlüm açılır,
Dağları əl-ələ tutuşan Qazax!
Közümə Tanrının nuru saçılır,
Canımda qanımla uyuşan, Qazax!

Geniş sinəsində ceyran oylağı,
Meşəsi, çəməni, gülşəni, bağı,
Əzəldən şairlər, pirlər torpağı,
Hikmət dünyasına şərəf, şan Qazax!

Sərvətin gözəllik qaynağın ilham,
Eşqin həyat dolu, nur dolu bir cam,
Hüsnünə heyrandı bu Azərbaycan,
Yaxına, doğmaya mehriban, Qazax

Kazım ağa ruhu yaşar köksündə,
Hacı Əfəndi nəbzi vurar köksündə,
Sevdan qərar tutar, durar köksümdə,
Könlümün sirdaşı, aşinam, Qazax!

Vidadi, Vaqifin düşər yadıma,
Hüseynin, Osmanın gəlsin dadıma!
Səməd Vurğun kimi söz ustadına,
Əzəl sən olubsan pasiban, Qazax!

Dilboz ağa nəsli şöhrət, şan sənə!
Baba nəğmə dedi canhacan sənə,
Həsəd apacaq asiman sənə!
Ulduzlara məkan, ilk ünvan, Qazax!

Kərəm, İsrafil ağa, ruhları sərdar,
Səməd Mehmandarov, Əlağa Şıxlı var,
Aslan, Akif Səməd, Namazla İlqar,
Məmmədlər eşqinə ərməğan, Qazax!

Mehdi Hüseyinin, İsmayıl Şıxlın,
Budağın, Teymurun, Nizamin ağlın,
Nərimanın, Nüsrətin sevdalı oğlun,
Rəfiqdir adına son ünvan, Qazax!

Avdı, Mirzə Səməd, Ağamalı Sadıq,
Rafael İncəyurd, Şaiqlə şadıq,
Tahir, Cümşüd deyir sənə övladıq,
Zaməddin söyləyir: “Can qurban, Qazax!”

Babanlı nəslindən oğulların var,
Şıxlı Elçinlər nurlu bir bahar,
İsa Muğannada saf ağ ruhu yar,
Məhəmməd söz qoşar çox rəvan, Qazax!

Kürün qayğılıdır, yollar üstədir,
Bənövşə, nərgizin dəstə-dəstədir,
Davud, Vaqif, Eldar kəmərbəstədir,
Nəsiblər artacaq anbaan, Qazax!

Ədalət köksündə "Qara saz" yanar,
Yusifin, Vaqifin dərdini qanar,
Paşa Salahlını eləmə kənar,
Qoynunda yaratdı çırağban, Qazax!

İsi Məlikzadə müqtədir yazar,
Budaq Budağovun şöhrəti gəzər,
Oğulların eli-aləmi bəzər,
Səhnələr, ekranlar bir ünvan, Qazax!

Dilində söyləmə aşıq Məhəmməd,
Hüseyn Xaloğlu, ruhuna rəhmət!
Saday, Yasin, Tariyel, Gəncədə Şadət,
Orxan, Elnarədir balacan, Qazax!

Səhəndlə Ələddin hər zaman yazdı,
Dili bayatılı, sinəsi sazlı,
Hamı şeir deyir oğullu, qızlı,
Şeir ocağıdır köz yaxan, Qazax!

Söhrabın, Həsənin, Cəlalın alim,
“Qara Rəşid”-deyə fəxr edir elim,
Piri, İlham, Məqsəd gəncim, cəhəlim,
Fərrux Qayıbovdur bir cahan, Qazax!

Nə vaxtdır Göyəzən başı dumanlı,
Yaralı torpağım sənə gümanlı,
Bir körpə şair var Qılman İmanlı,
Yaxşı sözlər yazır bu cavan, Qazax!

Oğul qeyrətiylə qaynadın, coşdun,
Doğmaya, yaxına həmişə xoşdun,
Rövşən də adını adına qoşdu,
Doğma tək sevilir bu oğlan, Qazax!

Eyyub Paşa gülər, çeşmələr ağlar,
Çəkər tablosunu Sarvəlli Qafar,
Rəcəb Babaşov deer, bir oğlan gələr,
Olar can sirdaşı, söz qanan, Qazax!

Sərt qapısı, mərd qapısı Qazaxın,
Ağzı haqqa, qurd qapısı Qazaxın,
Oğuz-qıpcaq, yurd qapısı Qzaxın,

Barat Vüsal–ağrı, alov, qan, Qazax!

Mirvari sapına düzülsün qızlar,
Fəridə, Nətavan, Salatının var,
Gülsənəm, Tamella, Çişəklə Bahar,
Solmazın birinci saz çalan, Qazax!

Gedənlər getdilər, gələnlər gələr,
Nəzakət, Tinatin, Hicranə yazar,
Qaratellə Vəfa oldu səfərbər,
Cığatel aşıqdır binadan, Qazax!

Günəş ucalardan nurunu paylar,
Gülayənin mehri cahana yaylar,
Zərəngiz gördüyün, bildiyin söylər,
Eşqiylə, zövqüylə hər zaman, Qazax!

31.05.2010

## Doğma yurdum

*"Əziz sirdaş kimi, yaxın dost kimi*
*Qolunu boynuma saldı bu yerlər"*
***Osman Sarıvəlli***

Dörd yanı bağçalı-bağlı,
Doğma yurdu sevmişəm mən!
Qalalı, səngərli, dağlı,
Doğma yurdu sevmişəm mən!

Göyləri durna qatarlı,
Şenniyi yazlı, baharlı,
Oğlu, qızı etibarlı,
Doğma yurdu sevmişəm mən!

Kürün nəğməli suları,
Aveyin tükənməz varı,
Sazdı, sözdü yadigarı,
Doğma yurdu sevmişəm mən!

Damcılı zümzüməsi var,
Qədim İncə dərəsi var,
Xanlıqlar mənzərəsi var,
Doğma yurdu sevmişəm mən!

Vidadi, Vaqif qibləsi,
Sənətdə Vurğun zirvəsi,
Hüseyn, Mirvarid nəfəsi,
Doğma yurdu sevmişəm mən!

Hacı Əfəndi pirinə gəl,
Ağamalı, Akif yerinə gəl,
Osmanın sözlərinə gəl,
Doğma yurdu sevmişəm mən!

Zərəngizin eli Qazax!
Yuvası, mənzili Qazax!
Hamıya sevgili Qazax!
Doğma yurdu sevmişəm mən!
Doğma yurdu sevmişəm mən!

16.02.2011

## Dünyada

Elə özü böyda heyrətmiş demə,
Nə qədər gözəllik varmış dünyada?
Bir zərif çiçəklə aldı könlümü,
Bütün qayğılarım qaldı arxada!
Tilovu bəzəkli don olan, dünya!
İnsanı ələkdə dən olan dünya!
Məsləhəti yaman gen olan dünya!
Şahin tək xəyalım süzər havada!
Ömrümün sahibi sən oldun, ya Rəbb!
Dərdim saçlarımda dən oldu, ya Rəbb!
Həzin-həzin yazan mən oldum, ya Rəbb!
İki kəlmə sözüm qalar dünyada!

03.03.2011

## Gəzib gördüyüm yerlər...

Mən Təbrizi xəyallarımda yaşatdım, sevdim, əzizlədim. “Dumanlı Təbriz”, “Qorxulu Tehran” romanlarını oxuduqdan sonra İrana qarşı gizli bir vahimə, qaranlıq, üşütməli, müəmmalı bir hiss duysam da, məndə sövqi-təbii olaraq həm də doğmalıq hissi olmuşdu bu şəhərə ürəyimdə. Şəhriyara, Səhəndə sonsuz ehtiramım, şairlərin ilham mənbəyi olan Təbrizin gözəlliyinə marağım məni qəlbən ora çəkmişdir.

“Qafqaz Media” İctimai Birliyinin sədri, hacıxanım Azadə Taleh Abbasqızı Hüseynova bir gün mənə dedi ki, imkan düşüb, gəl, səni Təbdizə aparım. Bir az ehtiyat etdim, tanış olmayan insanlar, uzaq yol, necə ola bilərdi? Deyəndə ki, bizi Şəhriyar ədəbi-məclisinin fəal üzvü hacıxanım Əzəm Rza Çayi məclisin adından dəvət edib, razılaşdım. Çünki Əzəm xanımı elə Azadə xanımın Mətbuat Günü

münasibətilə keçirdiyi mükafatlandırma tədbirində görmüşdüm, bəyənmişdim.

Biz, bir qrup ziyalı qadın 2010-cu il iyulun 24-də Bakıdan Təbrizə
yola düşdük. Azərbaycan Astarasından keçdik İran Astarasına. Dərhal Əzəm xanımın bizim üçün tutduğu xüsusi avtobusla Təbrizə yola düşdük. Yolboyu mənə ən çox xoş gələn bu oldu ki, təbrizlilər təbiətə qarşı çox doğma, çox həssas münasibət bəsləyirlər.

Sıx ormanlar, gözəl meşələrlə əhatə olunmuş uca dağ dolanbacları,
insanların sifətlərindəki doğmalıq, havanın, təbiətin saflığı məni heyrətə gətirmişdi. Elə bil Göygöldə, Borçalıda, Ağsuda yol gedirdim. Göydəki dumanlar da mənə doğma, tanış gəlirdi.

Hələ aramıza illər ayrılığı salan Araz da. Ancaq məni daha çox silkələyən Təbriz oldu. Təbrizdəki insanlar-Əzəm xanımın ailəsi, qohumu, iş adamı Maqsud Xeyixahi, Şəhriyar ədəbi-məclisinin

rəhbəri Ağayi Əyyub Şahbazi, öz xanımı ilə bizi müşayiət edən ağayi
Sultanəli pur Kazim, görüşünə getdiyimiz qocaman şairlər Əli Nəzmi, Hacı Ağa Rəsuli, hətta Əzəm xanımın qonşuluğunda çörək bişirən gənc ustalar mənə bir əfsanə yaşatdılar. Qədim, mənəvi dəyərləri olan ulu, azman bir xalqın varisləri təsiri bağışladılar mənə.

Bu məkanda bir gülün, bir çiçəyin, bir budağın da sındırıldığını görmədim. Məmmləkətdə təbiətin ilkinliyinə hədsiz qayğı məni valeh etdi. Təbriz əhlinin sifətlərindəki doğmalıq, məhrəmlik, gözlərindəki ulu kədər, qəm, sifətlərində, alınlarındakı Məhəmməd nuru, yolboyu sıralanmış dayaqlardan asılmış böyük şəkillərdən mənə sarı boylanan şəhid cavanların gözlərindəki saf həyat eşqi məni yerimdən oynatdı. Ümumiyyətlə gəzdiyim şəhərlərdə–Təbriz, Sərab, Ərdəbil, Zəncan, Miyana, Həşrud, Qəzvin, Kərəc, Tehran, Qum,

Məşhəd, Pakdəst, Şahrud, Mehmandust, Nişapur, Firdos, Mindəst, Qalikeş, Badikurqan, Babil, Ənzəli və başqa şəhərlərdə bir özəllik, təbiətə doğmalıq, insanlara pak münasibət, saflıq, ilkinlik gördüm. Orada Xəzəri-doğma, əziz Xəzəri, ortaq məhəbbətimiz olan ala gözlü sular qızı Xəzəri gördüm, ürəyim dağa döndü, üzümə elə bil su çiləndi, ürəyimə bir sərinlik dəldi. Ancaq heç kəs mənə inanmaz bəlkə, orda elə bil, Xəzərin sularını dumduru gördüm.

Qəlbimə döğma olan Təbriz səması mənə yazılmamış bir vərəq, cənnət səması kimi hüdudsuz boşluq, ağ nəhayətsizlik, paklanıb, suya çəkilmiş zərif tül, incə, pənbə çikəklərlə örtülü məkan təsiri bağışladı. Təbriz əhli isə şəhərlərini ürəkdən sevən, şəhərlərinin təmizliyini göz bəbəyi kimi qoruyan, dünyaya, insanlara xoş ovqat paylayan, heç kəsə dəyib-toxunmayan, hamıya xoşbəxtlik diləyən, saf, müqəddəs insanlar təsiri bağışladı və qəlbimdə həzin misralar sıralandı:

## Təbrizim

Əfsanələr şəhərisən, Təbrizim!
Pərvanələr şəhərisən , Təbrizim!
Gözəl gözlərindən tarix boylanır,
Dürdanələr şəhərisən, Təbrizim!

Uca Savalanın boynuna dolan,
Dağların, bağların yamyaşıl orman,
Ana sevgisiylə sən də alış-yan,
Üzü nurlu bir pərisən, Təbrizim!

Suyun bal, havan saf, torpağın dürdür,
Ellərin vüqarlı, şahanə, məğrur,
Gündoğandan ta günbatan tanıyır,
Sən dünyanın gövhərisən, Təbrizim!

Savalandan, Səhəndimdən yadigar,
Gülər sözlü, ağlar gözlü, Şəhriyar,
Çox salamlar söyləmişdir Bəxtiyar,
Xoş xəbərlər şəhərisən, Təbrizim!

Sən şairlər, şühədalar Vətəni!
Xiyabani və Şəhriyar Vətəni!
Xoş diləklər, xoş arzular Vətəni!
Könüllərin sərvərisən, Təbrizim!

Qara gözlü, ay camallı şəhərim,
Təxti kimi qəhrəmanlı şəhərim!
Bağır xanlı, Səttar xanlı şəhərim!
Adı dillər əzbərisən, Təbrizim!

Qəlbin təmiz, küçələrin gül kimi,
Ala gözlü səhərlərin tül kimi,
Gülşənində ötərəm bülbül kimi,
Zərəngizin dilbərisən, Təbrizim!

28.07.2010

## Məşhədi gördüm

Səkkiz qapılıdır Məşhədi gördüm,
Tamam cənnətdəki qapılar kimi!?
Nur dolu ümmanmış, nə gözəl imiş?
Tapdım tapdığımı tapılar kimi!

Ziyalar saçıldı üzümə, sanki,
Tanrı dürr çilədi gözümə sanki,
Bir qətrə nur aldım sözümə sanki,
Dayandım qapıda xidmətkar kimi!

Başımın üstündə nişan, Sən oldun!
Behiştin nurunu saçan, Sən oldun!
Bəsirət gözümü açan, Sən oldun!
Tanrım, var oldum mən, vardan var kimi!

Gördüm gördüyümü, xəyaldır cənnət!
Bir əlimdə iman, birində sənət!
Zərəngiz Dəmirçi sənə əmanət!
Tanrım, özün qoru əziz yar kimi!

20.08.2010

## Ömər Xəyyama

*(Orta əsr müsəlman Şərqinin nəhəng şairi Ömər Xəyyamın türbəsini ziyarət etdim)*

Məbədini ziyarətə gəlmişəm,
Sənətini qibləgahım bilmişəm,
Ruhun üçün xoş niyyətə gəlmişəm,
Yeganə şairim Ömər Xəyyamım!

Dünyada doğruluq, halallıq deyə,
Səsin əsrlərlə ucaldı göyə,
Gözəllər vəsf etdin sən öyə-öyə,
Dürdanə şairim, Ömər Xəyyamım!

Uca türbən, ulu ehtişamın var,
Qadir sənət eşqin, arzu-kamın var,
Əbədi, sönməyən yanar şamın var,
Əfsanə şairim, ömər Xəyyamım!

Yaşasın məhəbbət, həqiqət deyə,
Sənəti qaldırdın uca zirvəyə,
Zərəngiz qarşında durub səcdəyə,
Ruhani şairim, Ömər Xəyyamım!

20.12.2010

## Şəhriyar

Elinə heyran oldum mən,
Gülünə heyran oldum mən,
Şairlərin bülbül kimi,
Dilinə heyran oldum mən!
Çalması qarlı Şəhriyar!
Tanrı tək yarlı Şəhriyar!

Sənin şair xəyalın tək,
Savalan da xəyallandı,
Dumanlar qalxdı başından,
Təbriz elinə yollandı,
Çalması qarlı Şəhriyar!
Tanrı tək yarlı Şəhriyar!

İnsanlarına qurbanam,
Ormanlarına heyranam,
Şeirin, sözün ürəklərdə,
Sonsuz varına heyranam,
Çalması qarlı Şəhriyar!
Tanrı tək yarlı Şəhriyar!

Zərəngiz Dəmirçi yandı,
Həsrətinlə alovlandı,
İllərlə vəslini andı,
(Əsr-əsrə calandı,)
Şükr gəldik, xoş zamandı!
Çalması qarlı Şəhriyar!
Tanrı tək yarlı Şəhriyar!

26.07.2010

## Savalanın yaraları

Savalanın yaraları
Ürəyimdə qövr eləyər!
Heç nəyi insan eləməz,
Qəza, qədər, dövr eləyər!

Bilmirəm heç sönən bəxtım
Nə vədədə şölələnir?
Başımızı qaldırdıqca,
Üstümüzə od ələnir!

Hər dövrdə qəza bizi,
Buxovlayıb, kötəkləyib!
Odumuza yadlar qızıb,
Üstümüzə su ələyib!

Bu nə tale, bu nə ömür?
Dost dediyin Tanrı demir!
Fələk özü mat qalıbdır,
O, Allah olmaq istəmir!

Zərəngiz Dəmirçi, dinmə,
Xəyal göylərindən enmə,
Bəxt yatıbdır, Tanrı oyaq,
Ocaq tək şölə çək, sönmə!

13.12. 2010

## Açılsın güllərim

*(Qazax rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşova)*

Gələn il gələcəm yurduma yenə,
Açılsın güllərim, ay Rəcəb qardaş!
Yenicə gəlibdir imana-dinə,
Sevinir ellərim, ay Rəcəb qardaş!

Gecəni sübhəcən qalırsan oyaq,
Kiminə arxasan, kiminə dayaq,
Məzəmdə əlinlə sancdığın bayraq,
Olubdur sipərim, ay Rəcəb qardaş!

Tanrı göndəribdi səni elimə,
Əlidən səxavət keçib əlinə,
Doğmasan qocaya, qıza, gəlinə,
Söyləyir dilərim, ay Rəcəb qardaş!

Əsil qadir insan yaradar, qurar,
Susuz səhraya da min bəzək vurar,
Hamı soraq salıb, xəbərin sorar,
Adın dil əzbərim, ay Rəcəb qardaş!

Neçə arxasıza “Ata” oldun Sən,
Ömrünə Tanrıdan buta oldun Sən,
Özün qiymətini hələ bilmirsən,
Yazılır dəftərim, ay Rəcəb qardaş!

“Keçmərəm, yurdumdan, elimdən!”-dedin,
Bala Cəfərlidən, Ayrımdan dedin,
Yol saldın, qaz çəkdin, nələr eylədin?
Xöş gəldi xəbərin, ay Rəcəb qardaş!

Keçdin sinəsindən şərin, həpəndin,
Kiminə ev tikdin, haqqa güvəndin,
Yoxsulun toyunda qəlbdən sevindin,
Yaşardı gözlərim, ay Rəcəb qardaş!

Dağlar əzəmətli, dayanar, durar,
Bəhərli budaqlar yerə sallanar,
Tərifin, şöhrətin dünyanı alar,
Tanınar hünərin, ay Rəcəb qardaş!

Vaqiflə, Vidadi səni səslədi,
Baratın qonağı dəstə-dəstədi,
Süleyman müəllim dürlü söz dedi,
Xoş keçdi səfərim, ay Rəcəb qardaş!

Qazax mahalına gəlmədin hədər,
Müqəddəs zəhmətin verəcək bəhər,
Gülayə xanım da daim səfərbər,
Gətirər zəfərin, ay Rəcəb qardaş!

Xalqıma, yurduma güvənəcəksən,
Ancaq sevinclərə sevinəcəksən,
Xeyir niyyət ilə işlər gördün Sən,
Olmasın kədərin, ay Rəcəb qardaş!

Ellər tərifləyər yaxşı kişini,
Bu xoş əməlini, xoş gəlişini,
Zərəngiz gördüyü hər bir işini,
Yayacaq sözlərim, ay Rəcəb qardaş!

## Dünyadı

*(Təbrizdə yaşayan şairə rəfiqəm*
*Əzəm Rza Çayiyə)*

Sıralanmış dağları tək boyaboy
İgidləri yesir olan dünyadı!
Çox saxlama ürəyində sözünü,
Ağlı, gücü əldən alan dünyadı!

Deyilən söz açan güldür, gizləmə,
Zənbur yığan şəhdi-baldır, sızlama,
Səndən gedən aydir, ildir, gözləmə,
Əvvəl doğru, sonu yalan dünyadı!

Tut bu yolun ağını get dayanma,
Hər ağlayıb, göynəyə inanma,
Sözünü de, vədəsində utanma,
Utananı dərdə salan dünyadı!

Ürəyimdə söhbətim var, sözüm var,
Nəfəsim var, avazım var, sazım var,
Hələ neçə oxunmamış yazım var,
Sandıqları sirlə dolan dünyadı!

Zərəngizəm, nahaq yanıb-sönmərəm,
Haqq yolundan usanmaram, dönmərəm,
Ömrüm sənə pənah, ya Mövlam, kərəm,
Biz gedirik, sənlə qalan dünyadı!

02.02.2012

## Aşıq Camoy, "Dağlar"ı çal, "Dağlar"ı

*(Səməd Vurğunun "Dağlar" şerinə)*

"Sıra dağlar" torpağımı qucubdu!
Qayaları eşqim ilə həmruhdu!
Könül quşum öz yurduma uçubdu,
Aşıq Camoy, "Dağlar"ı çal, "Dağlar"ı!

Vurğun ruhu hey dolanır başımda,
Haqqı vardı torpağımda-daşımda!
Ceyran-cüyür iz salıb yaddaşımda,
Aşıq Camoy, "Dağlar"ı çal, "Dağlar"ı!

Mənim Atam ərənlərin piriydi!
Danəndəydi, müqəddəsin biriydi!
"Dağlar" onun ləhcəsinin dürüydü,
Aşıq Camoy, "Dağlar"ı çal, "Dağlar"ı!

Əzəl başdan könül şüşəm qırıxdı,
Anamın ruhuydu, aşkara çıxdı!
Söz "mülkü"nə bu şeir yaraşıqdı,
Aşıq Camoy, "Dağlar"ı çal, "Dağlar"ı!

Aşıq Qurbanidən xeyir-dua al,
Xəstə Qasım, Xan Abbası yada sal,
Ələsgərin ahəngində düşün çal,
Aşıq Camoy, "Dağlar"I çal, "Dağlar"ı!

Göyçə dedim, neçə dastan bağladım!
Xocalımçün sinə döydüm, ağladım,
Ələsgərin sazı üstə çağladım,
Aşıq Camoy, “Dağlar”ı çal, “Dağlar”ı!

Qarabağsız qara bağrım zədəndi,
BMT-lər hədər gəlib-gedəndi!
Tərpənmirik, a millətim, nədəndi?
Açıq Camoy, “Dağlar”ı çal, “Dağlar”ı!
Dünyamızda bir günəş ölkəsi var,
Onda qopuz, qara zurna səsi var,
“Qara saz”da Ədalət nəfəsi var,
Aşıq Camoy “Dağlar”ı çal, “Dağlar”ı!

Ürəyim açıldı, bu gün gül kimi!
Ocaq çatdım, söz qaladım, kül kimi!
Vətənimdə ötərəm bülbül kimi!
Aşıq Camoy,”Dağlar”I çal, “Dağlar”ı!

Bu Vurğunun bizə örnək, məşqidir,
Söz dünyanın bəzəyidir, nəqşidir!
Zərəngizin arzusudur, eşqidir,
Aşıq Camoy, “Dağlar”ı çal, “Dağlar”ı!

## Aşıq Camoya

Aşıq Camoy, bağrına bas, sazını,
Yeddi dillə yetmiş yeddi söz danış!
Molla Pənah, Səməd Vurğun elində,
İnciləri söz sapına düz, danış!

Tarixdən, rəvayət, dastanlar söylə,
Hikmətli sözləri tap, çatdır elə,
"Ucu tər cığalı" bir siyah telə,
Xəlvət baxıb, Kərəm kimi yan, alış!

Nuhun gəmisindən, bəni-adəmdən,
Xan Əslidən, Abbas-Gülgəz, Kərəmdən,
Soraq verdin, qanlar axdı didəmdən,
De, insan qaldımı, yada salmamış?

Əsli-Kərəm aşkar olan yuxumdu,
Tahir-Zöhrə ilmə-ilmə toxundu,
Şahın Bejanından fərman oxundu,
Abbas gəlib məqamını almamış!

Qurbaninin, Sarı Aşığın sözləri,
Aşıq Valeh heyran qoydu bizləri,
Aşıq Bəsti yandı-yandı sızladı,
Xan Çobanın qayğısına qalmamış!

Ələsgərin ruhu bu gün dardadı,
Cümlə türkün fikri-zikri ordadı,
Bu gavurun, seyraqıbın, xoryadın,
Az qalıb başında zəfər çalmamış?

Təbillərim sinəm kimi döyünsün,
Aşıq Mirzə, Aşıq Avdı öyülsün,
Paşa Salahlıdan şeir deyilsin,
Demə yaddaşlarda sözü olmamaış!

Şair Məhəmmədim, Aşıq Bəhramım,
Ələddin İncəli, Həvəskar hanı?
Əcəl gəldi, tərk elədi dünyanı,
Analar, bacılar saçın yolmamış?

Bu dünya belədi gələn dayanmaz,
Bu gün meydandasan, yatma, yaşat, yaz!
Demədiyin sözlər sənin olanmaz,
Təzə söz çiçəkdi, hələ solmamış!

Sənin sorağını uzaxdan aldım,
Dedilər aşığın ləhcəsi baldı,
Heyran oldum, vallah, sənə halaldı!
Hayıf ki, çoxları bələd olmamış!

Zərəngiz yazacaq ərzi-halını,
Saz ilə, söz ilə qeylü-qalını,
Yandır çırağını, yaşat yolunu,
Bas bağrına, yanqı, alov, köz, danış!

17.12.2017-ci il.

## Akif Aşırlıya

Əzəmətli dağlarımdan güc alan,
Avey kimi başı göyə ucalan,
Dünyamıza xoş məramla səs salan,
Yaşa, du dünyada, Akif Aşırlı!

Qorqud olub söz söyləyən, boylayan,
Türk elində səxavətlə paylayan,
Tariximi yada salan, söyləyən,
Yaşa, bu dünyada, Akif Aşırlı!

Sən elimin söhbətisən, sözüsən,
Ağlı, huşu, şöhrətisən, gözüsən,
Əllini aşırıb, haqla yüzü sən,
Yaşa, bu dünyada, Akif Aşırlı!

Şamanmısan, Qorqudmusan, sazmısan?
Öz adını ürəklərə yazdın sən!
Sanmasınlar bu sənətdə azdın sən,
Yaşa, bu dünyada, Akif Aşırlı!

10.12.2018-ci il

## Nizami babam

Allahın adıyla kəlam başlayan,
Allah dərgahına üz tutan insan!

Ey fəxrim, vüqarım, Nizami babam!
Ulu şöhrətinə min-min ehtiram!

Nicatını uca Tanrıdan aldın,
Ağıla, kamala, qüdrətə doldun!

Sözün zəmanənin fövqündə durdu,
Sənin tərifinlə taclar bərq vurdu.

Ey dünya mülkünün tək şahənşahı,
Ey söz dünyasının qadir Allahı!

Söz sənlə yarandı ulu sənətdə,
Olmadı bir kimsə sən cəsarətdə!

Bu dünya evində yeganə sənsən,
Sirrlər dünyasında dürdanə sənsən!

Eysənətmülkününsultanı,şahı,
Ey qüdrət tağının günəşi, mahı!

Ulu qüdrətinə baş əyirəm mən,
Uca sənətinə baş əyirəm mən!

Sənətd ölməzlik təlili çaldın,
Sənlə ana yurdun başı ucaldı!

Beş xəzinə qoydun, beş qitə toyu,
Varsan qərinələr, əsrlər boyu!

Ruhuna yar olsun haqqın rəhməti,
Ey uca xalqımın şanı-şöhrəti!

2006.

## Vurğun

Vurğun-bir ölkənin sənət şahıdır!
Vurğun-şeirimizin eşq allahıdır!
Vurğun-şeir, sənət kəhkəşanıdır!
Vurğun-söz nəhridir, söz ümmanıdır!
Vurğun-eşq verib, canlar alıbdır!
Vurğun-ömürlərə sayə salıbdır!
Vurğun-sirri-xuda seir bulağıdır!
Əbədiyyən axan  söz qaynağıdır!
Türk olan, Vurğunu sevəcək, haqdır!
Ona ağız büzən, şərdir, nahaqdır!
Oxusun Vurğunu kamala dolsun!
Vurğunu sevsin ki, Vətənin olsun!
Ömür kitbımda əzbərimdi O!
Bulaq tək qaynayan sözlərimdi O!
Ruhu qarşısında ruhum müntəzir!
Bülbül ovlağında bayquş nə gəzir?!
Pozma cəlalımı, qara yel əsmə,
Min şərlə kükrəyib əbəs tələsmə!
Vurğunun qədrini sən nə bilərsən?!
Vurğun sevgisinə həsəd çəkərsən!

Vurğun–fövqəlbəşər eşqə talıbdır,
Ondan şədi–şəkər sözlər qalıbdır!
Vurğun–şeir evinin şah övladıdır!
Vətənimin nadir istedadıdır!
Yaratdığı hər söz elin varıdır,
Sevgili yurdumun iftixarıdır!...

## Mirvarid Dilbaziyə

*(İlk görüşdən ana tək sevdiyim Xalq şairi Mirvarid Dilbaziyə)*

Sənət yollarında tutdun əlimdən,
Ana oldun mənə, ana şairim!
Qəlbimə eşq verdin, əlimə qələm!
Nə qədər borcluyam sana, şairim!

Nurlu kəlamında söz çiçəkləndi!
Çiçəklər boynunu bükdü, biləsən!
Yoluma nur saçdın, bir mələk kimi,
Ömür yoluma dürr tökdün, biləsən!

Şeirin anası, sözün anası,
Sazımda çağlayan ünümsən mənim!
Nəfəsin bir ılıq ilğıma döndü,
Qayıtmış analı günümsən mənim!

Anam sac küllədi, sanki gözümdə,
Yuxa çiçək-çiçək oldu, gülləndi!
Şirinləşdi necə həyatın dadı?
Analı dövranım, döndü,dilləndi!

Həzincə bir yağış səpər torpağa,
Ruhun çiçəklər tək çimər, bəzənər!
Zərəngiz ana tək anar adını,
Sevdan ürəyimdə dinər, bəzənər!

12.07.2011-ci il

## Olur

Bir şair qızınam, ey Ana Vətən,
Qoynuna gələndə könlüm xoş olur!
"Ana sığalı"nı görəndə, bilsən?
Nazlı qəlbim bir nəğməkar quş olur?

Öz adınla tarixlərdə qalıbsan,
Vaqiflər, Vurğunlar yola salıbsan!
Sən namını, şöhrətini alıbsan,
"Sıra dağlar" səngər olur, daş olur!

Səni görən gözəl hüsnündən doymaz!
Səndə mənim gecəm gündüz, qışım yaz!
Qədim kitabəndi Avey pozulmaz!
Tərsa sorağında itib, çaş olur!

Hər gülünə, çiçəyinə bənd oldum,
Gəzdim torpağını "dərdimənd" oldum!
Ahıl vaxtı elə bildim gənc oldum!?
Gördüklərim hərdən, sanki tuş olur?

Dağlarında duman, ya çəndi yenə?
Hər gözəl oylağın aləmdi mənə,
Damçılı bulağın Zəm-zəmdi mənə,
İçsəm onu ürəyimə nuş olur!

Yaz gələndə, yaylaqların hallanır,
“Zənbur” çiçəyindən əmir, ballanır,
Sərxoş söyüd yolum üstə sallanır,
Ağlım çaşıb xəyallanır, huş olur!

Sən qışdada bahar, yaz dünyasısan,
İman, irfan, qopuz, saz dünyasısan!
Zərəngizin özbəöz dünyasısan!
Səndə şeir-söz çulğaşır, baş olur!

05.12.2018-ci il

## "Qafqaz Media"

*(Rəfiqəm, hacıxanım Azadə Taleh Abbasqızına)*

Arzu-diləklərdə "Qafqaz Media",
Gülən ürəklərdə "Qafqaz Media",
Borçalı gözəli, Gəncəli qızı,
Bir el bərabəri, bir el arxası,
Azadə Talehin doğma yuvası-
Açan çiçəklərdə "Qafqaz Media"!
Hər an köməklərdə "Qafqaz Media"!

Hər kəsin dərdini bilir, sevilir,
Hökmüylə insanlar gülür, sevinir,
Bir kömək əlidir, bir yardım əli,
Kimsə ağız açsa, deyəcək: "Bəli!"
Yurdun xeyirxahı, elin qızıdır,
Onun hər işindən hamı razıdır!
Bir el bərabəri, bir el arxası,
Azadə Talehin doğma yuvası-
Məlhəm olar dərdə "Qafqaz Media"!

Anası atana arxadır hər an,
Balası itənə arxadır hər an,
Yorulub, gözləri yollarda qalan,
Neçə sahibsizə kömək dayanan,

Binəsib yolunda mayaq tək yanan,
Cəfakeş insanın dərdini qanan,
Bir el bərabəri, bir el arxası,
Azadə Talehin doğma yuvası-
Kömək olar dərdə "Qafaqz Media"!

Sorağı yayıldı bütün ellərə,
Adı nəğmə kimi düşdü dillərə,
Ağlar ürəklərə, gülən gözlərə,
Əlsiz, ayaqsıza, kimsəsizlərə,
Yardıma yüyürdü, yardıma qoşdu,
Bəzən qəzəbləndi, çağladı-coşdu...
Bir el bərabəri, bir el arxası,
Azadə Talehin doğma yuvası-
Dayaqdı hər mərdə "Qafqaz Media"!

Gözünə nur oldu neçə şikəstin,
Aldı qarşısını, hiylənin, qəsdin,
Bəzən qəzəbləndi, tufan tək əsdi,
Qopardı haramın başında boran,
Bir əlində qanun, birində Quran!
Günləri, ayları, illəri yoran
Bir el bərabəri, bir el arxası,
Azadə Talehin doğma yuvası-
Kimsə qalmaz darda "Qafqaz Media"!

Yorulmur, yatmayır, sazdır, oyaqdır,
Qələmə dayaqdı, sözə dayaqdı,
Ocağa dayaqdı, közə dayaqdı,
Zərəngiz Dəmirçi, bizə dayaqdı,
Qoruyur kəlməni, qoruyur sözü,
Səni hifz eləsin Tanrının özü,
Bir el bərabəri, bir el arxası,
Azadə Talehin doğma yuvası–
“Aman!” olan yerdə “Qafqaz Media!”
İman olan yerdə “Qafqaz Media”!

## Ay Buta

*(Gözəl şairə Səadət Butanın 60 illiyinə)*

Şair Buta, gülün dəstə-dəstədir,
Qəlbim coşub bir seyrangah istədi,
Hacıxanım dedi bu göz üstədi!
Cəlalına heyran oldum, ay Buta!
Vüsalına mehman oldum, ay Buta!

Borçalının qədir-qaim qızısan,
Məhsətinin bizə çatan sözüsən,
Coşub-daşdın, heyran etdin bizi sən,
Cəlalına heyran oldum, ay Buta!
Vusalına mehman ldum, ay Buta!

Qarayazı çöllərində yazmısan?
Göyəzəndə coşan nəğmə, sazmısan?
Avey deyən seyrangahda gəzmisən?
Cəlalına Heyran oldum, ay Buta!
Vüsalına mehman oldum, ay Buta!

Hacıxanım yoluna nur saçıbdı
Xalq Tv-də sənə veriliş açıbdı,
Səni ellər, ürəyinə basıbdı,
Cəlalına heyran oldum, ay Buta!
Vüsalına mehman oldum, a Buta!

Günəş gülər, çəmən gülər, çöl gülər,
Fəğan etsə bülbül, dilin gül bilər,
Sənin kimi sənətkarı el bilər,
Cəlalına heyran oldum, ay Buta!
Vüsalına mehman oldum, ay Buta!

Sazın sirdi, sözün sirdi, min yaşa!
Səni gğrdüm, gözüm güldü, min yaşa!
Borçalıda salamat, əmin yaşa!
Cəlalına heyran oldum, ay Buta!
Vüsalına mehman oldum, ay Buta!

Söylə kimdən dərsin aldın, min əhsən!
Yaddaşımda tarix oldun, min əhsən!
Dünyamızı sehrə saldın, min əhsən!
Cəlalına heyran oldum, ay Buta!
Vösalına mehman oldum, ay Buta!

Mən Qazağın dilbər qızı Zərəngiz!
Həm hünərvər, həm ər qızı Zərəngiz!
Var-yatırı, gövhər qızı Zərəngiz!
Cəlalına heyran oldum, ay Buta!
Vüsalına mehman oldum, ay Buta!

## Borçalı

*(2011-ci il iyulun 26-da Borçalıda Bakıdakı "Borçalı" cəmiyyətinin təşkilatçılığı ilə dəniz səviyyəsindən 2785 metr yüksəklikdə yerləşən Armudlu yaylağında "Elat bayramı" keçirildi və Qafqaz Media İctimai Birliyinin dəstəyi ilə bir qrup jurnalist qadınla məni də ora qonaq apardılar)*

Getdikcə uzandı, uzanan yollar,
Ey qədim torpağım, ey gözəl diyar?
Sanki bir anasan açdığın qollar,
Sarıldı boynuma anam, Borçalım!
Çəkilsin başından duman, Borçalım!

Ocağın da doğma, odun da doğma,
Yaxının da doğma, yadın da doğma,
Arın şirə çəkər, dadın da doğma,
Gəl, ol dərdlərimə dərman, Borçalım!
Çəkilsin başından duman, Borçalım!

Ətirli otların bir təbib, loğman,
Bağçanda güllərin dərdlərə dərman,
Doğmaya, yaxına söylədin "Can, can!"
Övladın olmasın peşman Borçalı!
Çəkilsin başından duman Borçalım!

Gün döyən çiçəkdən bal yığar arın,
Min nəğmə söyləyər qırçın suların,
Tükənməz sərvətin, tükənməz varın,
Qucağın var-yatır, ümman, Borçalım!
Çəkilsin başından duman, Borçalım!

Sənə alqış deyir ulduzlar, aylar,
Şeirdi çeşmələr, nəğmədir çaylar,
Nağıldır bağlarda alma, heyva, nar,
Bar verən bağlara bağban, Borçalım!
Çəkilsin başından duman, Borçalım!

Səmanda taya tək pənbə buludlar,
Göy üzü tərtəmiz, gülər ruzigar,
Abi-həyat imiş çeşməndə sular?
Güldən rəng toxuyur orman Borçalı,
Çəkilsin başından duman Borçalı!

Tərlanlar qıy vursun asimanında,
Bülbüllər oxusun gülüstanında,
Köhlənlər kişnəsin, gen meydanında,
Sevinsin təbili çalan, Borçalım!
Çəkilsin başından duman, Borçalım!

Dinsin qara zurna, qaynasın ürək,
Duil açsın qəlblərdə min arzu, dilək,
Gül-gülə yaraşsın, çiçəyə-çiçək,
Açılsın ayna tək səman, Borçalım!
Çəkilsin başından duman, Borçalım!

Çalınsın təbilin oynasın qanım,
Durnanın telindən gəlsin nişanım,
"Başına döndüyüm Azərbaycanım!"
Oudur, sənin doğman, anan, Borçalım
Çəkilsin başından duman Borçalım!

Gəlin tək "atlaz" don gördüm əynində,
Gül üzlü körpələr bəslə qoynunda,
Namərd qurğusundan, düşmən oynundan,
Gəl olma ürəyi sınan, Borçalım!
Çəkilsin başından duman, Borçalım!

İgidlər at çapsın, nəmərin alsın!
Gözəllər çəmənə xalılar salsın,
Zərəngiz yazdı ki, yadigar qalsın,
Sığmayır qoynuna cahan, Borçalım!
Çəkilsin başından duman, Borçalım!

27/7 2011-ci il.

## Tiflis

*(Tbilisi şəhərində hökmüdar qadın Tamaranın əli qılınclı heykəli var, o qadın ki, Qədim türk torpaqlarını ona görə gürcülərə ərməğan verib rus çarı vaxtilə...)*

Uzaqdan şöhrətin tanışdır mənə,
Taleyi boranlı, cəfalı Tiflis!
Səndə gör kimlərin ayaq izi var?
Saxlarsan qoynunda, vəfalı Tiflis!

Başında neçə yol şimşəklər çaxdı,
Düşmən həmləsindən qan su tək axdı,
Elə ki Tamara taxtına çıxdı,
Adın oldu xeyir butalı, Tiflis!

Bağrında Şah Abbas xanimanı var,
Nəriman gəzdiyi bağçalar durar,
Fətəli, Ömər Faiq, Mirzə Cəlil yar-
Burdadı onların xəyalı, Tiflis!

“Qızıl Şərq” qəzeti dil açdı səndə,
“Molla Məsrəddin”im düşmədi bəndə,
Bodenşteyn, Vazeh gəzdi sinəndə,
Şeirli, “nəğmə”li, havalı Tiflis!

Metex qalasında tarixin yaşar,
Onun hər kərpici bir dastan qoşar,
Ustalar, dükanlar, o "Şeytanbazar",
Dururmu onların cəlalı, Tiflis!

Kürboyu qayğılı, ləpələr titrər,
Durnalar telini qoynuna tökər,
Dostluğun qədrini nakəs nə bilər,
Salma dostlarını aralı, Tiflis!

Zərəngiz də sənə mehmandı bu gün,
Oxşayır ruhumu belə toy-düyün!
Ala gözlərinlə hər zaman öyün,
Güllü-gülüstanlı, səfalı, Tiflis!

27/7-2011-ci il.

## Bayramlar

Bayramlar qovuşdu yenə bayrama,
Yurduma misilsiz bir büsat gəlir!
Döyünür ürəklər eşqlə, ilhamla,
Bir ildən bir ilə hesabat gəlir.

Qurban bayramının öz cəlalı var,
Elin mərdlərini üzə çıxarar,
Səxavət bitməyən, tükənməyən yar,
Xoş günün üstünə xoş saat gəlir.

Novruz bayramında gülür obalar,
Ellərin ruhunda mərdanəlik var,
Sevdalı könüllər min büsat qurar,
Qəlblərə eşq gəlir, təravət gəlir!

Ramazan bayramı mərhəmət ayı,
Haqdan nazil olar bərəkət payı,
Tanrımın yurduma var haqqı-sayı,
Nəsildən-nəsilə əmanət gəlir!

Yurdumda gül açsın əbdi bahar?
Mənə fərəh verir du doğma diyar!
31 dekabr- əbədi yaşar!
Bu xalqa salama kainat gəlir!

## Türkəm

Torpağı qucmuş
Bir daş olsam mən,
Göylərə od salan
Atəş olsam mən,
Tarixin özünə
Sirdaş olsam mən,
Bilin ki, türkəm!

Eşqi pak,
Nəğməsi təmiz,
Qəlbi nur,
Sevgisi dəniz,
Xatiri hamıdan əziz,
Lap baş olasam mən,
Bilin ki, türkəm!

Güc versəm
Belimə, dizimə,
Hədd qoysam,
Səbirə, dözümə
Qayıdıb bircə yol özümə
Savaş olsam mən,
Bilin ki, türkəm!
Bilin ki, türkəm!

1990.

## Türkünamə

Qanımda sevgisən, mehrsən, ey türk!
Nə böyük qüdrətsən, sehrsən, ey türk!
Özümsən, əziz türk, əzəlimsən sən,
Sevgimsən, sevimli gözəlimsən sən!
Bütün şöhrətlərə şöhrətsən, türküm!
Tanrı yaratdığı qüdrətsən, türküm!
Dünya sirlərindən baş açansan sən,
Günəş tək aləmə nur saçansan sən!
Sevgimin məbədi, canım, gözümsən,
Ürəyimdə sənsən, canda özümsən!
Adın gözlərimə işıq, a türküm,
Zövqün zövqümə yaraşıq, a türküm!
Sənin gül bağçanda çiçəklər solmaz,
Türküm, xidmətini deməsəm olmaz!
Sənsən ürəyimin odu, bunu bil!
Sevmərəm özgəni, yadı, bunu bil!
Canımda qanımla axan qanımsan,
Ruhumsan, ruhumda ilk ünvanımsan!
Mən səni sevmişəm körpəliyimdən,
Sən mənim qəlbimdə atəşsən, bilsən!
Türküm, qəlb yarısan ürəkdə hər an,
Azər vüqarısan, diləkdə hər an!
Əziz qədəmlərin gözümün üstə,

Sevgili türklüyüm, bir məni səslə!
Gör, nəfəs-nəfəsə duraram, necə?
Ömrünə min bəzək vuraram, necə?
Mənim eşqim qədər eşqinə qurban,
Ulu sevgim qədər sevginə qurban!
Mən sazı dindirim, dillən, a türküm!
Gülüstanımda gəl güllən, a türküm:
Bir kökdən, bir qandan yaranmışıq biz,
Kədərdən, hicrandan usanmışıq biz,
Mavi dünyam mənim, eşqim, canımsan,
Öz ruhum, öz qanım, öz ünvanımsan!
Türküm, Azər adlı qardaşınam mən,
Əzəl mehribanın, sirdaşınam mən,
Gəl verək səs-səsə, dünya dinləsin!
Dost gülsün, düşmənim yanıb-inləsin!
Tarixlər bilir ki, bizlər kimlərik!
Namərdə, yağıya boyun əymərik!

30.12. 1992.

# Novruzum

Qədəmin mübarək Novruzum!
Nə qüssə, nə qəm çək, Novruzum!
Başında çələng var al-əlvan,
Səninlə oyanır bu cahan!
Dumduru suların axanda,
Göylərdə şimşəyin çaxanda,
Yamyaşıl otların silkinər,
Gülərsən göy gülər, yer gülər!
Sən bahar qızısan, Novruzum!
Torpağın nazısan, Novruzum!
Al rəngin yaşıla qarışar,
Sən gəlsən küsənlər barışar!
Nəfəsin səməni cücərdər,
Nemətə bürünər süfrələr!
Qoğalın günəşdir nimçədə
Şamların sönməsin heç vədə!
Şəkərburan ay tək evlərdə,
Bol olsun, ruzumuz ellərdə!
Paxlava dörd ünsür, çərşənbə,
Tanrıya duada hər bəndə!
Dörd yana xeyrimiz yollansın!
Qələbə ruhumuz canlansın!
Şirinin, şəkərin, noğulun,

Söylənsin əfsanən, nağılın.
Yumurta bəzənər rəngbərəng,
Tonqalın şimşəklə həmahəng!
Şəninə şərbətlər içilər,
Körpənə köynəklər biçilər!
Güllü don geyinər gözəllər,
Qədrini el bilər, gün bilər!
İgidlər "Qaytağı" oynayar,
Sellərin, suların qaynayar!
Silinər qəlblərin ağrısı,
Parıldar köhlənlər sağrısı,
Torpağın, güllərin, otların,
Bu gözəl sevimli baharın,
Könüllər vəsfinə söz qoşar,
Nəğməli suların gurlaşar!
Gün vürub, daşların qızanda,
Plovun dəm alar qazanda!
Ən əziz müjdəsən yurduma,
Gəl əziz Novruzum,
Bir də sən yurduma!

## Sözümü deməkçün cahana gəldim

Mənə dərd dilini öyrətmə, bülbül,
Çəməndə qəmdən yox, dəmdən açır gül!
“Ol!”-dedi hakimim, mən cana gəldim!
Sözümü deməkçün cahana gəldim,
Hökmü özü verir böyük Yaradan,
Həyatda bir dəfə doğulur insan.
Yüz xəzan tökülsə ağac dibinə,
Yazda çiçəkləyər, ayılar yenə!
Çəmən güllərinin solsa ləçəyi,
Günəşdən güc alar, açar çiçəyi.
İnsan yaşadığca artar arzular,
Xoşbəxt o insandır, sədaqəti var!
Sidqimi Tanrıma bağlamışam mən,
Sevdamı qəlbimdə saxlamışam mən.
Tanrı rizasıyla yaranmış cahan,
Tanrıdan mərhəmət dilədim hər an.
Qəlbimin açarı səbrdir mənim,
Qəlbini qırmadım heç bir kimsənin!
Hər kəsin istəyi, sevdası vardır,
Zövq ilə yaşayan nə bəxtiyardır.
Zərəngiz, sözünü zövq ilə söylə,
Arif ol, hər kəsə yaxşılıq eylə!

12/4 2010-cu il

## Torpaq

Qara torpaq, anam torpaq,
Mən sənə heyranam, torpaq!
Lacivərddir hər bir danən,
Qoy, başına dönəm, torpaq!

Göydəki ulduzun sanı,
Bititrmisən gülüstanı,
Sel oldu igidlər qanı,
İstəmirəm dinəm, torpaq!

Verəməmişəm səni yada,
Qada verən görər qada,
Fələklər gələr fəryada,
Görər ki, mən kiməm, torpaq!

İgidlər qanında qeyrət,
Qaytarar namını, əlbət,
Bir gün gülər qoca millət,
Hələ sarı siməm, torpaq!

Zərəngiz, susma çağla sən,
Dostla ülfəti bağla sən,
Sədaqətimi yoxla sən,
Keçmədim ki, səndən, totpaq!

5. 07-2011-ci il

## Ömrüm

Bir qəmli karvanın dalınca düşüb,
Ömrümü dərd yükü eyləmişəm mən!
Qaranlıq sıyrılıb, danüzü gəlib,
İndi ayılıram, neyləmişəm, mən!?

Bu beşgün dünyanın möhnəti ağır,
Vermə kürəyini o yükə könül!
Göydən səadət də, dərd-qəm də yağır,
Hansını tutdunsa, sənunkidir bil!

Gələnə-gedənə yox ölçü-biçi,
Haqqın var, gəlmisən, yaşa ömrünü!
Beləcə sürülür dünyanın köçü,
Çalış hünərlə vur başa ömrünü!

Zərəngiz Dəmirçi, heçə enmə gəl,
Getdiyin yolları geri dönmə gəl!
Dünən fərman verən yatır torpaqda,
Dünyada hər şeydən həqiqət gözəl!

## Şair şeir oxuyanda

*(Bakıda I Beynəlxalq Poeziya Günü keçirilmişdir)*

Göydə quş qanad saxlar,
Şair şeir oxuyanda!
Sevinc dərd-qəmi haxlar,
Şair şeir oxuyanda!

Nizami yada düşər,
Göylərə səda düşər,
Səməndər oda düşər,
Şair şeir oxuyanda!

Xalçalar naxış-naxış,
Ələnər sözdən yağış,
Yer-yerdən qopar alqış,
Şair şeir oxuyanda!

Gedənlər ayaq saxlar,
Körpələr rahat yuxlar,
Gözəl bənövşə qoxlar,
Şair şeir oxuyanda!

Köhlənlər şahə qalxar,
Göy gurlar, şimşək çaxar,
Dost əlini dost sıxar,

Şair şeir oxuyanda!

Dağlardan səda gələr,
Şəlalə yada gələr,
Mövlamdan nida gələr,
Şair şeir oxuyanda!

Qayalar baxar lal tək,
Ay goy üzündə xal tək,
Sözlər ağızında bal tək
Şair şeir oxuyanda!

Laylasın söylər ana,
Silkinər göldə sona,
Həzincə ötər durna,
Şair şeir oxuyanda!

Sevən bağrı qan olar,
Eşq evi talan olar,
Hər sözümüz: “Can”- olar,
Şair şeir oxuyanda!

Yurd gülər, yuva gülər,
Dərdlərə dəva gələr,
Zövqilə səfa gələr,
Şair şeir oxuyanda!

Vətən ahdan qurtarar,
El günahdan qurtarar,
Gözəllər büsat qurar,
Şair şeir oxuyanda!

Göydən sevgi ələnər,
Aləm nura bələnər,
Göytağı silkələnər,
Şair şeir oxuyanda!

Dərd yanar, susar, sönər,
Göy dinər, Tanrı dinər,
Şuşam da geri dönər,
Şair şeir oxuyanda!
Şair şeir oxuyanda!

11.11.2011.

## Çatar məhəbbətim

Nə qədər istəyim tənha qalıbdır,
Neçə yol könlümü qəmlər alıbdır,
Qəlbimə duman da, çən də dolubdur,
Yenə minnətdaram ulu Tanrıya,
Çatar məhəbbətim, çatar hamıya!

Dərdli anadiləm, ötən quşam mən,
Keçən qəmləri heç unutmuşam mən?
Tanrı dərganına üz tutmuşam mən,
Sınan ürəyimi bəlkə yamaya,
Çatar məhəbbətim, çatar hamıya!

Daş dibində bitən körpə bir çiçək,
Yurdumun balası hamıdan göyçək,
İçimdə istəklə dopdolu ürək,
İstər ki, eşqimi ellərə yaya,
Çatar məhəbbətim, çatar hamıya!

Dağın əzəmətli baxışı vardır,
Həyatın baharı, sərt qışı vardır,
Dünyada hər kəsin öz işi vardır,
Gül bəsləyən gərək gülü tanıya!
Çatar məhəbbətim, çatar hamıya!

Qoy elim firavan bir ömür sürsün,
Mənim də gözlərim o günü görsün,
Könül sevgisini ellərə yaysın,
Eşqimi əks etsin uca dağ, qaya,
Çatar məhəbbətim, çatar hamıya!

Zərəngizəm, yurda sevimli bulbul!
İçimdə ürəyim çox ötüb dil-dil!
Ey mənim həməsrim, bunu sən də bil,
Gəldim ürəkləri sözlə yamayam,
Çatar məhəbbətim, çatar hamıya!

2006.

## Qələmim

Sirrim, sözüm, sələmim,
Ömrüm, günüm, ələmim,
Dolan ellər başına,
Yaz eşqimi, qələmim!

Sonalı gölləri gör,
Zəmili çölləri gör,
Susma qələmim mənim,
Çağlayan selləri gör.

Ayrı muraz istədim,
Çoxdan bir az istədim,
Ömrüm bükülü qönçə,
Açmağa yaz istədim!

Qələm, sənə sirr dedim,
Gəlmişdi, bir-bir dedim,
Göz yaşıma mirvari,
Sözlərimə dürr dedim!

Zərəngiz üstələnmiş,
Göyü yerə ələnmiş,
Əfsus ki, gec bilmişəm,
Bir ömür bir qələmmiş?

1988.

## Ana dilim

Eşqlə qəlbimə dolan,
Əbədi tarix olan,
Gülü xəzan tək solan,
Bir bahar təbəssümü!
Dağları, bağlarıyla,
Gözlərimdə gül hüsnü!
Ana dilim!

Dərd yağdı qəlpə-qəlpə,
Qərənfil təpə-təpə,
Xəzərim ləpə-ləpə,
20 Yanvar günü!
Xalqımın ünü, dini!
Ana dilim!

Ömürlük utanc, ləkə,
Olmuşduq müstəmləkə!
Qəlbimə dağlar çəkər,
Çox qanlı bir faciə,
Xocalımın qırğını!
Ana dilim!

Yandırıldı bir elat,
Hardaydı Qırat, Dürat?
Bu qanlı bir əhvalat,

Əsrlər boyu yaşat,
Unutma bu ağrını!
Ana dilim!

Qyalarımda mamır,
Torpağımdan qan damır!
Ah çəksəm göylər yanır!
Tanrı olmaq istəmir,
Allah dərddən utanır,
Ana dilim!

Körpəcə fidanları,
Yaxşiliğa böyüyür,
İgid qəhrəmanları
Əsrlərlə öyülür!...
Haqq deyən dillər susur,
Həqiqətim döyülür!?–
Ana dilim!

Nizami, Füzulidən,
Nəsimidən güc alan,
Mövlanəsi dünyaya,
Silinməz bir iz salan,
Vaqifi, Ələsgəri,
Hikmətimdən söz alan–
Ana dilim!

Sabirin etirazı,
Şaiqin güllü yazı,
Cəfərin səhnələri,
Vurğunun al səhəri!
Vahidin qəzəlləri!
Ana dilim!

Qobustan qayasında,
Elin toy və yasında,
Xeyir, şər dünyasında,
Adıma ünvan tutan,
Əbədiləşən cahan!
Ana dilim!

Şimşək qılınc-qalxanlı,
Bilgə Xaqan məkanlı,
Sazlı, sözlü, dastanlı,
Dədə Qorqud ünvanlı,
Güvəndiyim Qazan xan!
Ana dilim!

Tomrisin oğul dağlı,
Ürəyinin şöləsi,
Xətainin qılıncla,
Kəsdiyi top lüləsi!
Sarsıtdı Vətənimi,

Düşmənlərin hiyləsi–
Ana dilim!

Ağ dəvələr yüklənmiş,
Dərbənd, Xorasan yolu,
Fitvaya qurban gedən,
Babəkimin cüt qolu!
Təbrizimə yollandım,
Ulu Savalan boyu!
Ana dilim!

Ərşə üsyan bağıran,
Qoç Koroğlu nərəsi,
Ər Nəbi silahdaşı,
İgid Həcər nəfəsi,
Misri qınc zərbəsi,
Əldə "Aynalı" səsi!
Ana dilim!

Salatının gözündən,
Baxan ana laylası,
Gültəkin, Qaratelin,
Vəfan aslan balası!
Qalaların, bürclərin,
Əsrlərlə qalası!
Ana dilim!

Susma, danış el oğlu,
Düşmən aldı sağ-solu,
Dəryalar qanla dolu,
Gözlər qurtuluş yolu,
Ulu xalq, ulu yolu!
Ana dilim!

Milləti dardan qurtar,
Qeyrəti ardan qurtar,
Bülbülü sardan qutar,
Bir ömürdür bir vüsal,
Əbədi qələbə çal-
Ana dilim!

Viranə qalan ellər,
Sənindir Vedibasar,
Sənindir qədim Göyçə,
Ağdam, Urud, Zəngilan,
Şuşa, Laçın, Kəlbəcər-
Ana dilim!

Açmır Xarıbülbülüm,
Hardadı Göyçə gölüm?
Nigaran yurdum, elim,
Sönən ocağım, külüm!
Torpağım bölüm-bölüm!

Ana dilim!

Başıma odlar ələr,
Dərdimi Allah bilər,

Düşmən yazımı silər,
Yer bağırar, göy dinər,
Üç yol dəyişdirdilər–
Ana dilim!

Görklü müqəddəsimdir,
Eşqimdir, həvəsimdir,
Dünyalarca səsimdir,
Minillik əsasımdır,
Təkcə sən bil, bəsimdir!
Ana dilim!

Ruh da var, ərən də var!
Göydə ildırım çaxar!
Zərəngiz, ürəyimdə!
Xaliqin eşqi yaşar!
Göynəyər içim, çölüm,
Ana dilim!
Ana dilim!
Ana dilim!

## Yol gedirəm

Ocağın külüyəm mən,
Közüm yox, kömürüm yox!
Ömrüm tufanda keçdi,
İşartım, hənirim yox!

Başdan dərdli köynəyəm mən,
Qəlbi yuxa, kövrəyəm mən,
Dünya boyda ürəyəm mən,
Susmuşam səs-səmirim yox!

Yol gedirəm yolum ilə,
Həyat ölüm, olum ilə,
Kimi nə cür, mən də belə,
Dəmirçiyəm, dəmirim yox!

## Atam qocalır

"Gözüm görə-görə, anam qocalır..."
*(Xalq şairi Cabir Novruza itthaf)*

Sənə qəzəbliyəm, ey çərxi-fələk!
Gözüm görə-görə, atam qocalır?
Əlimdən gələni etmək istərəm,
Axır nəhayətdə əlim boş qalır,
Gözüm görə-görə, atam qocalır!

Bu necə qurğudur, bu necə mizan?
Yolunu səhv gedən, izini azan,
Hər zülmə, zillətə, möhnətə dözən,
Fələyin tökdüyü qəlibə dolur?
Gözüm görə-görə atam qocalır?

Birinin taxtını şah taxtı eylədin,
Birinin baxtını ağ baxt eylədin,
Tanrım, qafilləri xoşbəxt eylədin,
Nədənsə,aqillər kəmovqat olur?
Gözüm görə-görə, atam qocalır?

Mərhəmətli deyim, ağırdı deyim?
Könlümü ilhamdan yoğurdu deyim!
Mənə verdiyinə uğurdu deyim?
Əməli arzumda, sözümdə qalır,
Gğzüm görə-görə, atam qocalır!

Təmiz adı ilə insan ucalır,
Hər kimsə işinə baxır, öc alır,
Qayada qartal da dağdan güc alır,
Onun şöhrətiylə adım ucalır,
Gözüm gör-görə, atam qocalır!

## Mən bu yolun yolçusuyam

Haqqı sevdim, haqqa pənah!
Haqdı, bir gün tapar məni,
Haqq yolunda etsəm günah,
Haqq, yoluma qaytar mən!

Mən bu yolun yolçusuyam,
Ürəyimin elçisiyəm,
Azın, çoxun ölçüsüyəm!
Haqqı bilən tutar nəni!
Zərəngiz cuşa gəldimi?
Könül, incitmə heç kimi,
İllər qızıl kərpic kimi,

Hörgüsünə yapar məni!

## Neylərəm?

Ayrı yol seçdim özümə,
Gedilmiş yolu neylərəm?
Ümid bağladım dözümə,
Tutuşdum oda, göynərəm!

Versəm, sayqıyla verərəm,
Alsam, ürəklə alaram!
Nəyim halal, nəyim haram,
Yazıya ümid eylərəm!

Daş-kəsək oldu düz yolum!
Qara bağrım bölüm-bölüm,
Görsəm ki, tuş gəlir ölüm!
Kəfəni özüm geynərəm!

Daha iş-işdən keçəndə,
Əcəl qurbanın seçəndə,
Bir gün dünyadan köçəndə,
Karvanı yolda saxlaram!

Qanla, süd ilə yoğruldum!
Elm nuruyla doğruldum,
Zərəngizəm, mərd doğuldum!
Haqqam, həqiqət söylərəm!

# İkilik

Həyat dedin–iki yoldur,
Qanan yolu, qanmaz yolu!
Ürək də uku cür olur–
sevda dolu, nifrət dolu!
Söz də iki cürdür–
Sığalı var, ədası var.
İş də iki cürdür=
Xeyiri var, xatası var.
İnsan özü cüt yaranır,
Onun da iki dünyası var!

## Şükür

Ocağım yoxdü mənim,
Bucağım var ki, şükür!
Özadım, öz ünvanım,
Duracağım var ki,şükür!

Dünyada tale adlı,
Bir şeyim yoxdu, nə qəm?
İki dünyaya dəyən,
Umacağım var ki, şükür!

Gecikib, yolda qalan,
Xəyaldan ilham alan,
Dünyaya gen çşılmış,
Qucağım var ki, şükür!

Hər yolun öz yolçusu,
Bir oda tökülən su...
Sarı sim, kövrək mizrab,
Hər yazı, qanun, kitab,
Yəxmadə, məndə məni,
Yaşamağım var ki, şükür!

## Yaranan gündən bəri

Özümdən, yüz il əvvəl,
Sözümdən min il qabaq,
Bu yolu getmişəm mən...
Çatmır dadıma kimsə,
Bilmirəm, indiyəcən,
Nə günah etmişəm mən?

Şər qonar göyüzünə,
Xeyirə açılar dan,
Görsə də, görməsə də,
Barmağını şam elə,
Rəhm dilə Tanrıdan!

JKükrəyib gələn çaydı,
Bir dağın hekayəti...
Ey haça dilli dünya,
Yaranan gündən bəri
Bitmədi şikayətin!

## Dostuna söylə

Güldən şirə çəkər, gülün arısı,
Şirədən nə çəkər çölün arısı?
Udduğu şəkərdi, vurduğu zəhər!
İnsanlar da belə, dünya bu təhər.

Birinin köksündə çarpan ürəkdi,
Biri gəldi-gedər, solan çiçəkdi,
Göydə bulud gəzər, gah ağ, gah qara,
Söz var könül açar, söz də var yara!

Zərəngiz, dərdini dostuna söylə!
Düşmən yeriməsin üstünə, söylə,
Kölgədə qızılgül, qönçədə qalar,
Üstünə gün düşsə, dən-dən açılar!

## Araz nisgili...

Araz, sakit-sakit axırsan, Araz!
Sağına, soluna baxırsan, Araz!
Söylə, nə qanlar var, sənin sinəndə?
Oğullar vuruldu, düşdü kəməndə?

Araz mənimdi...
Araz qənimdi...
Araz qəmimdi...
Yandım, yandım,
Mən odlar qalandım!

Araz ürəkdi...
Araz diləkdi...
Araz gərəkdi...
Andım, andım,
Mən odlara qalandım!

Araz yaxındı...
Araz yax indi...
Araz yaxındı-
Sandım, sandım,
Mən odlara qalandım!

## Söz haqqını...

Nur haqını, pir haqqını,
Verdinmi könül, verdinmi?
Neçə bağlı sirr haqqını,
Gördünmü könül, gördünmü?

Varan kimdi, soran kimdi,
Qəlb evini hörən kimdi?
Bu dərdləri verən kimdi?
Aldınmı, könül, aldınmı?

Kimdi gedən, kimdi qalan,
Tez açılan, vaxtsız solan?
Güdə yüz yol talan-talan,
Oldunmu könül, oldunmu?

Göy haqqını, yer haqqını,
Söz haqqını, şer haqqını,
Xızırın xeyir haqqını,
Buldunmu, könül, buldunmu?\

Zər yazılı, ağ vərəqli,
Qəm otaqlı, sirr soraqlı,
Əli bağlı, qolu bağlı,
Öldünmü,könül, öldünmüm?

Dünya özəl bir tamaşa,
Dərd əlindən haşa-haşa,
Hikmətin varanda başa,
Doldunmu, könül, doldunmu?

Zərəngiz qalanda naçar,
Baş götürüb hara qaçar,
Bağlı qapını haqq açar?
Bildinmi könül, bildinmi?

## Gələn gedərgidir

Tale ağacında yaşıl yarpağam,
Xəzan tək tökülsəm, qara torpağam,
Neçə ki, ömrüm var, nə qədər sağam,
Bir atam, bir anam, borclyam sənə!

Günəş yer üzünə şəfəq saçandır,
Qızıl gül ətriyə könül açandır,
Gələn gedərgidir, qonana uçandır,

Neçə qərinədir, neçə min ildir,
Dünya yaxşılarda xali deyildir,
Zərəngiz. Sözünü sidqilə bildir,
Bir atam, bir anam, borcluyam sizə!

## Eləmə

Qurulmuş mizan–tərəzi,
Dünyanın işi qərəzli,
Çox dərdlərə dözdüm,dözdüm,
Daha dözmərəm bu qəmə!

Güllərin açan vaxtıdır,
Dərbəndin hicran vaxtıdır,
Oruc, Ramazan vaxtıdır!
Mən tapınmışam qibləmə!

Təbrizin yolları çiçək,
Başında buluddan örpək,
Bir ömür azlıq edəcək,
Yayam bu dərdi aləmə!

Dünya yolundan dayanmaz,
Dağlar yatıblar, oyanmaz,
Kim inanar, kim inanmaz?
Zərəngiz, sus, sus, eləmə?!...

25.06.2013

## Cavidə

Bir zaman kükrədi tufan, qiyamət,
Sardı Vətənimi, böhtan, xəyanət,
Qapılar qıfıllı qaldı neyləyə?
Beləcə taladı yurdumu cəllad!!!

Varımızı kənar əllər apardı,
Azadlıq eşqini sellər apardı,,,
Cavidimi qara yellər apardı,
"Siyavuş","Peyğəmbər" olmadı imdad!

Bir xalqın dahisi cəllada möhtac!?
Anaya, balaya olmadı əlac!
Görən göz, eşidən qulaqda tıxac!

Yuva dağıtdılar, qoydular bərbad!
Kim yandı halına, kim sordu görən?
Oldumu təsəlli, təskinlik verən?
Dəmir barmaqlıqda-işi qüssə, qəm,

Xəyal pəncəsində sıxıldı ustad!
İblisin əlində dünya oyuncaq,
Halallıq olmuşdu ölkədən qaçaq,

Cəlladın hökmüylə açdı "sabahlar"
Göyə bülənd oldu, ah, nalə, fəryad!

Müşgünaz əlləri qoynunda qaldı,
Turan, Ərtoğrulum oyunda qaldı,
Nəfəsinə çatan yoxdu Cavidin...
Qatı qaranlıqlar bitmədi heyhat!!!

Xəbər gəldi bizə Sibir elindən!
Dedik ki, başını dik saxla, Vətən!
Rüzgarın doğduğu sənətkarsan sən,
Çatdın Vətəninə, indi rahat yat!

Vətənin yelləri laylanı çalar,
Yazdığın əsərlər əbədi qalar,
Adını rəhmətlə anırıq indi,
Səni yaşadacaq anamız həyat!

## Ölməz

*(Zəmanəsinin nəhəng yazıçısı Çingiz*
*Aytmatovun ölüm xəbərini eşidərkən)*

Türkü verən Tanrı qüdrət də verdi,
Ağıl da, hünər də şöhrət də verdi,
Dünyaya görk olan sənət də verdi,
Oğullar doğuldu ölçüyə gəlməz!
Çingiz Aytmatov, heç zaman ölməz!

Qorqud, Mövlanəsi, Bəhmənyarı var,
Nizami, Nəvai və Kaşğari var,
Kimin Tanrı kimi belə yarı var?
Verdiyi sənətdi, qüdrətdi, solmaz!
Çingiz Aytmatov, heç zaman ölməz!

Oğuz, Bilgə Xaqan yurda şan, şöhrət,
Atilla, Metelər doğan məmləkət,
Ən əvvəl oyanış, ən böyük sənət,
Gəlir qulağıma nagahan bir səs,
Çingiz Aytmatov, heç zaman ölməz!

Hərə bir can gələr, bir bədən gedər,
Nizami, Füzuli, Vaqif, Ələsgər,
Məhtimqulu, Cambul, Vurğun, Şəhriyar,
Dünyanın mizanı, sanma, dəyişməz,
Çingiz Aytmatov, heç zaman ölməz!

Atatürk, Məmməd Əmin, Bağır xan, Səttar,
Xiyabani, Nəriman, Şıxəli, Pişəvər,
Şimşək kimi çaxdı yurdumda Heydər,
Tanrı ordugahı susmaz, silinməz!
Çingiz Aytmatov, heç zaman ölməz!

Rudəki, Mövlanə doğan millətim,
Turqud Özal igid, addımı mətin,
Onun yurdçusudur Ərdoğan, Çətin,
Siyasət tacında brilyant, almaz!
Çingiz Aytmatov, heç zaman ölməz!

Yunus, Qaracoğlan, Abbas Tufarqan,
Ordubadi, Yusif, Oljas Süleyman,
Mirzə Cəlil, Sabir, Cabbarlı mehman,
Belə şah oğullar hər yerdə olmaz!
Çingiz Aytmatov, heç zaman ölməz!

Həkəri, Bərguşad qəlbimdən qaynar,
Murov dağ, Dəli dağ yerindən oynar,
Kəpəz, Göy Göl, Xəzər od tutub yanar!
Damçılı ağlayar, Aveysə bilməz,
Çingiz Aytmatov, heç zaman ölməz!

Gülün gül fəslini bahardan soruş,
Natəvan, Bülbülü Cabbardan soruş,
Yazıçı borcunu Anardan soruş,
Söz yazan oğlanın günahı olmaz,
Çingiz Aytmatov, heç zaman ölməz!

Araz həsrətlidir, bizləri qınar!
Şəmşirin torpağı od tutub-yanar!
Akif Səməd göynər, Ayrım uçunar,
Aslan tək igidim kölgədə qalmaz,
Çingiz Aytmatov, heç zaman ölməz!

Atadan oğula qalan dünyadı,
Heç doğulmamışdan "Ölən dünya"dı,
Zərəngiz, bu filan, filan...dünyadı,
Soruşma, o səni yadına salmaz!
Çingiz Aytmatov, heç zaman ölməz!

10.04-2009-cu il.

## Həncərisən?

*(Şair eloğlum Zaməddin Ziyadoğlunun*
*"Həncərisən?" şeirinə nəzirə)*

Yaz olanda könlüm gülər gül kimi,
Təbim qaynar, ötərəm bülbül kimi,
Cavanlığım gəldi-keçdi yel kimi,
Görmək istər ürək əziz elləri!
Ağrın alım, həncərisən, həncəri?

"Qağa" desəm, qarlı dağlar dillənər,
"Qağa" desəm, bağça-bağlar güllənər,
Sevincimdən göz yaşlarım sellənər,
And yerimdi, adı dillər əzbəri,
Ağrın alım, həncərisən, həncəri?

Dil dualı, iman ömrün naxşıdır,
Sınmış ürək, bir şüşədir, saxsıdır!
Söz Qazaxda, saz Qazaxda yaxşıdır!
Havacatı ovsunlar könülləri,
Ağrın alım həncərisən, həncəri?

Durna uçar, tellərində gözüm var,
Bülbül ötər, nəğməsində sözüm var,
Ceyranların çəhlimində izim var,
Turac, kəklik  öpər titrək gülləri,
Ağrın alım, həncərisən, həncəri?

Ocaq yanar, çatıldayar kösövlər,
Qınamasın məni könlübütövlər,
Ürəyim uçunar, kişnər bədövlər,
Tapdayar otları, əzər pencəri,
Ağrın alım, həncərisən, həncəri?

Aveyin Damcılı bulağı gözəl,
Hacı baba türbəsi, ocağı gözəl,
Kəmərli kəndində  "Xan bağı" gözəl,
Başında papağı, beldə xəncəri,
Ağrın alım, həncərisən, həncəri?

Xanlıqlar yaylağı, İncə dərəsi,
Salahlılar, Şıxlıların çevrəsi,
Qaymaqlıyla, Aslanbəyli dövrəsi,
Olub bu gün Vətənimin sipəri,
Ağrın alım, həncərisən həncəri?

Qızıl Hacılı, Sarıvəlli qədim yurd,
Çaylı, Poylu, Ülükməzli, Alpout,
Əzizbəyli, Qazaxbəyli gəl ovut,
Ürəyimdə şölələnən məşəli,
Ağrın alım, həncərisən həncəri!

Kəsəmənlər qədir–qaim elimdir,
Hicranlıyam, bağrım bölüm–bölümdür!
Bağanıs Ayrımda qisas günümdür!
Dur dalında görəcəksən hünəri,
Ağrın alım, həncərisən, həncəri?

Qarappaq,  Musaköy evbaşı əsgər,
Ağköynək, Xeyrımlı canından keçər,
Aveyə sökənib Daş Salahlı–ər,
Gözləyir yolumu ana gözləri,
Ağrın alım, həncərisən, həncəri?

Torpağı cəvahir, daşları dürdür,
Suları mərcandır, havası sirrdir,
Təbim təbi ilə həmişə birdir,
Ruhundan alıbdır ruhum təpəri,
Ağrın alım, həncərisən həncəri?

“Qazı ağa” babam,  “ağ saqlar” tayfam,
Mən uymaram hər deyilən boş lafa,
Bir olublar Qazaxla  Akstafa,
Yaman ayrı salınıbdı yönləri,
Ağrın alım, həncərisən, həncəri?

Nişan alıb, söz oxumu atmısan,
Vaqifimə, Vurğunuma çatmışam,
Çox nazlanıb laylasına yatmışam,
Ürəyimdə, ana sazın telləri,
Ağrın alım, həncərisən, həncəri?

Zərəngiz, “can!” söylə qərib mehmana,
Mən ona övladam, o mənə ana!
“Başına döndüyüm Azərbaycan!”a,
Qoşmuşam ən gözəl, şirin sözləri,
Ağrın alım, həncərisən, həncəri

22.06.2012

## İnciməsin

Bir ciftcə quşum var mənim,
Nə ağlım-huşum var mənim,
Əlimdə işim var mənim,
Dünya məndən inciməsin.

Bu qaragöz- uşaq deyil,
Pöhrə verməz budaq deyil,
Qəlb dolu köz-ocaq deyil,
Dünya məndən inciməsin.

Qəmin çəkib, aşırmışam,
Hövsələsin daşırmışam,
Halvasını bişirmişəm,
Dünya məndən inciməsin!

Zərəngiz, bəxtin saraymış?
Yolun, ünvanın haraymış?
Adı elə biçarəymiş?
Dünya məndən inciməsin!

23.12.2013.

## Nəsimi ömrü

Bir Nəsimi ömrü istəyirəm mən!
Soyalar dərimi lap diri-diri!
Ütülü sözləri uda bilmirəm!
Açıtsın dərimi qoy bıçaq yeri!

Qəmənin tiyəsi, baltanın ağzı,
Öldürməzdi məni, bəlkə bu qədər…
Riyakardı sözü, yaltaqdı üzü,
Pisin xoş sözü də açı, öd, zəhər!

İnsanlar siçovul xislətindədi!
Girirlər içimə göz-qulağımdan!
Hamısı da porsuq sifətindədi,
"Xeyir" də görürəm, lap alçağından!

Mənəvi cəlladlar alıb dünyanı,
Dünya hara gedir, belə görəsən?
Zahid fitvasıyla tökülür qanım,
Qoca Tanrı, özün nicat verəsən!

Hökmünlə, İlahi qoru bəndəni!
Yoxsa, yer-göy axıb, töküləcəkdir!
Meydanda aşırır bir gör kim-kimi?
Bu sözdə pəhləvan, adi böcəkdir?

Şərin qarşısında quldu ədalət!
Zalım tərifliənir, o imiş haqlı?
İblislər çoxalıb, qurur səltənət?
Pis meydan sulayır sirli-soraqlı?

Çəkilib səhnədən ağıl-mərifət,
Neyləyim, başını saxla, ey könül!
İnsan hər addımda çəkir xəcalət,
Elə bil, cəhənnəm küncündəyəm, bil!

Qaranlıq gecənin bir gündüzü var!
Açma hər yetənə sirrini, ürək,
Ulu Tanrı səni dardan qurtarar,
Arzun üzə gülər, açar gül-çiçək!

Dad-bidad eyləsəm zaman əlindən!
Zərəngiz, səsini dünya duymasın!
Məni yandıranın aman felindən,
Düşsün özü suya, güya duymasın!

19.10.2018-ci il

## Şeirim mənim

Mən bir qaya parçasıyam!–
Al baltanı, çap köksümü!
Sil adımı yer üzündən,
Soyumasa hirsin, hikkən

Yazıq insan,
sil əksimi göz önündən!
Mənim əksim ürəklərdə,
Fidanların dilədiyi diləklərdə,
Bənövşənin gözlərində,

Qaranquş sinəsindədir!
Haqqın silinməz üzündə,
Əsrin dolanbacındadır,
Şəlalələr saçındadır!

Qartal uçar qanadında
Nəbzim vurar!
Haqqa çatan ildırımda
Arzum yaşar!

Vulkan püskürən alovda
hisslərim var!
ölməzlərin sərhəddiyəm
Çəpərim var!

Şeirim yaşar, sözüm yaşar,
Ümidimdə dağ dözümü,
Dərya səbri…
Araz kimi qanım axar…

Paralanmış Azərəm mən,
Savalan tək ahım qalxar,
Duman-duman!
Yad əlindən, dad əlindən!

Aman! Aman!
Zaman-zaman
Odlanaram, bezərəm mən!
Paralanmış Azərəm mən!

Sönmüş vulkan-köksüm mənim,
Haça dilli, üç alovlu!
Kəpəz yanmış kösövümə
su çiləyər!

Göy göl mənə ayna tutar,
Parıldaşar ulduz-ulduz
əksim mənim!
Cahan tutmur kədərimi,

Torpağımın kədəri min,
Acısı min, ağrısı min!
Tapammıram, bəlkə elə
Çarəsi min, qədəri min!

Tək çarəmdi-əzmim mənim
Tək çarəmdi-dözümüm mənim!
Tək çarəmdi-sözüm mənim!
Gözlərimdə gülən eşqim,

Arzum mənim, sınma heç vaxt!
Eşqim mənim, şeirim mənim-
Haqq verən haqq!
Bəssən mənə!

Bunu bil ki,
Minillik nəfəssən mənə!
Arzum mənim, sınma heç vaxt!
Haqq verən haqq!!!

26.01.2016-cı il.

## Mizan-tərəzi

Qurulmuş mizan-tərəzi,
Dünyanın işi qərəzli,
Çox dərdlərə dözdüm,dözdüm,
Daha dözmərəm bu qəmə!

Güllərin açan vaxtıdır,
Dərbəndin hicran vaxtıdır,
Oruc, Ramazan vaxtıdır!
Mən tapınmışam qibləmə!

Təbrizin yolları çiçək,
Başında buluddan örpək,
Bir ömür azlıq edəcək,
Yayam bu dərdi aləmə!

Şəhriyardan gələn dərdi,
Şaqqa-şaqqa böləm dərdi,
Nə çoxdur dünyanın mərdi?
Son qoyulacaq sitəmə!

25.06.2013.

## Ay kimi nurlu qızım

Gözlərində dan gülən,
Sevdalı, bahar qızım!
Qəlbimdə bəslədiyim
Şirin arzular qızım!

Ay kimi nurlu qızım,
Sevimli Aynur balam!
Hüsnünə tay olanmaz,
Göydə ulduz, ay ,balam!

Ürəyimin sevgisi,
Qoy sənə həmdəm olsun,
Ata-anan sevinsin,
Həyatın gülşən olsun!

Nurlu, ziyalı qızım,
Ömrün cəlalı qızım,
Anasına bənzəyir,
Mənim həyalı qızım!

Baytaloğlu soyunun
Əvəzsiz çiçəyisən,
Sən Dəmirçi babanın,
Yadigar mələyisən!

Ana kimi qoynumda
Ay tək bəslədim səni,
Atan güldü, həyata
Elmə səslədi səni!

Doğrult baba ümidin,
Nənə arzularını!
Ata-anan sevinsin
Görüb xöş baharını!

Qoy adınla yurduna
Elm, ziya saçılsın!
Gözəl qızım önündə,
Nurlu yollar açılsın!

10.04.2015-ci il

## Göyçək Fatma

"Fatma bacım təndirdə,
əl-ayağı kəndirdə"
*(Azərbaycan xalq nağılı)*

Göyçək Fatma!
arzuların gül açsın,
Sən bir tərpən,
Sən bir oyna,
Yanaqların, dodaqların
Dil açsın!

Yaddaqalan bir nağılsan,
Hekayətsən, əfsanəsən,
Göydən düşən üç almasan,
Bal-şəkərsən,
Gül-şəkərsən,
Ya noğulsan?

Arzulara çatmaq üçün
Qoşmalısan, ay əzizim.
Lap həddini aşmalısan!
Söz deyəndə çaşmalısan...
Ya eləsi, ya beləsi,
Sərhəddləri yıxmalısan!

Üzünə qara yaxarlar,
Haqqına sahib çıxarlar,
Əl-ayağını kəndirləyib,
Özünü təndirə soxarlar,
Yanından atli keçərlər,
Göz yaşlarını içərlər,
Arzularını biçərlər...

Göyçək Fatma!
Getdi daha o müdriklər...
Gözlərindən ürəyini oxuyalar!
Qara yazılmış bəxtinə
Zərli buta toxuyalar!
Getdi daha o ərənlər,
Yoxdu onları görənlər...

İndi çoxdu, ağılsıza
Ağıllı, müdrik deyənlər,
Hünərsiz, ərdəmsiz, nacaq
Nə bilim, “zorbala yeyin”lər!
Yetimin haqqın yeyənlər...
Bilə-bilə yaxşıya pis,
Doğmaya yad...
ucuzu “baha” öyənlər...

Göyçək Fatma, yatma daha
Ölərsən sən,
Ayıq olsan, sayıq olsan,
Bir məkana ayaqyalın
gələrsənsə...
Aman günü bu gün inan,
Tale yaman, dünya yaman,
Yatma aman, yatma aman!
Dur, dur Allah amanında!!!

30.12.2014-cü il.

## Mənim Türkiyəm

Yollarında izim qaldı,
Dağlarında gözüm qaldı,
Ürəyimdə sözüm qaldı,
Mənim Türkiyəm, Türkiyəm!

İstanbulun bir tamaşa,
Gözün görə, ağlın çaşa!
Əsrlərlə yaşa-yaşa,
Mənim Türkiyəm, Türkiyəm!

Yalovada “Yürüyən köşk”,
Nə böyük qəlb, nə böyük eşq?
İndiyəcən bilməmişik,
Mənim Türkiyəm, Türkiyəm!

İnegölün bir möcüzə,
Ruhu köhnə, eşqi təzə,
Heyran oldum gəzə-gəzə,
Mənim Türkiyəm, Türkiyəm!

Əskişəhər ruhlar yurdu,
Xaqanlar xaniman qurdu,
Qalib məkan, qalib ordu,
Mənim Türkiyəm, Türkiyəm!

Konya xəyallar şəhəri,
Şəms Təbrizi cövhəri,
Mövlanə ərənlər piri,
Mənim Türkiyəm Türkiyəm!

Bursa-dədələr diyarı,
Osmanqazilər məzarı,
Uludağ tükənməz varı
Mənim Türkiyəm, Teürkiyəm!

Yolum düşdü yaylağına,
Ərənlərin oylağına,
Baş əyərəm torpağına,
Mənim Türkiyəm, Türkiyəm!

Türbələr diyarısan sən,
Könüllər vüqarısan sən,
Dahilərin  yarısan sən,
MənimTürkiyəm, Türkiyəm!

Sən dünyanın gövhərisən,
Sabahların ülkərisən,
Pərvanələr diyarısan,
MənimTürkiyəm, Türkiyəm!

Əşrəfisən göyün, yerin,
Dəryaların dərin-dərin,
Camalına səd afərin,
Mənim Türkiyəm, Türkiyəm!

Uludağdan əsər külək,
Lalə təpə çiçək-çiçək,
Göy qurşağın, yeddi bəzək,
Mənim Türkiyəm, Türkiyəm!

Atatürk yadigarısan
İnsanlığın baharısan,
Cümlə türkün vüqarısan!
Mənim Türkiyəm, Türkiyəm!

Yaşatdın ədəb-ərkanı,
Hər bucağın gül məkanı,
Dağların qaynadır qanı,
Mənim Türkiyəm, Türkiyəm!

Necə  dərya, neçə boğaz,
Hər nə tərif söyləsəm az,
Zərəngiz vəsfindən doymaz,
Mənim Türkiyəm, Türkiyəm!

*Bakı-İstanbul-Yalova-İnegöl-*
*Eskişehir-Konya-Bursa*
21-26 aprel 2017.

## Bənövşə gözlüm

*(Həsrət yaşı hey süzülür gözümdən,*
*Qaranquşum, nərgiz gətir Vətəndən!)*
Rəsmiyə Babayeva

Nərgizlər həsrətlə yollara çıxır,
Bənövşə gözünün yaşını sıxır,
Lalələr ağlayır, yaxasın çırır,
Ay Rəsmiyə balam, ay şirin sözlüm!
Qayıt, gəl, Vətənə, bənövşə gözlüm!

Biz ana-balayiq, dogma bacıyıq,
Aylar həsrətlisi, günlər acıyıq,
Vətənə xədmətdə başlar tacıyıq,
Belədir mayamız, budur özülüm,
Qayıt, gəl, Vətənə, bənövşə gözlüm!

Müddət çoxalanda, gözüm qaraldı,
Qəlbimi yüz qayğı, yüz qorxu aldı,
Səni sağ olasan, bu nə sualdı?
Bilsən, Aynur bacın necə üzülür?
Qayıt, gəl, Vətənə, bənövşə gözlüm!

İnan ki, heç rahat ola bilmirəm,
Hərdən darıxıram, hərdən gülürəm,
Mən qədirşünasam, qədrin bilirəm,
İsmətlim, həyalım, utancaq üzlüm,
Qayıt, gəl, Vətənə, bənövşə gözlüm!

Zərəngiz günləri sayar, qayıt gəl,
Qədəmin göz üstə qoyar, qayıt gəl,
Malını dosta peşt qıyar, qayıt gəl,
Qiymətlim, əzizim, göyçəyim, nazlım,
Qayıt, gəl,a Vətənə, bənövşə gözlüm!

27.06.2018-ci il

## Cümhuriyyət

Göy üzünə al qanımla yazdığım,
Şəhidliyimin ünvanı–Cümhuriyyət!
Ana südü, Ata öyüdü kimi,
Millətimin ruhu, qanı–Cümhuriyyət!

Dilbər yurdum, Qarabağım dardadı,
Hissim, duyğum varlığımla ordadı,
Viran qalan torpağımın fəryadı,
Babaların ah–amanı–Cümhuriyyət!

Torpağımda qan gölünə baxın siz,
İgidlərim, at belinə qalxın siz!
Nə çay, nə göl, nə çəməndi, nə dəniz,
Murov, Şah dağlar məkanı–Cümhuriyyət!

Koroğludu, Xətaidi yaşlaşan,
Zirvə olan, qayalarda daşlaşan,
Bir gün qalxıb haqq yolunda savaşan,
İgidliyimin fərmanı–Cümhuriyyət!

Bir ümmansan, elə sanma azmısan?
Sən adımı tarixlərə yazmısan!
Ürəklərdə məhəbbəti qazmısan!
Arazboyu, Xəzəryanı–Cümhuriyyət!

Dünya baxdı, sən ucaldan Bayrağa!
Ellər müştaq, sən qurduğun növrağa!
Hun ellərim, Qafqazlarım sadağa!
Türklüyümün eşqi, canı–Cümhuriyyət!

Yüz illəri, min iləri aşarsan!
İnsanlığın zirvəsində yaşarsan,
Sən ömürlük qələbəyə qoşarsan,
Zəfərlərimin sultanı–Cümhuriyyət!

Həsrətimin Dərbəndi, Təbrizi var,
Nisgilimin Göyçə, Cıdır düzü var,
Sorağında Məmməd Əmin özü var,
Ulu xalqın şərəf–şanı Cümhuriyyət!

Millətimin zəfər tacı sən oldun!
Şəhidlərimin meracı sən oldun!
Zərəngizin də əlacı sən oldun!
Tanrı eşqi, haqq məqamı–Cümhuriyyət!

15.02.2018–ci il.

## Arzum üzümə gülsün

Rəbbim eşitsin məni!
Diləyim qəbul olsun!
Yaman imtahan verib,
Çiçəyim qəbul olsun!

Arzum üzümə gülsün,
Qədrimi elim bilsin,
Balalarım sevinsin,
İstəyim qəbul olsun!

Bu Qurban bayramında,
Aynur,  Ülkər yanımda,
İbrahim amanında,
Mələyim qəbul osun!

Abutelə- kamım var,
Ruhum var, ilhamım var!
Tanrıma gümanım var!
Nə deyim qəbul olsun!

Zərəngiz, Haqqı çağır,
Haqq sözü Haqqa bağır,
Arzu, istəklə yoğur,
Hər şeyim qəbul olsun!

21.08.2018-ci il

## Adı gözəl Banu

*(Gözəl nəvəm, ömrümün bəzəyi Banuya)*

Gülüm, çiçəyim, Banu!
Canim ürəyim, Banu!
Sən böyü, fəxr eləyim,
Qürur mələyim, Banu!

Arzumun baharısan,
Ömrümün nübarısan,
Gözərim aydın olsun!
Həyatından yarı, sən!

Ayım, ulduzum nəvəm,
Qızılım, qızım nəvəm,
Səni tərif eyləsin,
Qələmim, sözüm, nəvəm!

Diləklərim gül açsın,
Körpə balam dil açsın,
Mən də alqış eyləyim,
Tanrım nurlu yol açsın!

Köksümdə ürək, Banum!
Yurduma bəzək, Banum!
Xeyirli bir övlad ol,
Baxaq, sevinək, Banum!

Göydən gələn payımsan,
Ulduzumsan, ayımsan!
Dərya, ümman agıllım,
Səsim, ünüm, hayımsan!

22.05.2019

## Qızımın toy günüdür

*(Qızım Ülkərə)*

Qızımın toy günüdür!
Qəlbimin hay günüdür!
Evimdə  düyünündür!
Ömrümün barı, qızım!
Yarınla yarı, qızım!

Tüllərə bürünürsən,
Mələk tək görünürsən!
İçi, çölü də nursan!
Telləri sarı qızım!
Yarınla yarı, qızm!

Güllərin qucaq-qucaq,
Xeyir qapılar açaq,
Qəm-kədər olsun uzaq,
Yasat ilqarı qızım!
Yarınla yarı, qızım!

Bilərziklər qolunda,
Günəs yansın yolunda,
Körpələr sağ-solunda!
Get, qosa qarı, qızım!
Yarıla yarı, qızım!

Göyün hurisi sənsən,
Yerin pərisi sənsən,
Canım yarısı sənsən!
Könlümün barı, qızım!
Yarınla yarı, qızım!

Ceyran gözlü qızımsan,
Baharımsan, yazımsan,
Bir Ülkər ulduzumsan!
Nurunu qoru, qızım!
Yarınla yarı, qızım!

Həmişə var ol, qızım!
Yaz ol, bahar ol, qızım!
Yarına yar ol, qızım!
Ömrüm vüqarı qızım!
Yarınla yarı, qızım!

## Salam Günəş

*(Nurəngiz Günə ithaf)*

Salam, yarpaq!
Salam, budaq!
Gəldim, çatdım,
Anam torpaq!

Qırçın sular,
Uca çinar,
Nəğmə deyən,
Cüt qumrular!

Zümrüd çəmən,
Həmən, həmən
Oxu, bülbül,
Bu sən, bu mən!
Varam bu gün,
Yaram düyün,
İstəyirəm,
Üzüm gülsün!

Bahar çağı,
Haqq qonağı,
Dalğalansın,
Sülh bayrağı!

Doğan Günəş,
Yanan atəş,
Türk oğlu, türk,
Birləş, birləş!

Hürr olaq biz,
Sirr olaq biz,
Qələbəyçün,
Bir olaq biz!

27.08.2016.

## Özün eşit

Dünya özü isti qucaq kimidir,
Tanrım, həyat axar bulaq kimidir!
Duamı tək özün eşit, ya Rəbbim!
Mələklər yerlərdən uzaq kimidir...

Min illik nazını çəkdim dünyanın,
Köksündə gülüstan əkdim dünyanın,
Tarlasına qan-yaş tökdüm dünyanın,
Bəhrəsiz, boş, dəmyə torpaq kimidir!

Anamdan ayrıldım, oda qalandım,
Alışıb, özgələr oduna yandım,
Vəfasız dünyanı mən doğma sandım,
Yadın sevgisi də yamaq kimidir!

Heç bir yerdə işim asan olmadı,
Sonsuz cəfa çəkdim, səbrim dolmadı,
Bir olan Tanrımın yenilməz adı,
Arxamda əbədi dayaq kimidir!

Zərəngiz, neyləsən ürəklə eylə,
Yaxşının dalınca yaxşını söylə...
Odun tək alışma, yalana, feylə,
Yamanlıq gülşəndə alaq kimidir.

02.05.2018-ci il.

## Öz şəklini çəkən qadın

*Qucağında qızılgüllər-şairlər bənövşə ölür*
*( Ədalət Əsgəroğlu)*

Söz şəklini çəkən qadın,
Öz şəklini çəkən qadın-
Gözləri nərgiz-nərgiz baxar...
Tanrısına uzanılı qələm-qələm,
qərənfil barmaqlar,
arzusu bənövşə boynu,
Fikri qırıq-qırıq,
qırçın-qırçın
yasəmən çiçəyinin topası,
duyğuları nilufər, zanbaq butası,
niyyəti pak, təmiz, saf
xıncım-xıncım su...
nəymiş bu fələyin oyunu?
Qəribin doğması olmazmış,
Yadlar edər toyunu...

Öz şəklini çəkən qadın,
Fırçası göy qurşağı,
Hər iki dünyası halələr,
Nəfəsi hürkmüş reyhan, süsənbər
boynuna gözündənmi

düzülmüş jalələr?
qəlbinin bir güllü həsrəti
zümrüd yamacın yaz örpəyi
süsən, qantəpər, qaymaqçiçəyi...
Çeşmə başında xəyallanıb
ödünü udmuş lilpar,
Bir də...
yuxusunda köksünə yığıb,
oxşadığı al qırmızı lalələr!

## Gözlərim ağlar

*(Rəfiqəm Lalə Abaszadəyə təskinlik)*

Ana, dərdin dağdan ağır,
Ana, gözümdə yaş oldun!
Sən dünyadan köçən günü,
Ürəyimdə atəş oldun!

Qəlbim yanar, ana, sənsiz!
Gözlərim ağlar, dada gəl!
Qıyaram bu cana sənsiz,
Ah, nalımə, fəryada gəl!

Dünyada ən ağır acı,
Anasızlıq imiş demə!
Yoxluğuna dözəmmirəm,
Qayıt ocağıma yenə!

Nəvələrin çəkir qəmi,
Məzarına baxır sənsiz!
Ağırdı ayrılıq dəmi,
Yollarına çıxır sənsiz

16.12.2018

## Başımın üstdən

Göy gəldi boşaldı başımın üstdən,
Karvanlar yeridi yaşımın üstdən,
Qərinələr mənə əl elədilər,
Dolandı əsrlər tuşumun üstdən!

Durna qatarında nəzərim qaldı,
Lalə tək bağrımda kədərim qaldı,
Elə möhürləndi dilim, ağızım,
Lal qayaya, daşa bənzərim qaldı!

Bir ömür istədim, min cəfa verdin,
Namərdə gün verdin, zövq, səfa verdin,
Canım fəda sənə, ərənlər Piri,
Namərdlə savaşda hünərim qaldı!

Hayıf, yüyürmədim, yetmədim, nahaqq!
Qocalı, uşaqlı yandırıldı xalq!
Elə gələn dərdi olmur saxlamaq,
Odların içində çəpərim qaldı!

Zərəngiz, bir dedin, bir də söyləmə,
Heç gedən yolçunu yoldan eyləmə,
Məni unudubdur Allahım, demə!
Mövlamdan qurulmuş sipərim qaldı!

13.01.2010

## Bilmirəm

Dərd məni öldürdü, Yarəbb,
Dərdi öldürə bilmirəm!
Qəmdən usandı bu könlüm,
Onu güldürə bilmirəm!

Nurda da kədər varıymış?
Bir yazı-qədər varıymış?
Pünhan ölçülər varıymış?
Aşkar bildirə bilmirəm?

Güldən şirə çəkər arı,
İncitmərəm dostu, yarı,
Olmuşu, olacaqları,
Pozub, sildirə bilmirəm?

Ömür amanatdı, Tanrı,
Çox sirrli həyatdı, Tanrı,
Dünya nə büsatdı, Tanrı?
Qəfil dindirə bilmirəm?

Yerin boyuna, eninə,
Mürğu-ruh düşər dəninə,
Nə vermisən bu könlümə,
Göydən endirə bilmirəm?

Zərəngiz, bu dünya naşı,
Sirr qazanı, əcəl aşı,
Yamadı qəzil qumaşı
İpək kəndirə, bilmirəm?

## Yaman, dünya

Gedən gedib, gələn yoxdu…
Soran, duyan, bilən yoxdu?
Dərdlərimi bölən yoxdu,
Yaman dünya, yaman, dünya!

Yeri doyurar su ilə,
İnsanları yuxu ilə,
Dərdləşmirəm çoxu ilə,
Yaman dünya, yaman dünya!

Pünhan qapı açar özü,
Aqil özü, naçar özü?
Betər dərdə düçar özü,
Yaman dünya, yaman dünya!

Dağları duman, çən olur,
Yamacları gülşən olur,
Qanlı torpaq Vətən olur!
Yaman dünya, yaman dünya!

Mən özüm Tanrı quluyam,
Haqqa gedən, haq yoluyam,
Piranələrin piriyəm,
Yaman dünya, yaman dünya!

Ürəyim tədbirin qanar,
Günəşdən əvvəl oyanar,
Qovğana öküz dayanar?
Yaman dünya, yaman dünya!

Oxun üstə fırlanırsan,
Rəngdən-rəngə boyanırsan,
Zərəngiz tək sən yanırsan?
Yaman dünya, yaman dünya?!

06.04.2017

## Bu dünyanın eybi

*(2 yaşlı körpə Zəhraya)*

Bu dünyaya yön çevirib,
Torpağımı "öpə-öpə",
Zərif çiçək kimi soldu,
Düşdü arxa üstə körpə!

Vətən-nəğmə idi ona,
Vətən-arzu idi ona,
Vətən-Tanrı idi ona
Tanrısına dönən körpə!

Biçildimi sağı-solu?
Qaraldımı ömür yolu?
Göy üzndən mələk kimi
Qol üstünə enən körpə?

Güllü donun geyməyəcək,
Gün üzünü görməyəcək,
Bülbül kimi ötməyəcək,
Qum kimi ələnən körpə!

Nədir "suçlu"nun günahı?
Nəymiş dünyanın mətahı?
Kimmiş yer üzünün "Şah"ı?
Şərq borcludur, yoxsa, Qərbə?!

Bəşəriyyət öldü bütün–
Zalım, taxtın çökdü o gün!
Ey bu körpənin Tanrısı!!!
Ən son buta–Sənin hökmün!

## Müəmma

Həyat-oyun, əyləncə,
Bir nağıldı deyirlər.
Bir ananın arxası-
Qız, oğuldu deyirlər.

Bir ağacdan düzəlib,
Bel, kürək də deyirlər,
Bir çəməndə bitibdi,
Kol, çiçək də deyirlər!

Bir ürəkdə sevgi də,
Kin də yuva qurarmış,
Təbiətin özündə,
Neçə müəmma varmış?

## Gəldi

Mənim bu başıma gələnlər ki, var?
Ürəyi yumşaqlıq üzündən gəldi!
Hamının dərdini dərdim sandım mən,
Allahımın rəhmi, azından gəldi!

Yadların yolunda qurban olmuşam,
Ağlayıb-sıtqayıb, qəmə dolmuşam,
Özgənin dərdinə gül tək solmuşam,
Bir dərdim, bir kəsin vecindən gəldi?

Mənə pis olana yaxşı olmuşam,
Bütün insanların naxşı olmuşam!
Qızıldım, polatdım, saxsı olmuşam,
Ürəyim dərd yığdı, suçumdan gəldi?!

Göynədim özgənin acı gününə,
Əmi, dayı, qardaş, bacı gününə,
Namərdin, nakəsin öcü yerinə,
Bir qisas əlimin içindən gəldi?

Acı ha doyurdum, yenə ac oldu,
Pisə yaxşı dedim, sonu puç oldu,
Ürəyi təmizlik mənə suç oldu?
Tənəsi, zərbəsi gecindən gəldi!?

Zərəngiz, az ağla, azca dərdə qal,
Yurdu abad eylə, laləzarda qal,
Həmişə yaxşı ol, yaxşı yerdə qal,
Şükür, Mövlam verdi, gecindən gəldi!

30.04.2019-cu il.

## Olmayıb

Yüz dəfə ağlayıb, qəmə batmışam,
Mənim bir dərdimi bilən olmayıb!
Hamıdan tez durub, gec də yatmışam,
Bircə yol adımı anan olmayıb.

Dərdə tuş gələni ovutmuşam mən,
Qüssəni, kədəri unutmuşam mən,
Tanrı dərgahına üz tutmuşam mən,
Ondan başqasına güman olmayıb!

Əzəldən ürəyi təmiz olmuşam,
Bulanmaz dəryayam, dəniz olmuşam,
Atama, anama əziz  olmuşam,
Yolumda onlar tək yanan olmayıb!
Nə dilək diləsəm,verər Allahım,
Qəlbimi, könlümü görər Allahım,
Ömür, tale, yazı, qədər Allahın,
Hələ ki, bunları danan olmayıb!

Canımı Tanrıma fəda demişəm,
Pərvanə tək yandım oda demişəm,
Zərəngiz, düşmənə toba demişəm!
Məni tək atəşə yanan olmayıb!

30.04.2019-cu il.

## Bayraqdarım

Məndən ötdü, sənə dəydi,
Havadarım harda qaldın?
Vətən, qalib olmalıydın?
Bayraqdarım, harda qaldı?

Göylərdənmi qarğış gəldi?
Qəvi-düşmənə tuş gəldi?
Qarabağa sət qış gəldi,
Xoş baharım harda qaldın?

Bu dərdlərə dözmək çətin!
Məqlub olub, gəzmək çətin!
Ey ulu, qutsal millətim,
Vəfadarım, harda qaldın?

Qan içində üzən ürək,
Özünə dərd gəzən ürək,
Al-qırmızı bəzən ürək,
Arzularım, harda qaldın?

Canın qala, təbim səngər,
Fikirlərim birər əsgər,
Ölmüşdüksə, bizlər əgər?
Bəs məzarım harda qaldı?

Torpaqdan pay, bəxşiş olmaz!
Qalmaz dünya, belə qalnaz!
Açılan gül vaxtsız solmaz!
Ruzigarım, harda qaldın?

Yurdumuz qana çalxandı!
Dağım, düzüm, elim yandı!
Yurdumuz qana çalxandı!
İgidlərim,hardaqaldın?

Biri torpağımı satdı,
Biri yaramı qopartdı,
Zərəngiz, qübarın artdı,
Xilaskarım, harda qaldın?

13.06.2012

## Ya Allah...

Uşaqlıq dünyamdan
əbədi bir səs,
Gəlir qulağıma,
doğma, müqəddəs–
Ya Allah!

Toy səsi, nağara,
Zurna, balaban,
Yallı gedən gənclər,
Çıxmaz yadımdan.
Bir at kişnərtisi,
Bir quzu səsi,
Posoy, Qaşqa inək,
Bulama kökəsi.
Gülərdi evmizin,
Çörək təknəsi!
Təndir, motal, qaymaq,
nehrə yaxması,
Ayran, nərgizli dovğa
Beçənin balı,
Gəzər çəmənləri
Şair xəyalım!
Sıxlaşar başımda
Pənbə buludlar,

Həzin bahar yeli,
Ayın çıxması,
Yadıma düşübdür
Yazda su səsi.
Sirli sükut olur,
Bulaq başında.
Anadil dil deyir,
Hey yaddaşımda!
Bağçada bülbülün
cüt-cüt ötməsi!
Gözəl göyərçinlər,
Yanda fərəsi,
Anamın yaz kimi
İlıq nəfəsi.
Mayın ortasında
Gülər bağça-bağ,
Sarı qaymaqçiçəyi,
Yasəmən, zambağ.
Bir də al rəngində
Şux qızılgüllər!
Bağın ortasında,
Əkin yerində,
Gözümü oxşayan
Qızıl lalələr.
Axşam da, səhər də

Quzular mələr.
İnəklər örüşdən geri dönəndə
Balası qaçaraq yanına gələr.
Oturar sağına
Xanım analar.
Evdən qulağıma
Xoş səslər gələr–
Ya Allah!

Şirin yuxularım
qarışır hərdən,
Qaragöz bir uşaq
dikəlib yerdən,
Doğma atasında
neçə min kərə,
Fərəhdən alışan
gözə minnətdar,
Sifətini qarsan,
Həyəcan dolu,
Qulağını oxşar,
Sözə minnətdar–
Ya Allah!

Beş kişi bir yükü
Qaldıran yerdə,
On kişi bir özül

tökmək istəsə,
Taxıl səpiləndə,
Ot biçiləndə,
Elin bayramında,
Elin toyunda,
Evmizə bir ağır
Qonaq gələndə,
İlk dəfə deyilən
Çağırış, kəlmə–
Ya Allah!

Belini bərk çəkib,
Qıvraq bir qarı,
Üzündə haqq nuru,
Gözündə qayğı,
Sönsuz həvəs ilə
işə başladı,
Duz qatdı, su qatdı,
Unun gözünə,
Uşaq fikir verdi
İlkin sözünə–
Ya Allah!

Sac qoydu ocağa
Gülgəz bir gəlin,
Səliqə, səhmanı,

Nizam düzgüsü,
Həsədi bir elin,
Fəxri bir elin,
Endirdi ocağa
Sacı ehmalca,
Fəsəli yayıldı,
Bişdi, güllləndi,
Nazik dodaqları
Tərpəndi, dindi,
Qaragöz uşağın
qəlbi sevindi-
Ya Allah!

Əmim qonaq gəldi
Gəncədən bizə,
Bağmızda lalələr
Çıxmışdır dizə,
Anam gülə-gülə,
Çay süzə-süzə,
Yazdığım şeiri
Oxutdu mənə,
Qonşular tökülüb
Gəlmişdir yenə,
Atam sazda çalar,
Qoşmalar deyər,

Yaxınlar uzaqlar
Bizə gəldilər,
İndi sanki bunlar
Nağıl, əfsanə!
Etməzdik qalmaqal,
Etməzdik günah,
Hər işin əvvəli,
Hər vaxt- ya Allah!

Zövqü, eşqi olan,
Dünyası dərin,
Gözləri nur, çeşmə,
Sözləri sərin,
Bir ədib, bir qələm
Aldı əlinə,
Gözümün önündə,
Mən eşidəni
İlkin bu söz
Gəldi onun dilinə!-
Ya Allah!

Götürüb beynimdə, ürəyimdəki
Bir iki kəlməni yazsam kağıza,
Kağız da dolacaq,
göz də dolacaq,
Hər sözüm-bir tarix,

Yadda qalacaq!
Bilirəm, ilk sözüm
bu söz olacaq_
Ya Allah!

## Bir yaşıl yarpaq…

Bir yaşıl yarpaq,
həyatdı mənə!
Bir zərif çiçək,
ümiddir mənə!
Bir xoş təbəssüm.
nəfəsdir mənə.
Ömür verdin mənə,
əvəzsiz Tanrım!
Eşqlə dolu bir qəlb,
bu bəsdir mənə!

## Həzin nəğmə

Bir icim su qaynayır,
Düyanın qazanında...
Ya daşa, ya daşmaya,
Qədəri yazanında.

Bir həzin nəğmə gələr,
Uzaqdan qulağıma,
Yaşaram ömrüm qədər,
Bağlanıb ocağıma!

Yaxşım var, yamanım var,
Dilimdə amanım var–
Dağılmaz mənim dünyam,
Tanrıma gümanım var.

## Bir deyim

Bir deyim içimdən tərpədir məni,
Bir deyim icimdə titrədir məni.
Bir ağrı içimdə göynədir məni...

Dühalar bomba yaratmayaydı, kaş!
Tüstülər Tanrıya çatmayaydı, kaş!

## Salam, XXI əsr

XXI əsri gördüm–
İnanarlar, inanmazlar...
Mən bu hissi yaşamışam!
Bircə anın içində
Bir əsrlik dərd–sərimi,
Hisslərimi, qəm yükümü,
Bir əsrdən bir əsrə daşımışam!

Mən bu hissi yaşamışam!
Bir göz qırpımı anında!
Unuda bilmədiklərimi,
Ümidimi, ilhamımı, səhərimi...
Bir əsrdən bir əsrə aşımışam,
Mən bu hissi yaşamışam!

Salam, XXI əsr
Şükür ki, gördüm bu günü!
Ağrılı, acılı da olsa,
Geriyə qalan, sevimli, sevincli
Günlərimlə qoşaymışam?
Mən bu hissi yaşamışam!
Görməliymişəm XXI əsrimi...

Bir əsrdir ki,
Nigarandı, narahatdı, darıxır,
İnsanlar bu əsri görməyə!
Mən gördüm...
Dəyər bu müjdəyə!
Daha tələsmirəm-
Görəsən, XXII əsrə
Nə qaldı deyə???
Salam XXI əsr!
Salam XXI əsr...
Bu mənə,
Tanrıdan hədiyyə!

13.04.2008-ci il.

## Şəki

Şəki yaşıl donlu gəlinə bənzər!
Buludsuz səması süd tək dümağdı!
Dörd yanda səf çəkib boylu çinarlar,
Arxası zirvədi, səngərdi, dağdı!

Güllü atlaz geyib əyninə sanki,
Başında qar kimi çalması bəyaz,
Köksünü bəzəyib lalələr, güllər,
Ömür bağçasının çiçəyi solmaz!

Qədim tikililər, sirli məkanlar,
Ruhunda əskilik, qədimilik var,
Bir yanında qısdı, susub təbiət,
Bir yanı qaynayır, dil açıb bahar!

Mənə sözünmü var, söhbətinmi var?
Sirli, cazibəli, ey qədim diyar!
Fətəli qaşını qaldırdı, bilsən?
Saz ilə, söz ilə dindi Bəxtiyar!

Sanki ilğım gəldi, göydən üstümə?
Həqiqi cənnətə düşmüşəm, nədir?
Şəki bənzəyirdi gözəl gəlinə,
Tarix təkrar olur, bu möcüzədir!

2015.

## Tapşırma

*(Bizə "əlvida" deyə bilməyən həyat yoldaşım)*

Ömür-gün vərəqlənən sarı xəzəl yarpağı,
Əvvəl-axır, bir gün var, qucub ana torpağı,
Gedəcəyik dünyadan, hər şey qəlibə dolur,
Biz köçürük dünyada, yaxşı-yaman ad qalır!

Əzizlərim, ömrümü-günümü ağlamayın!
Qan-yaş töküb beləcə, qəlbimi dağlamayın!
Mən getdiyim yolları göz yaşımla yumuşam,
Halallığı, saflığı sizə miras qoymuşam!

Alın tərimlə aldım qazancımı dünyadan!
Heç bir iş görmədi də, söyləməsin bir nadan!
Neçə savab qazanıb, sizlər üçün qoymuşam,
Əbədi haqq məkanda rahatca uyumuşam!

Baytaloğlu deyirlər, nəslin fəxri adıyam!
Köməksizlər piriyəm, yoxsullar imdadıyam!
Balamı ruhum mənim hifz eyləsin xətadan!
Bildiyimi öyrətdim, ustadlar ustadıyam!

Ailəmi gözüm tək qorumuşam hər zaman!
Əjdahanın üstünə yerimişəm, hər zaman!
Adım-sanım, hörmətim, bir qatar dəvə çəkməz!
Bu dünyada yurdum var, o dünyada son yuvam!

Yurduma yurdçu balam, ruhum sənə duaçı!
Tanrı yolundan sapma, bu uğurun əlacı!
Anan kimi sev hər an, doğmandı doğma bacı,
Anan olsun hələlik, qoy, başınızın tacı!

19.05.2020-ci il.

## Körpə Məhəmmədə

*(Avto qəzada həyatını itirən körpə qonşum Məhəmmədə)*

Fələk mənə bəxti qara yazıbdı!
Ana, ahın bu dağlara, gedirəm!
Təzə tutan qönçə idim, açmadım!
Xəzan əsdi, düşdüm xara, gedirəm!

Zalım fələk yaman oyun oynadı!
Qızıl qanım sel-sel oldu qaynadı!
Nakam canım bu həyatdan doymadı!
Ömrüm düşdü boran-qara gedirəm!

Xəzan vurdu, gülüstanım kül oldu!
Anam, ağlamaqdan anadil oldun!
Nənəm qüssə çəkdi, solan gül oldu!
Atam, bacım düşdü dara, gedirəm!

Anasına:

Həsrətdən alışıb-yandım, ay ana!
Kaş ki, əlim sənə çata biləydi,
Ağlar gözlərinin yaşını silib,
Qoynuna sığınıb, yata biləydim!

Gələrəm yuxuna, gözlə, can ana!
Çox da ürəyini üzmə, can ana!
Nənəmin, atamın, qohum-qardaşın,
Yandırma qəlbini sözlə, can ana!

Allah ömrü belə yazdı, neyləyim?
Yüz dəfə can desəm azdı, neyləyim?
Səni ağlar qoyub bu zalım fələk!
Fəryadına necə dözdü, neyləyim?

20.02.2019-cu il.

## Zəfər torpağı

*(Biz qalib olacağıq deyə əlini masaya vuran əzizim Mələk xanım)*

Əsgərim səsini, sədanı aldı?
Qələbə bayrağım göyə ucaldı!
Min illik qürurum, özümə gəldi!
Yenə qalib oldu ərlər torpağı!
Qələbə torpağı, zəfər torpağı!

Babəkimin ruhu sevindi, şükür!
Poladım yenə al geyindi, şükür!
Keçmişim özüməmi döndü, şükür!
Yenə qalib oldu ərlər torpağı!
Qələbə torpağı, zəfər torpağı!

Sabaha gedirik, min bir diləklə!
Bacım, hər arzunu sən gətir dilə!
Göyçə də mənimdi, Dərbənd də söylə!
Yenə qalib olsun, ərlər torpağı!
Qələbə torpağı, zəfər torpağı!

08.11.2020-ci il.

# BALALAR ÜÇÜN

## *(Fəxrimiz sərvətimiz olan uşaqlar üçün)*

### Ailəm mənim

Bir ağac, ağacın altı budağı
Bir oba, obanın altı ocağı,
Bir ata, atanın altı qucağı,
Ailəm mənim!

Birinin qolunda Tanrı qüvvəsi,
Birinin səsində Davud nəfəsi,
Birinin telləri durna ciqqəsi,
Ailəm mənim!

Birinin əlində kitab-qələmi,
Birinin Xızr tək necə aləmi,
Biri ağzımızın ləzzəti-təmi,
Ailəm mənim!

Bir sona, mələkdi anam, ay Allah!
İncə, saf ürəkdi atam, ay Allah!
Mənə bəxş etdiyin butam, ay Allah!
Ailəm mənim!

Məni bu cahana, elə bəxş edən,
Kəlməyə bəxş edən, dilə bəxş edən,
Ümana, gurşada, selə bəxş edən,
Ailəm mənim!

02.10.2015

## Qızım Aynura

Ay nurundan doğan qızım,
Sən ömrümün nuru oldun!
Zaman məni sındırdıqca,
Mərd, dözümlü, diri oldun!

Ana oldun sən anana,
Dünya gülsün qoy üzünə!
Gülər gözlüm, ömür barım,
Şəfəq saldın gündüzümə!

Qaranlığı aydınlatdın,
Ay ömrümün ay nuru, sən!
Ömrümdən küsən bəxtimin,
Haqq vergisi–Aynurusan!

Nağıllarla, masallarla,
Böyütdükcə səni anan,
Nə bilirdim bir zamanlar,
Dərdə məlhəm olacaqsan?!

Kimsəsiz, tənha könlümün,
Hicranı var, yarası var!
Şükr sənə, ulu Tanrım,
Dərdlərimin çarası var!

Mən olmasam, gözəl qızım,
Sən kömək ol qardaşına!
Beli dərddən əyilməsin,
De ki, doğma, sirdşınam!

Hər zaman ona arxa ol,
Qoyma sına yad yanında!
Öz əlinlə min bəzək vur,
Bülbül ötsün eyvanında!

Qayğısız qalsa, bacın da,
Qoyma axa, göz yaşını!
Bir olun, birlikdə olun,
Çağır doğma qardaşını!

Doğmalar yad ola bilməz!
Doğmalıq candan gəlibdir!
İnsanlıq, rəhm, ədalət,
İnsana qandan gəlibdir!

Qoru, öz doğmanı, qızım!
O sənə yad ola bilməz!
Yad yağlı aşa mehmandı,
Ağzında dad ola bilməz!

Qoru adını gözün tək,
Namus, qeyrət gərəyindir!
Dünya malı gəldi-gedər,
Gözütoxluq bəzəyindir!

Övladısan bu Vətənin,
Vətəninə xor baxma sən!
Vətənini sevmədinsə,
Övladını sevənməzsən!

Vətən haqqı -ana haqqı!
Vətən haqqı-ata haqqı!
Vətəni sevməyən yerdə,
Əcdadını sevənməzsən!

Saxla mənim öyüdümü,
Yaddaşında gözəl qızım,
Sən qədirşünas olduqca,
Güləcəkdir mənim arzum!

Demə anam nə qoymuşdu,
Ömründən mənə yaigar?
Bir insana həyat verər,
Bu yazdığım sözlər ki, var!

Qaya kimi sərt doğuldum,
İpək kimi dözümlüyəm!
Tanrım qızıldan yoğurdu,
Təbim-tacım, zər sözlüyəm!

Qayalı nəslin qalası,
Canım, günəş gözlüm mənim!
Zərəngizin nur balası,
Aynurum, ay üzlüm mənim!

13.03.2013

## Ülkərə

Yanan ocaq kimi,
axan su kimi,
Yoluna uğurlar
dilərəm, qızım!

Qəlbinə dolaram
bir arzu kimi,
Arzuna gələrəm,
gələrəm, qızım!

Yolunu uğurlu,
adını fəxrli,
Ruhunu sirli,
Həyatini dürlü
elərəm, qızım!

Həyat çarpışma,
həyat sevgidi,
Yoluna sevgilər
ələrəm, qızım!

Sən məni hər zaman
yanında bil ki,
Ömrünə nəğmələr
çilərəm, qızım!
Qəlbini fərah tut,

Arzunda sabah tut,
Açılmış gül kimi,
Çiynində silah tut,
Qədrini bilərəm, qızım!

Get yoluna uğur,
Yaşa hər an məğrur,
Tək Tanrını çağır!
Ya kərəm, qızım!

13.03.2015

## Sevimli balalar

Hamıdan gözəl Aynur,
İş görməkdən yorulmur.
Tənbəllik etmir əsla,
Dərslərini oxuyur.

Ülkər məktəbə gedir,
Özünə diqqət edir.
Bayram günü sevinir,
Çünki, gəzməklə bitir!
Gülü sevir Abutel,
Güldür özü elə bil!
Oxumağı sevir o,

Əlaçıdır İbrahim,
Sevir onu müəllim,
Dərsini hazır edir,
Sonra gəzməyə gedir.

Əlaçı, gözəl Mələk,
Hamını öyrədəcək,
Karate, sambo, uşu,
Öhdəsindən gələcək!

Şirindir İslam oğlan,
Heç dayanmır bircə an,
Alabaşla oynayır,
Ana onu qınayır.

Yaxşı oxuyur Vəli
Xoşdur işi, əməli.
Yolkanı da bəzəyir,
Hər işə deyir bəli!

## Ülkərə

Ülkər məktəbə gedir,
Özünə diqqət edir
Tez-tez güzgüyə baxır,
Telinə çiçək taxır.
Fikir verir özünə,
Diqqət edir sözünə.
Tarixə marağı var,
Çox oxumaq istəyir,
Ən əsas dərsim mənim,
Elə tarixdir deyir.
Böyümüşəm
Aynur deyir, “Anacan,
Bir söz deyim sən inan,
Boyum uzun olubdur,
İndi gəlinciyimdən!”

## Cücənin nəğməsi

Sarı-lümək cücəyəm,
Körpə, sarıköynəyəm,
Su içib, dən yeyərəm,
Nə versən mən yeyərəm!
Böyüyüb xoruz ollam,
Gec olmaram, tez ollam.
Ya da ki, toyuq ollam,
Yumurtam birər-birər,
İşimi hamı görər,
Nuran durub hər səhər,
Yeyər məktəbə gedər!
Nurlan
Bir balaca oğlanam,
İgid, qoçaq Nurlanam!
Söz qoşaram özümdən,
Heç nə qaçmaz gözümdən!
Hər iş gəlir əlimdən,
Nəğmə düşmür dilimdən!
Öz eşqim, öz havam var,
Gündə bir az davam var!
Anam gedəndə işə,
Bilmirəm nədən ötrü,
Bacım düşür təşvişə?

## A sərçə

Cücələrin dənini,
Yeyib qaçma, a sərçə!
Sən Nurlanın başına,
Oyun açma, a sərçə!
Sapand atar, qan olar,
Halın pərişan olar!
Yaxşı nişançıdır bil,
Bizim balaca Nurlan,
Kəkil toyuq inciyir,
Edir şikayət, filan.
“Qırt-qırt!”- edir tapşırır:
“Balalar əmanəti!”
Deyir ona: “Nurlancan,
Sərçəni, qoyma, qəti!”.

## Küçüyün nəğməsi

Mən balca küçüyəm,
Evimizdə kiçiyəm.
İpək tək qıvrım saçım,
Sevirəm, evdən qaçım.
Həyət, bacaya düşəm,
Deyirlər çoxbilmişəm.
Qara, muncuq gözlərim,
Çox böyükdür hünərim.
Çapır-çapır hürərəm,
Öz işimi görərəm.
Gecə oyaq qalaram,
Bir yad adam görəndə,
Haray-həşir salaram!
Yaxşı oğlandır Şirin,
Məni sevər, əzizlər.
Dəcəl Vəli gələndə,
Məni tayada gizlər.

## Quzunun nəğməsi

Mən balaca quzuyam,
Gözəllərin gözüyəm.
Otumu ver mənim sən,
Qoy, anamı əmim mən!
Göy çəməndə gəzərəm,
Sərin sular içərəm,
Xımır-xımır otlaram,
Quyruğumu qatlaram.
Böyüyüb, erkək ollam,
Mən sənə gərək ollam.
Dolma bişər ətimdən,
Doymazsan ləzzətimdən!

## Balaca nənəş

Balaca Nənə,
Hey dönə-dönə,
Baxır güzgüdə,
Tez-tez özünə.

Gah deyir: ana,
Böyüyəm gərək!
Gah da özünü,
Süzür gülərək.

Deyir: can ana,
Böyümüşəm mən,
İş görmür, küsdüm,
Gəlinciyimdən!

## Aynur

Qara gözlü Aynuram,
Ailəmə qüruram,
Atamın ürəyiyəm,
Anamın gərəyiyəm!
Babam məni çağırır:
"Aynuşum, əlvan quşum!"
Başıma and içirlər,
Əmim, bacım, qardaşım!

## Ataların atası

Balaca İbrahiməm,
Mühəndisəm, həkiməm!
Gəmiçi, ya pilotam,
Hamı deyir ki, odam!

Bacıları yoraram,
Maşınları qıraram,
Bütün oyuncaqları,
Döşəməyə vuraram.

Hamı çağırır məni,
“Ataların atası!”,
Anamı çox sevirəm,
Mənəm onun balası!

## Tək qızam

Ülkər girir ürəyə,
Bənzəri var çiçəyə,
Deyir:”Göydə ulduzam!”
Babam deyir: “Tək qızam!”
Güzgü düşmür əlindən,
Şən nəğmələr dilindən!
Qonaq gedir babaya,
Dəstə tutur gülündən!

Çiçəkləri çox sevir,
Qaçır gülü dərməyə,
Kitab alır həmişə,
Qardaşına verməyə!

## Ayam mən

*(Balaca Əsmərə)*

Çiçək üzlü Əsmərəm,
Çiçəklərə tayam mən,
Göydəki aydan gözəl,
Yer üzündə ayam mən!

Oyanmışam yuxudan,
Gəlin, görün bir məni,
Gözlərimdə dan gülür,
Oxuduqca nəğməmi.

Nənəm gülür ürəkdən,
Babam mənə əl çalır.
Atamı çox sevirəm,
Çoxlu oyucaq alır!

Xoşlayıram anamla,
Gəzməyi göy çəməndə.
Saçıma sığal çəkir,
Babam məni görəndə.

## And içmişəm

Fatehəm, Qarabağı,
Düşməndən alacağam!
Qalib sərkərdə kimi,
Tarixdə qalacağam!

Atam, babam, fəxr edər,
Bu gün mənim adımla!
Qopruyacam torpağı,
Əzmimlə, inadımla!

Düzmüşəm “əsgər”ləri,
Komandan tək yanıma,
Vətənə sadiqəm mən,
And içmişəm canıma!

Anam, nənəm aldığı,
Oyuncağımdır bunlar,
Mənim ürəyimdəsə,
Daha böyük arzum var!

İndi böyük arzular,
Qanadında uçuram,
Eşitsin yassar düşmən,
Qarabağa hazıram!

## Çiçək qız

*(Balaca Aidaya)*

Göylər dolu ay, ulduz,
Heç onu saymaq olar?
Babam deyir evimdə,
Aydan gözəl qızım var!

Məni düşünüb durur,
Yaman çox sevir yəni!
Mən də onu sevirəm,
Oxşar, əzizlər məni!

Nənəm qoyub adımı,
Nənə adı almışam.
Bu adımla atamın,
Gözündə ucalmışam.

Mən nənəmin, anamın
Aida balasıyam,
Çiçək deyirlər mənə,
Nur, çiçək topasıyam!

14.04.2011

## Fərid üçün

Fərid əsgər olacaq,
Vətənpərvər olacaq,
Doğmalara mehriban,
Yada sipər olacaq!

Göydə uçan qartallar,
Ona həsəd aparar,
Amalı, məqsədi var,
O, hünərvər olacaq!

Atanın dayağıdır,
Ananın mayağıdır.
Sevib əzizlədiyi,
Vətənin bayrağıdır!

## İlahəyə

Körpədi İlahəmiz,
Üzü çiçəkdən gözəl,
Ala göz, xətri əziz,
Göydə mələkdən gözəl.

Hərdənbir qardaşıyla
Rəngli şəkillər çəkir.
Gəlinciyini atıb,
Maşınlara göz dikir.

Soruşur qardaşından:
Ay niyə axşam çıxır?
Bizimlə heç danışmır,
Elə hey mənə baxır?

# POEMALAR

## Milli Qəhrəmanımız Mübariz İbrahimova

### *Adının üstün də böyüyən igid*

*(Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə)*

Dayansın boz qurdum,
çaşdı xəyalım!
Bir içim su verin,
pozuldu halım!
Türk oğlu yerlərdə
qalıb, dardadır!
Tezcə soraq salın,
Mete hardadır!?
Hardadır Atilla,
o yel qanadlım?
Oğuz tayfalarım,
süvarim, atlım?
Bilgə Xaqan sorun,
nə yol göstərir?
Düşmən tapdağında
yaram qan verir!
Yer xan, Göy xan gəlsin
üstümə mənim!
Ulduz xan yetişsin
tüstümə mənim!

Qorqud ərənləri
qurtardımı de?
Fatehlər  doğulan
diyardımı de?
Məmləkətim niyə
qul oldu yada?
Nə idi günahım
fani dünyada?
Aslanlar aslanı
Teymur-Ləng hanı,
Ey, bəşər övladı,
sən türkü tanı!
Manas gələr sənə
divan etməyə!
Əlində qılıncı
cövlan etməyə!
Sultan Bayəzidi
yadına sal bir,
Unutmusan deyən,
sayqısız səfil!
Topun lüləsini
kəsən İsmayıl,
Doğrayar bu ərzi,
yatmısan ayıl!
Şah babamdan qürur,

ad qalıb mənə!
Qəhrəmanlıq ölmür,
kafir, bilsənə!
Fateh dünyaları
fəth eyləmişdir,
Yurdu qorumağı
əhd eyləmişdi!
Babək, Cavanşirdir
qürurum mənim!
Yasar, olacağıq
canına qənim!
Koroğlu silkələr
ərzi, bunu bil!
Özgə qismətinə
göz dikən qafil!
Həzilər, Mehdilər
doğan xalqdı bu,
Pələngi  döyüşdə
boğan xalqdı bu!
Səttar xan, Bağır xan
qulağı səsdə,
Sanki Təxti çıxdı
dəmir qəfəsdən!
Qəhrəman Mübariz
dadıma, çatdı!

Min ildir alışan
oduma çatdı!

Ər ana doğmuşdu
bu ər oğulu,
Yazıram adına
mərdlik nağılı!
“Ağ atlı oğlan”dı
sevdiyi nağıl,
Koroğlu gücüylə
böyüyən oğul!
Atası qəhrəman
böyüsün deyə,
Mübariz adını
verdi körpəyə.
Nağıllarla yaşa
doldu qəhrəman,
Oğul təki verdi
yurda imtahan!
Ana qürur duyur
onun adıyla!
Vətən fəxr eləyir
bu övladıyla!
Aldı yağıları
başına igid,
Çaldı topağıma,

daşıma igid!
Mübariz sevdiyi
torpaqdı, torpaq,
Üstündə düşmənlər
yeriyir ancaq!
Torpağın haqqı var,
yerin haqqı var,
Təəssüf bilməyir
bunu  bu yasar!
Əmanət qoymuşam
o yurdu, bilin!
Ordakı ruhlar da,
bir ordu, bilin!
Bir vaxt duracaqdır
ayağa ruhlar!
Çarən olmayacaq,
o zaman yasar!
Vətən torpağını
sevən igidlər!
Eşit, olacaqlar
bir gün səfərbər!
Ruhlar oğullara
yar olacaqdır!
Bu dünya başına
dar olacaqdır!!!

Unutdun haqqımı
yaramaz dığa!
Çörək verdik, nahaq,
sən tək alçağa!
Xalqın bağırından
qopan oğullar!
Sənin pisliyini
sanma unudar!
Udmadı etdiyin
yamanlıqları,
Mübariz-bu yurdun
fəxri, vüqarı!
Çox-çox mübarizlər
yatır gölgədə,
Axırın çatıbdır,
ey haramzadə!
İtil torpağımdan,
çəkil geriyə!
Qorx o gündən,
“yatmiş vulkan” yeriyə!
Alıb qasırğalar,
süpürər səni,
Əjdaha çeynəyib
tüpürər səni!
Səbrin də həddi var,

gözlə düşmənim!
Deyəcək sözümü
mərdlərim mənim!
Olacaq tayfana
əsgərim qənim!
Məğlub olmaz sənə
mənim Vətənim!

Mübariz, adınla
fəxr etdim, inan!
Yüz ili bir gündə
fəth etdin, inan!
Səninlə öyünür
ana Vətənim!
Yurdun düşməninə
sən oldun qənim!
Adın əsrlərə
yazıldı şahid!
Şərəfli igidsən,
sərəfli şəhid!
Türkün yaddaşında
nur kimi saçdın!
Adınla bir yeni
səhifə açdın!
Bir göz qırpımında
sərhədi keçdin!

Sayqısız düşməni
atəşlə biçdin!
Sərdin zərbələrlə
yağını yerə!
Nümunə göstərdin
o gün bəşərə!
Təkbaşına çaldın
düşmənə zəfər!
Mərdliyin söyləndi
dillərdə əzbər!
Getdiyin yollar da
köməyin oldu,
Bu sənin öz arzun,
istəyin oldu,
Türklüyün adını
qaytardın geri!
Eşqini, odunu
qaytardın geri!
Adına min əhsən
söylədi dillər!
Bu Azər yurdunu
tanıdı ellər!
Cənnət məkanında
sən rahat uyu!
Ey igid millətin

igid, ər oğlu!

Ərlərin adını
yaşadır ellər!
Eşqinlə döyünür
bu gün könüllər!
Çoxlu Mübarizlər
yetirər Vətən,
Qəhrəman, adınla
fəxr edirəm mən!
Susdurdun igidim
neçə haqsızı,
Bu ana torpağın
oğulu, qızı,
Ruhuna rəhmətlər
oxuyur sənin!
Qəlblərdədir hər
vaxt yerin, məskənin!
Gələcək nəsillər
fəxr edər, igid!
Adını tarixə
nəqş edər, İgid!

19/10 2010-cu il.

## Zəfər sədası-Çanaqqala 100

*(Çanaqqala-Türkün dünya hərb tarixinə öz qanı ilə yazdığı bir qəhrəmanlıq dastanıdır)*

Çanaqqala söyləmə!
"Qan çanağı!"- söylə sən!
Yerin ana köksündə,
Heç qan gölü görmüsən?
Elə bil, Kərbəlaymış?
Düşmən alay-alaymış?..

Bölük-bölük yağılar,
Beşik kimi yırğalar!
Ərzi-gürzü, İlahi!
Qoyma, yurdum dağılır!
Qoru türkü, İlahi!
Bir ulu hekayətmiş,
Çox böyük müsibətmiş...

Yağılar birləşərək,
Türkü yıxmaq istəmiş!
"Türkü qıraq!"-söyləmiş?
Fəqət, yazıq bilməmiş?
Türkün qanında təpər!
Türkün canında hünər!

At üstə sıçrayarsa,
Yer dinər, Göylər dinər!
Türkümdü ər oğlu ər!
Acığı tutsa, əgər,
Ərzi də yıxar-sökər!
Türkü yıxmaqmı məgər?
Türkü bir kimsə yenər?

Namərd qana susamış!
Əvvəl qırmış, talamış?!
Bu döyüşdə susmayan,
Bircə əsgər qalmamış?!
Üç min azər övladı,
Fəda edib çanını?!
Qoruyub qardaşının,
Şöhrətini, şanını?
Türkün mübarək qanı,
Sel olub, axıb o gün!
Qana susamış dünya,
Sakitcə baxıb, o gün!!!
251 min, düz 309 nəfər,
Mehmetçiyi yağılar
Qana qəltan ediblər!

"Hücuma yox! Ölümə,
Göndərirəm, mən səni!

Get Mehmetim, arslanım,
Qoru doğma Vətəni!”
Söylədi generalım,
Atatürküm-Kamalım!
Dünyaca qəhrəmanım,
Yer üzərində görküm!
Kamalım, Atatürküm!
Nüsrət, Ənvər, Xəlil bəy,
Tələt kimi Paşalar!
Düşmənlərə ər kimi,
Çəkdiriblər haşalar!
Arslan kimi giriblər,
Bu meydanda savaşa!
Yaşa mübariz türküm!
Yaşa, yaşa, min yaşa!
Arıburnu, Çirkdə kənd,
Acıtəpə lap son bənd...
Çanaqqala -istehkam!
Söndü neçə arzu-kam!
Tökülən mərmilərin,
Zərbəsindən biçildi,
Çanaqala  cəbhəsi,
Qanla, canla ölçüldü!
Düşmənlər qasırğa tək
Hücuma keçmişdilər!

Hərb işini türk kimi,
Söylə, özgə kim bilər?
Neçə firəng, ingilis,
Öz şərində boğuldu!
Əbədi qəhrəmanım–
Türk təzədən doğuldu!

Çanaqqala söyləmə!
“Qurtuluş dərsi!”–söylə
“Silkələdi dünyanı!
Titrətdi ərzi!”–söylə
276–Ağırlıq çəkisi var!
Burda türkün Tanrısı,
Qəhrəmanlıq dərsi var!
Seyid Çavuş özündə
İlahi gücü duydu!
Qaldırdı  top mərmisin
Necə dəzgaha qoydu?
Çağırdı Tanrısını,
Necə fırlatdı, atdı?!
O bircə top gülləsi
Xaqanları oyatdı,
Sultanları yaşatdı!..

Türkün igid qızları,
O gün nişançı oldu!

Türk oğlu qəhrəmanım
Qutsal turançı oldu!
Sağ qolu kəsilənlər,
Sol qoluyla atdılar!
Mərmiləri, topları!
Bir-birinə qatdılar!
Möcüzə yaratdılar?!
Yerdə Ana torpağa,
Göydə Haqqa çatdılar!
İlhi, özün qoru!
Qəhrəmanları barı!
Onlar qırıb-qurtardı!
Bu kafiri, yassarı!
O günü hər igid türk,
Oldu bir nər, igid türk!
Bəşər gəldi heyrətə!
Əhsən bu məharətə!
Düşmən çaşdı yolunu,
İtirdi sağ-solunu!
Türk əsgəri neylədi?
Öldü, "Vətən!"-söylədi
Savaşıyla, eşqiylə
Ayrı tufan eylədi!
Yaralıya dəymədi,
Bir əsiri döymədi,

Bağladı yarasını,
Düşmənini söymədi!
Bu bir dünya dərsidi!
Qüdrət, həya dərsidi!
Bu bir cahan savaşı,
Yenə ucalardadı,
Uca türkümün başı!
Bu, dünyaya yayılan,
Ölməzliyin səsidir!
Bu Türkün kainata
Qalibiyyət bağıran,
Zəfər təntənəsidir!
Çanaqqala-ər sözü!
Bir igidlik dərsidi!

Fəxr elə, ey Ana türk!
Dünya baş əydi sənə!
Sən ucadan ucasan!
Qiymətini bilsənə!
Yolunda məşəl oldun,
Doğmanın da, yadın da!
Bir Tanrı qüdrəti var,
Türküm, sənin adında!
Göstər yağı düşmənə,
Qüvvətini, gücünü.

Hər zaman al yamandan
Qisasını, öcünü!
Qazandın əbədilik
Bir zəfər sədasını!
Ölməzlik dünyasında
Məğrurluq nidasını…
Yazdın tarixə qoydun!
Düşmənin gözün oydun!..
Düşməninə hər zaman,
Ölüm olsun, ar olsun!
Tanrı Türkü qorusun!
Tanrı Türkə yar olsun!

13.03.2015.

## Hər ömür bir nəğmə...

*(Xalq Şairi Rəsul Rzayaya ithaf)*

### *E p i l o q*

Sən zamanın sınağından
qalib oldun,
Ər kişi tək ad çıxardın,
Rəsul Rza!
Heç bir kəsdən
qorxmadın da,
dedin sözü!
Nər kişi tək ad çıxardın,
Rəsul Rza!
Millətinin qeyrətini
çəkdin hər an,
Tufanlara sinə gərdin
zaman-zaman!
Bəyəndiyin gənclərə sən
arxa durdun,
Yollarına işıq saçdın,
mayaq oldun!
Güvəndiyin Vaqif, Fikrət,
Əli oldu, Qabil oldu
Sən onlara dayaq oldun.

Ramiz Rövşən, Vaqif Bayat
"Şinel"inə, "söz donu"na
bürmələndi,
Başlarına od ələndi,
qor ələndi!
lakin, xalqın sözü:
"əhsən, bəli!"-oldu,
sözləri də bayraq oldu!
Gənclər çoşdu, dalğalandı
bir sözündən,
fərq qoymadın
sən onlara
heç özündən!
Onları söz meydanına,
düzüb getdin,
düzüm-düzüm...
bil, onların ürəyində,
yaşayırsan,
bu gün özün!

Yazıq bizə, şeirimizi
öyən yoxdur,
Nə baladır?
sözümüzə bircə tərif
deyən yoxdur?..

Bircə yaxşı, bircə
“sağ ol!” tükəndimi?
Şeir evimiz o binamı,
elə sizlər tikəndimi?
Niyə bizim yaxşı sözlər
daldalarda tərifl ənir,
Şeir deyən oğulların
başlarına od ələnir!
Gənclər ölüm meydanına
düzüldülər qatar-qatar!
Şəhidlərim, igidlərim
ürəyimdə tutdu qərar!
onların ölüm xəbəri,
itgin adı oxundu hey!
Səngərlərə şəhid ömrü
güllə-güllə, ilmə-ilmə
toxundu hey!
Ülvülərim, Alılarım
Müşfiqlərə tay oldular…
Aydınlarım şerimizin səmasında
gün tək çıxıb, ay tək batıb
Yüz illiyə boy oldular!
Gəncliyimiz bada getdi…
heç şeirimiz anılmadı!?
Nə mübarək bayram oldu,

nə adımız sanılmadı!
Şəhid ömrü yaza-yaza,
şəhid oldu arzularım!
Ömrümə qış yaman gəldi,
heç gülmədi xoş baharım!
Şəhidləri ağladım mən,
qan ələdi misralarım…
Bir zamanlar ayıldım ki,
ötüb-keçibdi qatarım?!

Ey millətin şeir yazan,
kəlam deyən azmanları,
Ruhunuzla ruhumuza
sığal çəkin,
ümid verin bizə barı!
O illərdə gəncliyimiz soldu,
gül tək, bada getdik!
ya qırıldıq şəhid olduq,
əsir düşdük, yada getdik!
Müharibə, ölüm, itim,
saldı bizi bəlalara,
Ürəyimiz dərd bağladı,
qəlbimizdə dərin yara!
Hanı sözün ərənləri
Nizami, Füzuli pirim?

Hanı Molla Pənah eşqi?
Mirzə Cəlil?
Sabir görən,
dərdimizdən halıdırmı?
Hadim mənim-sözü dildə,
ruhu eldə,
özü əldə qalan, pirim,
Salman Mümtaz, ya Rəfilim,
bu yol ölüm yoludurmu?...
Tarix yazan Heydər kimi,
Ənvər kimi, Cəfər kimi müdriklərim,
Əbədiyyat dünyasında ölməzlərim....
Özü, şəkli, xatirəsi,
şeriyyəti, qadir səsi,
coşub-daşan, vulkan Vurğun!
dünyaları yenən eşqi,
ürəklərə dolan Vurğun!
Vaxtsız aldı əcəl sizi,
Bilirsizmi nələr oldu?
Ağılkəsməz fəlakətlər...
Qarabağda, Kəlbəcərdə,
ayrımlarda talan oldu!..
ondan sonra nələr, nələr?
xəbər üstdən gəldi xəbər...

Dərdimizə: “keçmiş olsun!”-
demədilər!
qara günlər dalda imiş?
demədilər....
bütün bunlar
qəza,qədər…
Sən demişdin…
Rəsul Rza-
“həsrəti ömründən uzun…”?
“dan yeri qan boyalı…”?
“sabahı uzaq əsrlərin
yolunda yubanan…”?
“qurtuluş yolları məhbəs,
dar ağacı, gülləbəran…”?
“balaları sərgərdan,
gəlinləri nigaran…”?
“qardaşına həsrət,
bacısına həsrət…”
“bayatıları qədim məhəbbət…”?
heyrət, heyrət və heyrət?..
necə gördün bunları sən?
necə duyub qəlbin görən?
Ey əməli, işi bəlli,
həqiqətin sərt heykəli?
dərd şələli, söz şilləli,

mərd ürəkli, Rəsul Rza!?
“keçmiş olsun”–söylə bizə!

Anam gəlsin, sonam gəlsin!
Ala gözlü Nigar gəlsin,
Desin mənə bu hikməti,
Sözü qəti, fikri qəti,
Rəsuluna sığındımı?
Yağıların, “sapı bizdən baltalar”ın
Zərbəsindən yayındımı?
Bəy qızı, bəylik nişanı,
Sözün zəri, zərəfşanı
Gözəl Nigar, söylə görüm,
O sevdiyin ala gözlü
yarın səni dardan necə qurtarırdı?
Zalımların pəncəsindən götürərək
Söz yurduna, öz yurduna,
əbədiyyət məkanına aparırdı?
O dövrdə qılınc kəsə bilməyəni
Söz kəsirdi…
İndi bizdə nə söz vardı,
Nə də sənət,
Söz kəsirdi…
Belə olmaz ey ruhları
Bizdə qalan müqəddəslər,

Sizi də Vaqiflər səslər,
Məhsətilər, Natəvanlar,
İndikilər nəyi bilər?
Nəyi anlar?
Anam Nigar, sonam Nigar,
Mirvaridin, Hökumən var,
Ya Mədinə, ya Ruzigar,
Ruhu yaşar, sözü yaşar…
Mahcurları, Bəstiləri
Sən tanıtdın mənə, bilsən,
Onun üçün çox əzizsən,
Ürəyimdə sevimlisən!
Ağabəyim ağa, Kəminə
Bu qızların diləyi nə?
Ötən ömrü, bitən ömrü,
Vətən ömrü yaşadansan,
Sən layiqli şairəsən, yaradansan!
“Mənim şair qardaşlarım!”–
Söylədin sən, yana-yana!
Səndən sonra mən də yazdım
Bu dastanı,
Dərdimizi qana-qana!
Anam, sonam, əziz Nigar,
Ürəyimdə tutdun qərar.
Varlığımda yaşayırsan,

Adın yaşar, sözün yaşar.
Mən olduğum yerdə bil ki,
Adın da var, sözün də var!

Bu dahilər yetirdiyi,
Yazar insan, Anar oldu!
Neçə ömür, neçə həyat yaşadaraq,
Ululları anar oldu!
“Qorqud”uyla, “Sizsiz”iylə
Silkələdi yaddaşları oyatdı, o.
Neçə əsri bir-birinə
 calayaraq yaşatdı, o!
İndi niyə “qara gözlü” qaracalar,
Salmaq istər taxtdan onu,
Küsəndirir, zamanından,
Baxtdan onu!
Sınma, Anar!
Sən bu xalqın Anarısan!
Sınma, qəti!
Tap özündə ölməzlərdən
qazandığın o cürəti!
Yeni əsri salamladın
Bu hünərdi!
Yoxsa Cavid harayına
gəldi sənin, sinə gərdi?

Özü zalım əllərində alət olan
Düham mənim!
Üzeyirmi təpər verdi dizlərinə?
Mirzə Cəlil bir-bir baxdı sözlərinə?
Cavan Müşfiq, səmalarda
məğrur ruhu yanan Müşfiq!
Qələmində çiçək açsın
Ölməz ruhu!
Yaşarılıq qazananlar,
Əbədiyyət göylərindən boylananlar…
Hakim, məhkum dünyasında,
Tarix olan gündən bəri
Yaşayanlar, yaşadanlar…
Qazananlar dünyasında sorağın var,

***P r o l o q***

Turalın var, Günelin var,
Yazılmamış varağın var…
Hələ əsrdən əsrə
Neçə-neçə sorağın var.
Yaşa qardaş,
yaşat Anar!
Qoy Rəsulun,
qoy Nigarın ocağında

yansın ocaq, çıxsın odlar!
Yaşa Rəsul  Rza eşqi!
Yaşa Nigar, yaşa Nigar!

16.05.2009.

## Getdi

*(Xalq Şairi Vaqif Səmədoğluna ithaf)*

Ölümlə şahmat oynadı,
Top, piyada, at oynadı,
Şah oğlu Şah mat oynadı….

Gözü görənləri yazdı,
Örnək olanları yazdı,
Qış ömrü də güllü yazdı…

Ürəklə dedi sözünü,
Dost qəlbdə tapdı özünü,
Daş üstə yaddaş yazanım…

Ötdü, keçdi Qorqudları,
O, xalqın sərvəti, varı,
Yaşadırdı ölməzləri…

Sözə bayraq, ömrə sahil,
O bir bülbül, bir anadil,
Əsil nəcabət və nəsil…

Körpə ilə körpə idi,
Könülərə körpü idi,
Sözə Tanrı, törpü idi..

Həqiqəti danılmadı,
Bircə dəfə yanılmadı,
Dürüst işi, məhək-adı…

Şeirdə ilahilər var,
Yurdumda çox dahilər var,
O bir comərd, qəlbi bahar…

Öncə xalqdı-nə şöhrət, ad?
Belə sadə, belə ustad?
Fikri-yurdu, ruhu yaşat…

Bayrağa dayaq dayandı,
Yatmadı, oyaq dayandı,
Şəhidlərə yandı, yandı…

Əsrdən əsrə sorağım,
Dalğalanan söz bayrağım,
Ucalıqdan ucalığım…

Hörmətimin tətənəsi,
Yusif səsi, Vurğun səsi,
Müqəddəslər müqəddəsi…

Açıq alnım, qızıl qanım,
Dünyalarca şöhrət, şanım,
Mənim byüklük ünvanım…

Oğul idi, oğul kimi,
Ər tək, bağlı qıfıl kimi,
Ömrü xəyal, nağıl kimi…

Bəlli ozan idi Vaqif,
Haqqı yazan idi Vaqif,
Sirrdi, ümman idi Vaqif…

Bir sözü, bir əsr Vaqif,
Dünyası məna, sir Vaqif.
Bir gözələ yesir Vaqif…

Cananı canda bəslədi,
Haqqı divanda süslədi,
Xalqı məqamda səslədi.

Ağır başlı, ağır elli,
Fikir yüklü, məna dilli,
Ayıltdı qəflətdən eli…

Mənaların dəryasıydı,
Sevənlərin arxasıydı,
Özü ərənlər xasıydı…

Ölüm adlı bir mələyi
Sevdirən o, sevən oydu,
Allah, Allah, hoydu, hoydu…

Əzrayıl lağa düşmüşdü,
Sanki, qınağa düşmüşdü,
Rastına Qağa düşmüşdü…

Tanrıyla söhbət apardı,
Özüylə heyrət apardı,
Bir dünya şöhrət apardı…

Demə ki, xəbər apardı–
Özünü nəmər apardı,
Bu qəza-qədər, apardı…

Belə bəni-bəşər yoxdu,
Necə məğrur, qəlbi toxdu?
Ölümü yandırdı, yaxdı…

Xalqımı yandırdı-yaxdı,
Dostları yandırdı-yaxdı,
Məni də yandırdı-yaxdı,
Zərəngiz, ölüm var, haxdı…

2. 02. 2016-cı il

# AYTAM

(AYTAM İctimai Birliyinin 20 illiyi münasibətilə
Aygün Zamanlıya ithaf edirəm)

*Epiloq*

Mən bir Azər qızıyam,
Qəlbimdə sevdam var,
Əlimdə bayrağım,
Yurdumda AYTAM var!

İyirmi ildən də çox,
Uşaqlar sahib çıxır,
Mənəvi dünyamıza,
Pay düşür hamımıza!

Ax, bu körpə fidanlar,
AYTAM-ı yaşadanlar,
Təmənnasız edirlər,
Mənəviyyat güdürlər!

Aygünün balaları,
AYTAM-dı sonsuz varı!
Gecəni dan edirlər,
Mənəviyyat güdürlər!

Əlində bayraqları,
Dilimi yaşadırlar!
Millətimin baharı
Elmimi yaşadırlar!

Elm, ədəb, mərifət
Meydanında vardılar,
Bu gün xalqa, Vətənə,
Böyük iftixardılar!

Ulu türkük deyirlər,
Alovdan don geyirlər,
Həqiqət söyləyirlər,
Turan dərsin öyürlər!

Turan-birlik deməkdir
Turan-ərlik deməkdir,
Eşidiniz, ay millət!
Səfərbərlik deməkdir!

Türk nəsliyik əzəldən,
Uyğur,  özbək və tükmən,
Qazax, qırğız ya, qıpçaq,
Türkdür yenilməz, qocaq!

Altaydır, Yeniseydir,
Tatar, çuvaş, Egeydir,
Dərbənd, Qarapapaq niyə,
Olmasın ərzə yiyə?!

Birləşək, həmrəy olaq,
Tarixə bir iz salaq!
Turan haqqı qorusun,
Haqq turanı qorusun!

Aydan nurlu uşaqlar,
Hamıya sevinc paylar,
Zövqü var, ilhamı var,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Əlində bayraqları,
Yad edər ocaqları,
Muzeylər, qədim yurdlar…
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Oxuyar dastanları,
Yad edər xaqanları,
Yaşadar sultanları,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Sərgilər, təqdimatlar,
Necə şənlik, büsatlar,
Tariximi yaşadar,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Hərəsi bir ürəkdi,
Uğurlu, gələcəkdi,
Sabahıma gərəkdi,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Nizamidən söz açar,
Füzulidən danışar,
Ruhunda Vaqif yaşar,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Gözündə gülər bahar,
Dilində Mirzə Cəlil,
Ürəyində Vurğun var,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Dillərinin əzbəri,
Xalqımın şah əsəri,
Gəzər əziz elləri,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Vətən üçün səfərbər
Bir ulu yolla gedər,
Əməldə ulu Heydər
Bu körpə heydərçilər-
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Anar əbədiyyəti,
Ulu Öndər hörməti,
Saxlayar qüdsiyyəti,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Xalqımı yaşadanlar,
İrəlidə bayraqdar,
Bayrağı oğul tutar,
Gəlişi bayram olar,
Birləşib AYTAM olar!

Aygün müəllim-rəhbər,
Könüllü vətənpərvər,

Həmişə üzügülər,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

Xalqıma gərək- AYTAM,
Döyünən ürək-AYTAM,
Ətirli çiçək-AYTAM,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!

AYTAM-elə dür sözdür,
Hər hərfi bir sirr sözdür,
Hikmətləri cəm olar,
Gəlişi bayram olar!
Birləşib AYTAM olar!
Əvvəlcə “A” hərfi var,
Belə deyib ulular-,
Hər şey Anadan başlar,
Ana öz sevgisiylə
Adını qəlbə yazar!
Ana övladın ruhu,
Canı, eşqi, qanıdır!
İnsanlığın əvvəli,
İlkinlik ünvanıdır!
Bənövşə ətirlidir,
Analar xətirlidir!

Anaya sevgi haqdır,
Ana ömrə dayaqdır.
Ana eşqim, əzəlim,
Ana ellər gözəli!
Qəmlidir anasızlar,
Dərd gəlsə ana sızlar.
Analar körpəsini,
Gözü tək sevər, bəslər,
Analar övladını,
Xöş gələcəyə səslər.
Sübhə qədər oyaqdır,
Ana nurlu mayaqdır.
Anasız yurd boş qalar,
Ana ilə dünya var!
Sevər dogma balasın,
Alar dərdü-bəlasın.
Ana pakdır, saf sudur,
Ən müqəddəs düyğudur,
Analıq duyğuları,
O, bir ömrün baharı…
Sevgisini günəş tək,
Ana qəlbində saxlar.
Balası gedən yola
Ana gözləri baxar…

“A” hərfi, həmçinin
ATA deməkdik,
Tanrının verdiyi
buta deməkdir!
Hər bir dövranların
bayrağı ATA!
Bütün zamanların
növrağı ATA!
Atasız bir evin
üst damı yoxdur!
Atasız günəş də
mənə soyuqdur!
Ata övladına
göydən nur ələr,
Ata ömürləri
nəşəyə bələr!
Atanın ürəyi
cahan qədərdir!
Atanın sevgisi
ümman qədərdir!
Atasız yer ağlar,
göy qəmə batar,
Ata övladını
ucada tutar!
Atanın nəfəsi

dirilik suyu,
Atanın kölgəsi
bir elin toyu,
Ömür bağçasının
bağbanı ATA!
Uğurun, sevincin
ünvanı ATA!
Atasız balanın
gözləri gülməz,
Ata olan evin
gülşəni solmaz!
Atanın kölgəsi
haqqın dayağı,
Atanın varlığı
uğur sorağı!
Övladın başının
tacıdır ATA,
Vətənin düşməndən
öcüdür ATA!
Atanın bağında
çiçəklər solmaz,
Ataya bərabər
dünyada olmaz!
Atanın çiynində
dayanar cahan!

Atanın gözündə
şəfəqlənir dan!
Atanın nəfəsi
Xızr nəfəsi,
Atanın öyüdü
Quran kəlməsi!
Övladını haqqa
çağırar ATA,
Dünyasını nurla
yoğurar ATA!

Sonra gəlir "Y" hərfi,
Bu hərf yurdur, yuvadır,
Bu söz ömrə mənadır!
Analar məkanıdır,
Ata qibləgahıdır,
Yurd ata yadigarı,
Yurd ana yadigarı,
Yurd övlad pənahıdır!
Yurd məzlumun ümidi,
Yurd dərvişin ahıdır.
Yurdsuz olmasın heç kəs,
Yurda girməsin nakəs!
Yurd övlada ərməğan,
Nəvəyə qismət, paydır.

Yurdu sevən, yaşadan,
Oğul, ümid, haraydır.
Yurdlar nakəs əlində,
Haray deyər, dad dilər,
Yurdu azad etməyə,
Oğul gələr, qız gələr.
Yurd-yuva müqəddəsdir,
Yurd minillik nəfəsdir!
Yurdumuz azad olsun!
Ellərimiz şad olsun!
Xain girib yurduma!
Güvənirəm orduma!
Yuvası bərbad olsun!
Ellərim azad olsun!
Bu Qorqudlar yurdudur,
Bu Xaqanlar yurdudur!
Hər biri ər, bahadır,
Candan keçən ordudur!

Üçüncü hərf "T" hərfi,
Göy var, göyün üzü var,
Xaliqi-Sübhan, Tanrı,
Kainatın gözü var.
Tanrı sözüylə birgə
Bir ölməzlik sözü var!

Tanriya bir can borcu,
Ruh borcu, iman borcu!
Tanrıya qurban dedik,
Tanrıdan aman dedik!
Tanrıdan gələn nə var,
Ruh dedik, iman dedik!
Tanrı yer ilə göyün
Fərmanın verən Xaliq,
Tanrı–Nuri müqəddəs,
Dövranın görən Xaliq!
Tanrı haqqı dedilər,
Yerlə–göylə ölçülər!
Ən müqəddəs duyğular
İnsana Haqdan gələr!
Tanrı–Haqdı, Qadirdi,
Munis, Qəhhar, Qabildi!
Hakimim, Xilaskarım!
Rəhim, Rəhman, Adildir!
Cəlallım, Qibləgahım,
Əziz, Pərvərdigarım,
Sübhanım, Rəsulumdur,
İki aləmdə varım!
Tanrımdı lütfükarım!
Tanrıma minnətdaram!
Haqqın yolunda varam!

Bir də “Torpaq” sözü var!
Torpaq candan əzəldi!
Hər ünvandan əzəldi.
Ana torpaq deyilir,
Bu hiss özü gözəldi!
Atalar qoruyurlar,
Torpağı qanı ilə!
İgid oğul qoruyur,
Torpağı canı ilə!
Torpaq da Tanrı verən,
Ən əziz, qutsal paydır!
Torpaq ömürdən ömrə,
Ərməğandır, haraydır!
Bu qədim torpağımız
Övladımıza paydır!
Mənim ulu torpağım,
Olsun balama qismət,
Torpağıma göz dikən,
Düşmənimə min lənət!
Torpaq ATA mirası,
ANA ocağı demək!
Torpaq yaşamaq demək!
Nəsli yaşatmaq demək!
Torpaq sevib-seçdiyin
Doğma bucağın demək!

Sonda sığınacağın,
Susub ovunacağın,
ATA ocağı demək!
Ana qucağı demək!
Torpağım azad olsun!
Qoy, millətim şad olsun!
Bir də “Türk” sözü vardır,
“Türk” sözü, “Turan” sözü,
Bu aləm–aşikardır!
Türküm haqqı səvəndi,
Türk Tanrıya güvəndi.
Tanrı türkü qorudu,
Turan nura bələndi!
Turan qalibiyyətdi!
Turan qutsal niyyətdi!
Turan Haqqı qoruyar,
Doğruluğa çağırar!
Doğma bildiyi yurdda,
İgidliklə yarıyar!
Turan qanı çağlayar,
Haqla ülfət bağlayar!
Türküm, türkçülüyümdü,
Ömrümə bəzək bu gün,
Bütün Turan elləri,
Açıb min çiçək bu gün!

Tanrı Türkü qorusun!
Türk çağlasın, yarısın!
Türküm türkdən yarısın!
Tanrı Türkü qorusun!

Yenə gəldi "A" hərfi,
AZƏRBAYCAN sözü var,
Ölkəmin üzərində
Ulu Haqqın gözü var!
Ən uca dağlar mənim,
Azərbaycanımındır!
Ən barlı bağlar mənim,
Azərbaycanımındır!
Ər-ər igidlərim var,
Koroğlum, Nigarım var!
Canfədalar ordum var!
Dünyaya bəs tarixim,
Tarixlərdən sorğum var?
Azər oğlu, od oğlu,
AZƏRBAYCAN deyirəm!
Düşmənlərə, yağıya,
Vermə aman deyirəm!
Bu Torpaq da sənindir!
Bu Tanrı da sənindir!
Ən qədim yurd da elə,

Mənim öz Vətənimdir!
Anamdır, AZƏRBAYCAN!
Atamdır, AZƏRBAYCAN!
Yurdumdur, AZƏRBAYCAN!
Yuvamdır, AZƏRBAYCAN!
Rəhm elə Tanrım mənə!
Ruhumdur AZƏRBAYCAN!
Düşmənimi yenməyə
Səndən aman istərəm!
Rəhm elə, ulu Tanrım
Yurdu tamam istərəm!
Başdan-başa gülüstan
AZƏRBAYCAN istərəm!
AZƏRBAYCAN istərəm!
Vətənimə hay verən,
Doğma cahan istərəm!
Canıma can istərəm!
Düşmənim zəbun olsun,
Oğullar zəfər çalsın!
Vətənim başdan-başa,
Qoy, təkcə mənim olsun!
Yurdu tamam istərəm!
Başdan-başa gülüstan
AZƏRBAYCAN istərəm!
AZƏRBAYCAN istərəm!

Sonra gəlir "M" hərfi
Məmmləkətim, məkanım,
Millətimiz var olsun!
Düşmənimin başına
Qoy bu dünya dar olsun!
Məkanım odlar yurdu,
Millətim AZƏR oldu!
Hirsim, övkəm, qəzəbim,
Düşmənə məzar olsun!
Dardadı məmləkətim,
Nicat ver, ulu Tanrı!
Əsir olan yurdlara
Həyat ver, ulu Tanrı!
Torpağımdan, yurdumdan
Düşmənləri qovaq biz!
Nemətimə dikilən
Pis gözləri ovaq biz!
Ömürlər aydınlığı,
Analar dua qılsın!
Məmmələkətim, millətim
Mənliyim azad olsun!
"Mən" sözü ədalı söz,
Qayğılı, qadalı söz,
Mənəm, mənəm!–
Deməyin, öyünməyin,

Siz heç vaxt!
Mənliyimin uğrunda
Mən özüm hər bir zaman
sərvaxt, ayıq olmuşam,
Gözüaçıq olmuşam!
Saydım,  hər an sayıldım!
Ucalarda dayandım,
Mən gecələr yatmadım,
Sübh tezdən oyandım!
Tanrıma da hər zaman
Qəlbdən dualar qıldım.
Yurda sədaqətim var,
Eldən töhfələr aldım!
Sözümə qiymət verib,
Adımı ucaltdılar!
Nəfsini qoruyanın,
Tarixlərdə izi var!

*P r o l o q*

Bu sözlər qəlbimi
Tərpətdi mənim,
Türklüyüm, millətim
Doğma Vətənim!
Türkün ayparası,
Ayı var indi!

Tanrıdan Göy Türkün
Payı var indi!
Neçə yurd-yuvası,
Aylı-ulduzlu,
Ulusu, camesi
Xanəsi, türbəsi,
Qübbəsi, caddəsi,
Ziyarət evi, məscidi,
Sarayı var indi!
İstəyirik bu ay,
Birgə, tam ola,
Birləşib ay tam ola,
Adı da, AYTAM ola!
Ondörd gecəlik ay tək,
Kaş, birləşə Türklüyüm,
Dünyanın qəlbindəcə
Özgürləşə  Türklüyüm!
Aypara olmasın qoy,
Birləşib, bir tam olsun!
Onun qoruyucusu,
Varisi- AYTAM olsun!

Səsini qoy, dünyaya
Gətirsin türküm!
Doğudan ta Batıya,

Yetirsin Türküm!
Dağlardan, şəlalələr
Gurşadlar aşsın!
Ölkələr, okeanlar,
Həsədlər aşsın!

Səsləşə, bir tam ola!
Birləşə AYTAM ola!
Hər an haqqı qoruyan,
AYTAM-lı Vətən ola!

AYTAM xöş niyyətlidir!
AYTAM-qüdsiyyətlidir!
AYTAM-bəşəri Türkdü!
Sözün almaz ülgücü,
Sözün kəsəri Türkdü!!!

09.23.06. 2016-cı il

## Kazım Qara Bəkir Paşa

*(1918-ci il martın 31-dən başlayaraq erməni-rus hərbi birləşmələri Bakıda, ətraf kəndlərində, Şəkidə, Qubada, Gəncədə, Şamaxıda, Şirvanda qırğınlar, misli görünməmiş soyqırım aktı törətmişlər. Azərbaycanın Naxçıvan, Qarabağ, Zəngəzur bölgələrində qiyam qaldırmışlar. Həmin ilin avqust, sentyabr aylarında və sonralar Naxçıvanın qorunmasında misilsiz xidmətləri olan türk komandanı Kazım Qarabəkir Paşa xüsusilə Azərbaycan xalqının ürəyindədir)*

### *E p i l o q*

Türkün sərkərdəsi, igid komandan,
Dünyanın sərvəri, o igid aslan,
Mustafa Kamalın əmriylə haman,
Çatmış qardaşının dadına candan,
Türkün sevgisini türkə yetirmiş!
Özüylə qardaşlıq eşqi gətirmiş!
Erməni qudurub həddin aşanda,
Artıq səbr kasam coşub-daşanda!
Bütün məmləkətim qana bulaşmış!
Eşidib, türk oğlu, kini oynamış!

Qəzəbi kükrəyib, qaynı qaynamış!
Qardaş tək köksünü irəli vermiş!
18 ilində erməni barbar,
Yurdumda minlərcə insan qırmışlar!
Xəbəri eşidib Atatürk haman,
Göndərir köməyə igid bir aslan!
Erməni əlindən çəkibdir haşa!
Adı-igid Kazım Qara Bəkir Paşa!

Fəryad ucaldı Bakıdan!
Küçələrə axdı al-qan!
Qəzəbləndi qoca Turan!
Gəldi sənə, gəldi fərman,
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!

Şamaxı, Şəki qədim yurd,
Gəncə, Xaçmaz dolu tabut,
Qubada puç oldu ümud!
Yağıya qanlı divan tut,
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!

Naxçıvan, Qarabağ, Şirvan,
Bakı, Zəngəzur, Zəngilan,
Ağdaş,  Ağsu, Qusar, Şabran,

Torpağı suvardı al-qan!
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!
Şəhid oldu xalq başa-baş!
Axdı gözündən qanlı yaş,
Eylədin qiyamət, savaş,
Dinətərslər qaldı çaş-baş,
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!

Düşmənin zülmündən cöşdun!
Dərya kimi aşdın-daşdın,
Qardaş fəryadına qoşdun,
İgid yaşına dolmuşdun,
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!

Uzaq yollar yorub gəldin,
Dözməyib, tez durub gəldin!
Ağır zərbə vurub gəldin!
Yağılar öldürüb gəldin,
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!

Erməni-nakəs, avara!
Qoymadın ki, bir qabara!
Vurdun ürəyindən yara!
Qırıb-tökdün bu yollara,
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!
Mehmetçiyin yoxdu sanı,
Sel oldu kafirin qanı,
Qorudun Azərbaycanı!
Nişanın ərlik nişanı,
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!

Tanrıdan istiqbalın var!
Ulduzun var, hilalın var!
Nə şöhrətin, cəlalın var?
Ər Mustafa Kamalın var!
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!

Ad qoyar igid dünyada,
Dar ayaqda yetdin dada,
Düşmənimə verdin qada,
Hər zaman gələrsən yada,
Namınla döndün ustada,
Kazım Qarabəkir Paşa,

Eşqinlə səni min yaşa!

Qurtarmır yurdumda savaş,
Qan ağlayır yenə dağ-daş!
Bir də köməyim ol, qardaş!
Çağla, sərhəddini bir aş,
Kazım Qarabəkir Paşa!
Eşqinlə səni min yaşa!

Düşmənlərə zaval gəlsin,
Ər Mustafa Kamal gəlsin!
Qursun sorğu-sual, gəlsin!
Nədir bu qeylü-qal, gəlsin?!
Zərəngiz, dalbadal gəlsin!
Kazım Qara Bəkir Paşa!
Eşqinlə səni min yaşa!

## *Proloq*

Dəyişdi donunu, illər, fəsillər,
Bu adı yaşatdı sevən könüllər!
Kazım Qara Bəkir Paşam-hünərvər!
Girdi aslan kimi döyüşə ər-ər!
Bütün dünya həsəd apardı o gün!
İgidlər ərəsət qopardı o gün!

Qardaş mərhəməti, igid hikkəsi,
Yox imiş qoşunun qorxu-hürküsü,
Qırıb çaqqalları, ölüb tülküsü,
Bu namərd erməni, alçaq nakəsi,
Qovaraq, ölkədən çıxardı o gün!
İgidlər ərəsət qopardı o gün!

100 il gəlib keçdi aradan zaman,
Yenə dalğalanır Qarabağ yaman!
Mənə qardaş deyən dilinə qurban!
Yenə bir hayqırıb, coşub, çalxalan!
Qır, iyrənc erməni yox olsun bütün!
İgidlər ərəsət qoparsın bu gün!
İgidlər ərəsət qoparsın bu gün!
14.02.2012.

## Bir elegiya...

***Vahidim de, igidim de, şəhidim de,...***

*(Gənc yaşında şəhid olmuş oğlunun dərdinə dözməyib ürəyi çatlayan əmim Davudun və Vahidin yadigarlarına həm ana, həm ata olan bibim Xatunun əziz xatirəsinə)*

-Qoşa-qoşa dağlar kimi, oğulların qoy sağ olsun!
Sənə kömək, arxa duran qohumların, qoy sağ
olsun!
Fidan-fidan, tumurcuq tək, balaların qoy sağ
olsun!
Böyüyəcək arzularım, ümidim de, Davud əmi!
Vahidim de, igidim de, şəhidim de, Davud əmi!

Bahar gəlmiş, gülür çəmən, gülə bilmir qaş-
qabağın,
Söyləyirsən, oğlum yoxdur, nə mənası
yaşamağın!
Tək deyilsiz, tək deyilsən, yaxdı səni sinə dağın!
Böyüyəcək arzularım, ümidim de, Davud əmi!
Vahidim de, igidim de, şəhidim de, Davud əmi!
Deyirsən ki, dözəmmirəm, dünya dardı, neyləyək
biz?
Hər bir eldə, hər bir evdə şəhid vardı, neyləyək
biz?

Qarlı qışdan sonra gələn xoş bahardı, eyləyək
biz?
Böyüyəcək arzularım, ümidim de, Davud əmi!
Vahidim de, igidim de, şəhidim de, Davud
əmi!

Oğul verdin sən Vətənə, bax bu eşqin
qalacaqdır!
İgidləri ana doğmur, qəhrəmanlıq ulu haqdır!
Sənin borcun, ey mərd ata, şərəf ilə
yaşamaqdır!
Böyüyəcək arzularım, ümidim de, Davud əmi!
Vahidim de, igidim de, şəhidim de, Davud
əmi!

Körpə-körpə fidanların sənsiz pərişandır indi,
Ata gəzir, baba gəzir, gör bir nə zamandır
indi?
Oğul dərdin ağızlarda yanıqlı dastandır indi...
Böyüyəcək arzularım, ümidim de, Davud əmi!
Vahidim de, igidim de, şəhidim de, Davud
əmi!

**Şəhid oğul itkisinə, şəhid ər itkisinə mətanətlə dözən, Vahidin iki körpə övladını tək böyüdən Xatun bibimə;**

-Mərd doğuldun, ər qızısan, igid soylu, Xatun
bibi!
"Nəbilər" deyilir sizə, ağır öylü, Xatın bibi!
Dözdün ərənlər sayağı, sevinməsin naməd, yağı,
Ucalar alovlu, hoylu yenə də Vətən bayrağı
Böyüyəcək arzularım, ümidim de, Xatun bibi!
Vahidim de, igidim de, şəhidim de, Xatun bibi!
Müjdə ver, ürəkdən gülsün, yaralı Vətən sevinsin,
Yerisin ellərim bəlkə, bu dərdi çəkən sevinsin,
Bir kərəlik ölsün düşmən, şəhidim qəlbdən
sevinsin!
Oğulun oğluna toy et, elin, mərəkən sevinsin!
Böyüyəcək arzularım, ümidim de, Xatun bibi!
Vahidim de, igidim de, şəhidim de Xatun bibi!

Bilmirən necə deyim ki, bu dərdinə əlac olsun!
Çiçəklənsin Vətən düzü, sevinən yal, yamac
olsun!
Gün gəlsin ki, kafir düşmən yenə bizə möhtac
olsun!
Böyüyüb şəhid balası , elin başına tac olsun!
Böyüyəcək arzularım, ümidim de, Xatun bibi!
Vahidim de, igidim de, şəhidim de, Xatın bibi!

## Vətən yolunda Şəhid olmuş igid əmim oğlu Vahidin dilindən:

-Vətən deyib and içmişdim, əlimə silah alanda,
Ana, ata, ağlamayın ömrüm yarıda qalanda,
Mən sevirəm Ana yurdu, qoymadım düşməni yaxın,
Məzarımı ziyarətə gəlir hamı axın-axın!
Mən arzumu, ümidimi, Vətənimə bağlamışam,
Vətənimə məhəbbəti ürəyimdə saxlamışam!
İndi də ruhum duaçı olacaqdır Vətənimə,
Vətənimin ağ günündə güləcəkdir ruhum yenə!
Böyüyəcək arzularım, ümidim de, ANA Vətən!
Vahidim de, igidim de, şəhidim de, ANA Vətən!

## Müəllifin sözü:

-Laylanı bibim çalmışdır, öyüdü əmim vermişdi,
Sənin kimi əzizlərim köksün Vətənə gərmişdi,
Əmin qızı Vəfan hər gün sorğu qurub, sual edir,
"Vəfalılar deyin bizə!"-hər dəfə həsbihal edir...

Torpağımda açan güllər, gör səni kimlər dəribdi?
Ana Vətən neçə dəfə belə imtahan veribdi.
Ana torpağım, uğruna igidlər qurban gediblər,
Həmin anda lazım olan işləri onlar ediblər!
Böyüyəcək arzularım, ümidim de, Ana torpaq!
Vahidim de, igidim de, şəhidim de, Ana torpaq!

12.12.2011

## Barat Vüsal, de əhvalın necədir?

Səməd Vurğun şöləsinin adamı,
Səməd Vurğun nəfəsinin davamı,
Səməd Vurğun ləhcəsinin tamamı,
Barat Vüsal, de, əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Qorqud ruhum getdi çıxdı hanlara?
“Can!”-demişəm, “Can!”-söyləyən canlara!
Neyləmişdik başı batmış yanlara?
Barat Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Pendirin dürməyi, nəhrənin yağı,
Qatın bir-birinə balı-qaymağı,
Tamaha düşübdü, bu gavur yağı!
Barat Vüsal, de əhvalın necədir,
Söylə görüm, kefin-halın necədir?

Qarlı dağın səngəri, qalası var,
Barlı bağın pencəri, lalası var,
Şairlərin sən kimi balası var,
Barat Vüsal, de, əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Mustafanın ağrısı var deyirlər?
Səhlədara, Talıba xoş xeyirlər,
Gülsənəmdən, Tamelladan şeirlər,
Batar Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Şair Saqif mənim üçün söz dedi,
Dayandurla Zamə̇ddin lap düz dedi,
Eyyub Paşa kövrəlmişdi az dedi,
Barat Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin halın necədir?

Elçin qardaş mənə yaman iş gördü!
Toplu çıxdı, elə bildim tuş gördüm!
Nüşabəylə Xuramanı xoş gördüm!
Barat Vüsal, de, əhvalın neçədir?
Söylə görüm kefin, halın necədir?

“Göyəzən”in “Xüsusi” nömrəsində
Gülayamız mənə gözəl söz yazıb!
Gizlətmərəm, nə yazıbdı, düz yazıb!
Barat Vüsal, de, əhvalın necədir?
Söylə görüm, kefin, halın necədir?

Qayalılar xeyirdə var, şərdə var,
Umu-küsü dünyada hər yerdə var,
Allah verən saray-zərdi, dər divar,
Barat Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Dərya dərin, möhnət ağır, çıxılmaz,
Ağlı olan şiş qayadan yıxılmaz,
Müdrik insan hər söhbətdən sıxılmaz,
Barat Vüsal, de, əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Təbrizimdən Aqşin qardaş gəlibdi,
Mənə çoxlu kitab, jurnal veribdi,
Türkiyədən Səlcuq Pekər bilibdi,
Barat Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Özüm bir çırağam, sözüm dosta nur,
Mən dediyim bütün olmazlar olur,
Dünya bu gün kəmənddədir, vurnuxur,
Barat Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?
Şair səxavətlə sözü paylayar,
Tərlan könlüm alosmanda oynayar,
Süfrəm üstə samovarım qaynayar,

Barat Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Rəcəb başçı məclis qursun, düzləsin,
Teymur müəllim, Nəriman qağa gözləsin,
Nizamimiz, İlhamımız söz desin,
Bart Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Bir sözüm var, gündüz çıraqla ara,
Bir eşqim var, söyləmişəm dağlara,
Arxalandım səni kimi dostlara,
Barat Vüsal, de, əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Pencər dəstələdim göy biçənəkdən,
Kəklik xəbər verdi güldən-çiçəkdən,
Halısanmı dağda-daşda çisəkdən?
Barat Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Qada-bala qalsın bizdən uzaqda,
Fikrim qalıb, həm aranda, həm dağda,
Səni kimi qardaşım var Qazaxda,
Barat Vüsal, de, əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Sərt qayasan, üzün bərkdi, könlün saf,
Bu dünyadan o dünyaya sərhesab,
Bacını bir yada sal, ay nainsaf!
Barat Vüsal, de əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

Zərəngizin öz yolu var, izi var,
Ürəyində ocağı var, közü var,
Varlığında dostlarının özü var,
Barat Vüsal, de, əhvalın necədir?
Söylə görüm, kefin-halın necədir?

18.12.2017-ci il.

## "Vəfam mənim"

*Poemamdan bir parça*

Qoy bilsin, eşitsin mənim torpağım!
Pozulan zamanda büsat, növrağım,
Bir igid bu qədər cəfa çəkibdi!
Vətən dar ayaqda olan zamanda,
Oğul tək qeyrəti Vəfa çəkibdi!!!
Bu sözü demərəm, şahid olmasa!
İgidlik yaranmır, igid olmasa!
Bütöv bir el mənim şahidim bu gün,
Qoy rahat uyusun igidim bu gün!
Ürəyi, eşqiylə Vətən sevənim!
Onun sevgisinə siz də güvənin!
Bu sevgi ellərə çatan sevgidi,
Vətən boyda qəlbdə yatan sevgidi,
Düşmən göydən alov tökməsin deyə,
Göylər uçub yerə çökməsin deyə,
Çiynini dağ kimi tutan sevgidi!
Vətən boyda qəlbdə yatan sevgidi!

## Tənha qayıq

*(Unudulmaz Nurəngiz Günün əziz xatirəsinə ittihaf edirəm)*

### E p i l o q

Üsüdür könlümü qəmli bir sazaq,
Nədir bu hissimi titrədən mənim?
Sanki gözdən uzaq, xəyaldan uzaq,
Elə bil, qərq olub dəryada gəmim?

Hər ömrün özünün xatirəsi var,
Göynədir qəlbimi həyəcanlari…
Bir zərif sairin hicran səsi var,
Sanki bahar gəlir, əridir qarı...

Çəməndə çiçəklər dəyir başbaşa,
Göydə tala-tala bulud oynayir,
Təbiət gözəldi, dünya tamasa,
Beynimdə xəyallar məni qinayir...

Ruhum ahəstəcə ötür nəgməsin,
Bir ömür soraqlar, bayatı ilə,
Getmir qulagımdan yanıqlı səsi,
Tanıs ol, bir sair həyatı ilə…

Dəryanın üzündə tənha bir qayıq,
Üzür taleyindən xəbərsiz, küskün...
Tanrım, insanlığın adı gələndə,
«Hicranlı dastan»lar yazılır hər gün...

İnsan dənizində bir Ana üzür,
O tənha, kimsəsiz qayıq kimidir!
Bağrının başında iki qaynar göz,
O husa getsə də, ayıq kimidir...

Bir hikkə, bir övkə alıb canını,
Getdiyi yolun sol, sagını bilmir!
Yasayır esqinin “məğlub” anını,
Bu həyatın hicran dağını bilmir?

Nədir o alagöz gəlinin səhvi?
Yoxmu o günahsız körpənin ahı?
Bir səhvi bir insan etməzdən qabaq,
Başının üstündə görsün Allahı!

İstedad beləmi qorxulu olur?
İstedadı niyə məhv etsin zaman?
Bu yurdun, torpağın övladıyıq biz,
Habil, Qabil yaddan çıxmır, ay aman!

Dərs almır bu dərddən nadan kimsələr,
Gəlir başımıza nələr, ay nələr?
Bir körpə quzusu qoynunda, yalnız,
Bir ahu inləyər, göynəyər, mələr!

Mürüvvətsiz insan yanmaz, usanmaz!?
Körpənin, ananın haqqını qanmaz!
Bir yadın qəlbində ürək odlanar,
Bir dogma kənardan baxar və yanmaz!?

Nədir insandakı üzüdönüklük?
Adəmi biganə yaratdın, Allah!
Həvva etdiyinə olmusdu pesman,
Adəm oglu etdi daha çox günah!

O körpə əllərdə göyərçin kimi,
Sevilib, öpülüb, bəslənmək istər.
İndi ona isti Ana qucagı,
Bir azca dincəlib, süslənmək istər!

Nə yaxsi həyatda yaxsı insan var!
Nə yaxsı yaxsılar, hələ ölməyib!
Nə yaxsı dar günü, anı, qanan var,
Yaxsının qədrini bilən, yanan var!

Qağayı üz tutub uca göylərə,
Dənizdən kamını almayib gedir,
Bir qayıq yurd seçib dərya üzündə,
Hey üzür, yolundan qalmayıb, gedir!

Dənizdə fırtına, dənızdə tufan,
Bu qayıq fərqinə varmayıb üzür?..
Balası qoynunda, göylə üzbəüz,
Dərdin dəhsətini görməyib, üzür?

Nədir bu sonanın fikri görəsən?
Yaxşını-yamanı görməyib gedir:
Tanrım, özün ona qüvvət verəsən!
Bəlkə, o, heç bilmir, indi nə edir?...

Bir ömür dastanı baslayır yalnız,
Bu həyat heç zaman namərdə qalmaz!
Yaxsı deyib mərdlər, ərənlər bunu-
Aslanın erkəyi, disisi olmaz!

Köksündə nəgmələr, esqi gözündə,
Nurəngiz Gün belə düzəldi yola.
Həyatda çox enis-yoxus görəcək,
Bir ömür sürəcək, xeyirlər ola...

Jaləsi, körpəsi susub, pərisan,
Bu körpə həyatın müjdəsi ona!
Dəyisəcək günlər, dönəcək dövran,
Bu qızla fəxr edib, güləcək Ana!

İndi isə zalım zaman əlində,
Lal-dinməz, nigaran bir şair yanar,
Bayatı dilində, seir dilində,
Yeri də, göyü də həqiqət sanar!

Çox qadir, çox əmin bir həqiqət var!
Haqlının haqqını haqsıza vermir?
Görəndə ki,  insan haqqı tapdanır,
Bir haqq asiqini güdaza vermir…

Qəlbinin, ruhunun oxsarı olan
Bu ana bir bala böyüdür bu gün,
Dilinin kəsərli tutarı olan,
Bir övlad böyüdür, o, sözübütün!

Seir, nəgmə ilə böyüdü bu qiz!
Ananın nəfəsi, günəsi oldu!
Zəkalar içində parlaq bir ulduz!
Bir sair Ananin haqq səsi oldu!

Ana min naz ilə bəslədi onu,
Ana istəyini onda tapırdı!
Ana gələcəyə səslədi onu!
Qız ayla, illə yox, anla artırdı!

“Bir yandan baglayan bir yandan açar!”–
Söylədi bu sözü qadir babalar!
Qızın nəfəsində Xızır nəfəsi!
Sanki gözlərində nur çesməsi var!

Xaliq bəndəsini sevirsə, əgər,
Ona xeyirli bir övlad bəxs edər!
Övladın qədrini bilməyən nakəs,
İsıqlı dünyadan naümid gedər!

Ürəyində hicran yarası olan,
Vəfalı, sevdalı Nurəngiz Günüm!
Kürəyində dərdin şələsi olan,
Uğurlu sədalı Nurəngiz Günüm!

Agrını, acını şəkər tək yedi,
Öyündü öz ciyər parası ilə,
Bir Ana esqini göylərə dedi,
Qorudu gözünün qarası ilə!

Ana bilməyirdi, nədir günahı?
Alışıb bağrının başı yanırdı!
Necə açılacaq görən sabahı?
Ala gözlərinin yası yanırdı?

Ürəyi məzar tək, buz kimi, soyuq,
Bir nası tək qoydu Günəşi getdi!
“Əlvida!”-demədi, öpüb gözündən,
Ona miras qoydu, göz yaşı getdi!

Necə təlatümlər, fırtınalar var,
Bəs o, bilməyirdi bunu, görəsən?!
Dəryada qalmışdı ciyər-parası?
Bəlkə, çatlayırdı, yanırdı qəlbdən?

Çox ağır sınaqlar yaşadı xalqım!
Çörək baha oldu, ömürlər ucuz?
Yanırdı xalqının dərdinə, qəlbən,
Bu şair, nəğməkar, bu sevdalı qız!

Gah, 20 Yanvar harayı çəkdi!
Gah da, Xocalıya ağılar dedi!
Öz dərdi yadından çıxdı büsbütün!
“Yırtıcı imperya dağılar!”-, dedi.

Bir əlində kini, qəzəbi gəzdi,
Vaxt oldu hamıya əsəbi gəzdi,
Başı qarlı dağlar dözməzdi buna,
Bir sair vüqarla əzaba dözdü...

İranda qalıbdı əmim deyirdi,
Dəryada qərq olub gəmim deyirdi,
Taleyin hökmünə, bax bir, İlahi?
Nəslimə dağ çəkib səmum deyirdi?!

Əsilzadə ikən şair Nurəngiz,
Ömrü məşəqqətli yollardan keçdi!
Zamanın işinə bax bir, ay Allah!
Xəzan gözləyirdi, bahardan keçdi???

Doğmusdu alnına haqqın günəşi,
Övladı xeyirli bir övlad oldu!
Dönüb-dəyisdikcə neçə boran-qar,
Bitişdi yaralar, qəlbi sad oldu?

İndi təskinlik də, büsat da ona,
Ağıllı, istəkli Jaləsi oldu!
Günəs tək nurunu yaydı cahana!
Mənzili bir üfüq haləsi oldu!

Sözünün dadını duyduqca zaman,
Bir sair sözünə, bax, əsir oldu,
Onu bəyənməyən, unudan, danan,
İndi hər əmrinə müntəzir oldu!

Tanrı unutmayır yaratdığını,
Unutqan deyildir, o Kərəm-Allah!
Sairin, dərdini özü biləndir…
Elə sairim də, haqqa güvəndi!

Qəlbində gül açdı arzu, diləyi,
Nurəngiz Gün necə sevindi, baxın!
Ucaltdı adını ömür mələyi,
Dogma da, yadlar da olubdu yaxın!

Arzusu gül açır sair ananın,
Sözü söyləməkdə mahir ananın,
Hər yerdə ucadan deyilir adı,
Unudulub adı onu dananın!

Zaman, əlahəzrət zaman! Sən varsan!
Səni dananların özü qul olur!
Tapdansa, ayaqda, körpə bir çiçək,
Sənin hökmün ilə qızılgül olur!

Onun rayihəsi tutub cahanı,
Hamı həsəd ilə çəkir adını!
Bir vaxt vicdansizca arxa çevrilən,
Qəfil unudulan tənha qadını!

Yazir simfoniyalar, elegiyalar,
Xocalı dərdinə matəm saxlayir!
Bu unutqan millət gülür, sevinir...
Sair, Vətən üçün hər gün aglayir!

Bir sair qəlbini qırırsa, bir kəs!
Qoy bilsin, ən böyük günah edibdir!
Bir sair sözünü hər kəs deyəmməz,
Deməк istəyənlər çox ah edibdir!

Söz demək sairə verilib basdan!
Sair doğulubsa, qoruyun onu!
Sairin arzusu keçərək daşdan,
Sonradan göstərir kim oldugunu!

Tanrının nəzəri Günün üstədir,
Balası çoxundan bas olub bu gün!
İndi pərvanələr dəstə-dəstədir!
O nakəs kiməsələr ças olub bu gün:

Nə idi o məsum qızın günahı?
Necə götürmüsük, axı, bu ahı?
Təzədən oyanıb insanlıq deyən?
Bu gün o körpədir sənin pənahın?

Yan, alış, ey qafil, etdiyin işə!
Cəllad! Söylə yuva dağıdılarmı?
Sənin hikkən varsa, iradın varsa,
Bunda bir mələyin günahı varmı?

Yox, daha gec oldu, mənlik deyil bu,
Hər kəs günah yükün özü çəkəcək!
Gülşən bagçasında əlləri ilə?
Əlvan çiçəkləri sair əkəcək!

Çiçək də sevinir, əl də sevinir,
Təbiət hər seyi nə gözəl verir?
Arzu da, dilək də, gül də sevinir,
Bəli, qadir Tanri gəlhagəl verir!

Dəryada bir qayıq, önündə bayraq!
Üzür, gəmilərə komandan kimi!
Analar içində bir Ana oyaq!
Gülür gələcəyə, o, Zaman kimi!
(Sevirəm, mən onu öz anam kimi!
Gülür gələcəyə, o, Zaman kimi!)

## *Proloq*

Sairlər içində gözləri yaslı,
Bayatı söyləyən Nurəngiz Gündür.
Xocali dərdiylə biz bası daslı...
Yanarıq birəbir, böyük hüzndür!!!

Elin sənətkarı yazdı bu dərdi,
Biganələr susub, nəfəsi gəlmir,
Dünyaya demək də azdı, bu dərdi-
Yayaq, bilsin bəşər, çoxları bilmir!

Gəlir gur nəfəsi ekran boyunca,
Bir sair yer-göyü ittiham edir!
Gülmədi bir kərə, dərdi duyunca!
Hər gün səhidləri ziyarət edir!

Köksündə nəgmələr, dilində ağı,
Mənim Nurəngizim dünyadan köçdü,
O getdi, yas tutdu Vətən torpagi!
Azadlıq nəgməsi yaradan köçdü!

Yazdı yola, izə günəsə şeir,
Tufana, dənizə, atəsə şeir,
Tər gülə, çiçəyə həmisə şeir,
Bir ömür, bir həyat, bir pesə-şeir!

Yurdumun bu kövrək qızı göyçəkdi,
Gördüyü hər gülün nazını çəkdi!
Bəzən bir çiçəyə könül bağladı,
Sanki bir də onu görməyəcəkdi!

Adı könüllərdə qaldı nəğmə tək,
Nurəngiz Gün adlı bir dərd dasıyır!
Sən saydığını say, ey namərd fələk,
Qəlbimdə bir sair esqi yaşayır!
Nurəngiz Gün adlı bir dərd dasıyır…

06.06.2010-cu il.

## Bir poema

Oğul *(Şəhid Elgün İsmayılovun əziz xatirəsinə)*

### *Epiloq*

Oğul-bir ocağın yanar şamıdır,
Oğul-Vətəninin şərəf-şanıdır,
Babalar mülkündə böyüyən oğul,
Ataların xalqa ehtiramıdır!
Vətən dara düşsə, oğul dayaqdır,
Vətən sərhəddində oğul oyaqdır,
Yurdun qeyrətini qoruyan igid,
Xalqın taleyində nurlu çıraqdır.

Oğul igid olsa, artar şöhrəti,
Sevindirər xalqı, eli, milləti...
Qəhrəmanlıq üçün yarandı bu xalq,
Vətəni, Ananı sevəndi, bu xalq!

Oğul, millət üçün daim alovlan,
Qürurlu ol, başda, ucada dayan!
Vətəni sevəsən doğma ana tək,
Köksündə bir vura Vətənlə ürək!

Öncə Vətən borcu, unutma bunu,
Xidmətinlə göstər oğulluğunu!
Vətənə "can!" söylə, "can!" de hər zaman,
İgidlər yetirib bu Azərbaycan!

Vətən–haqqdan bizim ocağımızdır,
Vətən–sabahımız, dayağımızdır,
Vətənin qədrini gərək biləsən,
Vətən çörək deyil, onu böləsən!

Bölmə torpağını, bölmə heç zaman,
Bölünə–bölünə puç olduq, inan!
Gərək itkilərin yeri bilinə,
Torpaqlar birbəbir geri alına!...

Bir oğul əlində yüksələn bayraq,
İgidini arar dara düşəndə!
Verdi şöhrətimə minillik soraq!
Elgün qurban getdi lazım gələndə!..

Qopdu Qarabağın tufanı bir gün,
Vətən göylərini buludlar aldı!
İstiqanlı idi, igiddi Elgün,
Birbaşa Bakıdan cəbhəyə gəldi!

Adi "çağrışçı"ydı bir zaman Elgün,
Hərbin sirrlərini öyrənirdi o!
Əsl döyüşçü tək bütün cəbhənin,
Döyüş yerlərini öyrənirdi o!

Atası qələmi qoyaraq yerə,
Silah qurşanaraq, döyüşə getmiş!
Oğul da atadan görür bir kərə,
Ata etdiyini oğul da etmiş!

Dağbəyi düşünüb, gəlib qərəra, (1)
İndi komandir tək cəbhədədir o!
"Bakı" qəzetində müavin idi,
Bu günsə döyüşdə lap öndədir o!

Oğul da, ata da döyüşlərdədir!
Budur yurdumuzun eşqi, əməli!
İndi hər ikisi səngərlərdədir,
Tarix də belədir, bu gün də, bəli!

Atanın yoluyla gedir oğullar,
Ata Vətən üçün oyaqdır bu gün!
Oğul da düşünür verir son qərar,
Onunçün Vətəndir hər şeydən üstün!

Hərbin də özünün qanunları var,
Vətənin bağrını sökər yağılar!
Tarix tez yetirir igidlərini,
Hər gün qəhrəman bir oğul doğular!

Fikri qəti idi bu gənc oğlanın,
“İntiqam!”-deyərək düşmüşdü yola!
Körpənin, qadının, ölən qocanın,
Ahı qoymadı ki, o, təhsil ala!

Həm tələbə idi ali məktəbdə,
Həm də, əməkdaşdı qəzetdə Elgün,
Neçə talelərə imza atmışdır,
Özü tarix kimi anılır bu gün!

Tələbə dostları, müəllimləri,
Kövrək xəyallara dalmışdı yaman,
Cəbhəyə yollandı, Vətən əsgəri,
Torpağa can dedi, bu igid oğlan!

On doqquz yaşına girmişdi təzə,
Anadan, atadan o doymamışdı!
Vətən əbədilik verilir bizə,
Vətənində düşmən hal qoymamışdı!

Qırmızı lalələr açılmır daha,
Qırmızı güllələr açılır yaman!
Bu gündən bir ümid yoxdur sabaha,
Düşmən hücüm edir hey dayanmadan!

Səhərin sözünü güllələr deyir,
Torpaq od püskürür, qurğuşun yeyir!
Bir igid, bir oğul sorağında yer!
Ağır toplar udur, mərmi çeynəyir!

Cəbhəyə yollanan igidlər min-min,
Hamısı Elgünün dostu, yoldaşı,
Yumruqlar düyülmüş, əsəblər gərgin,
Bu qeyrət döyüşü, Vətən savaşı!

Hey plan çəkirdi vuruşum deyə,
Vətən eşqi yaman güc gəldi ona!
Könüllü getmişdi Elgün cəbhəyə,
İnanmışlar onun məğrurluğuna!

Döyüşdü Füzuli cəbhəsində o,
Horadiz bir gündə azad edildi!
Yeni qələbələr həvəsində o,
Dostları içində hər an seçildi!

Güllə yağışının içindən Elgün,
Hünərlə, üzüağ çıxmışdı bu gün,
Aslan balası tək gözündə qəzəb,
Düşmən səngərini dağıtmış bütün!

Bu əsgər yaşından qat-qat hünərli,
Bu əsgər Koroğlu, Babək təpərli,
Mehdilər, Həzilər dirilmiş sanki,
Elgünlü torpağım oğul səngərli!

Elgünün çiynində dayanır bilin!
O qanlı səngərin ağırlıqları,
Qüvvələr  dəyişir, düşmən yenilir!
Bu körpə əsgərin gülür dostları!

Sevinir komandir, sevinir qəlbdən,
Qalibiyyət Vətən qələbəsidir!
Elgün tərifLənir, əmr verilir,
Qələbə əsgərin zəfər səsidir!

Komandanlıq ona təşəkkür edir,
Mükafat verilir, işi öyülür!
Cəbhədən xoş xəbər anaya çatır,
Ananın sevincdən gözləri gülür.

(Durur komandirin məktubu indi,
Qəhrəman bir ömrə yadigar kimi!
Əzbərləyib ana hər sətirini,
Gülümsəyir sanki, oğlu var kimi!)

Əhsən, halal olsun, sənə ey ana!
Vətən fəxr eləyir adınla bu gün!
Bir igid, ər oğul verdin cahana,
u eşqin dünyada hər şeydən üstün!

Yurdumun nazənin,  gözəl gəlini!
Sən oğul böyütdün, oğul yetirdin!
Vətən göylərini bulud alanda,
Elinə işıqlı bahar gətirdin!

Bu gün ana qəlbin ağrımasın qoy!
Çalınsın qəlbində qələbə himni!
Dar gündə Vətənin dayağı oldu,
Balan məşəl kimi yaxdı qəlbini!

Ölən şəhidlərin əvəzinə də,
Döyüşdü Elgünüm, yanda dostları!
Tək çıxdı dağların zirvəsinə də,
Boylandı od tutmuş Vətənə sarı!

Güllələr biganə igid qanına,
Toplar gurultuyla deyir sözünü!
Neçə igidimin qıyır canına,
Qalmayıb Vətənin daha dözümü!

Murovdağ uğrunda gedir döyüşlər,
Bu gün üz-üzədir xeyir ilə şər!
Ölümlə yarılır gecənin bağrı,
Qırğınlarla  açır gözünü səhər!

On doqquz yaşında bu igid oğlan,
On yeddi uğurlu döyüşə getdi!
Meydanlarda hər an, ölüm, qırğın, qan,
Onu haqq savaşı qəhrəman etdi!

Körpə qardaşı da söylədi: “Ana,
Böyüyüm, gedəcəm mən də döyüşə!”
Zaman qərarını verir bir anda,
Əbədiyyət üçün qalır həmişə!

Elgün sədaqətlə xidmət edirdi,
Cəbhədə qan-qada, ölüm-itim var!
Əlində avtomat öndə gedirdi,
İgid öndə getsə, Vətən qurtular!

Başında dostları, silahdaşları,
Elgün əldə silah torpaq qoruyur!
Döyüş meydanının qışı, baharı,
Onun gözlərində durur, uyuyur!

Anası, qardaşı düşür yadına,
Doğma şəhər üçün xiffət də çəkir,
İnstitutut dostları zəng edir ona,
Arxadan xəbərlər bura gec gəlir...

Ana da Elgündən xəbər gözləyir,
Ana nigarandır pozulur halı,
Bibi hər gün "Xəbərlər"i izləyir!
Cəbhə xəbərləri qara butalı!

Atasına çatıb xəbər oğlundan,
Sevinmişdir: "Oğulum, könüllü əsgər!"
Dünyaya sığmayır məğrurluğundan,
Bir ata fəxrini çəkməyir səngər!

O zaman döyüşə könüllü getmək,
Tək-tək oğulların hünəri idi!
Elgünün qəlbində Vətən sevgisi,
Bütün Vətənimin sipəri idi!

Vətəni dar günə düşübdür, əsgər,
Vətənə oğul tək dayaq olubdur!
Elgün cəbhəboyu qoruyur səngər,
Murov zirvəsində bayraq olyubdur!

Bu torpaq əzəldən başı bəlalı,
Bu torpaq oğullar qurban veribdir!
Vətən dara düşüb, "Aman!"-deyəndə,
Hər oğul Vətənə bir can  veribdir!

Murovdağ cəbhəsi qanın içində,
Murov dağlığını unudub bü gün!
Bomba "hökm verir!"  anın içində,
"Qqrad"ın sözüdür hər sözdən üstün!

Düşmənin qəlbinə dağ çəkən səngər!
Bilirsən, nə qədər  oğullar ölür?!
Sayqısız düşməni yanıyır əsgər,
İgidlər nə qorxur, nə geri dönür!

Elgünlər and içmiş: "Ancaq irəli!"
Yanır od içində, alışır Vətən!
O odu, alovu gözlə görməli!
Oğullar cəbhəni bölüşür, bəzən!

Bir ata həsrəti, ana yanqısı,
Cəbhənin bağrında dönür məşələ!
“Vağzalı” sədası qulaqlarında,
Elgünüm torpağı qoruyur hələ!

Nə sevgili vardır, nə yar cəbhədə!
İgidim çırpınır bu dar cəbhədə,
Döyüşlər amansız, döyüşlər qanlı!
Gecikir gəlməyir bahar cəbhədə!

Bənövşə açmağa peşiman kimi,
Dərd-qəm avazımır, sis-duman kimi!
İgidim oyaqdır, əsəbi, gərgin,
Göydən od ələnir, göz yuman kimi!

Hamıdan qayğılı, sevdalı Elgün,
Xəyalən dolanır mahalı Elgün,
Anasının ilki, əzəli idi,
Nəsildə istəkli, butalı Elgün!

Əmilər, dayılar qurban deyiblər,
Elgün dönən günə, qayıdan günə!
Deyir öz sözünü deyir güllələr,
Güllələr baxmayır ana sözünə!

Bir igid qəlbində dil açır ürək,
Ürək qələbəni görmək istəyir!
Aman, azğın düşmən, vəfasız fələk!
Heyif bu gün sözü güllələr deyir!

Bəlkə sevdalı bir yar sevmişdi o,
Barmağında nişan üzüyü yoxdur.
Qəlbi məhəbbətlə çırpan igidin,
Həyatdan bir zərrə istəyi yoxdur!

Bircə anasını görəydi bu gün,
Ana tellərinə sığal çəkəydi!
Vətən sevgisiydi varlığı bütün,
Aman, ürəyinə güllə mi dəydi???

Necə rəhmsizsən, qəlbi daş güllə!
Heç vəfa, etibar yox imiş səndə!
Həyatı bölüşür əsgər səninlə?!
Qana düşəydin kaş, sən qan içəndə!!!

Bir igid gözünü yummuşdu bilin!
Murov dağ dizini yerə qoymuşdu!
Babək xəyallara cummuşdu bilin!
Elgün həyatını zərə qoymuşdu!

Nə lalələr açır nə çöllər gülür,
Ağlayır gözündən ayna bulaqlar!
Toplar alov saçır, igidlər ölür,
Allah! Vətənimdə Tanrı səbri var!

Qartallar lal olmuş, qayalar susqun,
Çağlayan sellərim saçını yolur!
Düşməni udmayır, udmayır uçqun,
Göylərim hönkürür, buludlar dolur!

Bağrında yarrığan, bu ana Vətən,
İgid oğulları əlindən gedir!
Yaralar göynəyir yeri-yerindən,
Düşmən istədiyin-bildiyin edir!

Niyə öz sözünü demədin, Vətən?!
Düşmən yaraladı, bu torpaq dözdü,
Nə qədər səbrli, dözümlüsən Sən???!!!
Deyirəm göy tağı uçsaydı, azdı,

Düşmənin birdirmi, mindirmi, Vətən?!
İgidlər and içdi, keçdi canından,
Minillik dərdinə qurban olum mən!
Torpaq suvarıldı şəhid qanından?!

## P r o l o q

Ana ağlamasın oğul yasında,
Oğul bu Vətənə qurban gedibdir!
Əzəldən bu xeyir-şər dünyasında,
Şəhidlər dilində aman gedibdir!

Elgünüm bir evin şəhidi deyil,
Qaralar bağlayıb, çəkməyin siz dad!
Siz ey doğmaları, ey yaxın, ey yad!
Vətən şəhidinə həyatdır ustad!

Oğullar ucalır öz ad-sanıyla!
Vətən fəxr eləyir qəhrəmanıyla!
Şəhiddən uca bir mərtəbə yoxdur!
Qorudu torpağı qızıl qanıyla!

İndi Elgün yoxdu həyatda, ancaq,
Şərəfli bir şəhid adı yaşayır!
Nəsil ağacından düşdü bir budaq,
Atanın qəlbində odu yaşayır!

Vətən dara düşüb ah deyən zaman,
“Can!”-dedi ürəkdən Vətənə Elgün!
Çiçəyə bürünüb dörd tərəf, dörd yan!
Onun istəyidir gül açmış bu gün!

Arzusu gözündə gülür sabah tək,
Ömrü çiçək ilə qoşadır indi!
Dumanlar yüksəlir, başından ah tək,
Vətən də adını yaşadır indi!

Bu torpaq unutmaz igidliyini!
Elgünüm, tərlanım, qürurun uca!
Oğul tək göstərdin sən mədrliyini,
Oğulsan Vətənə dünya durunca!

Sənin şöhrətini yayacaq ellər,
"Elgün!"-deyə Vətən fəxr edəcəkdir!
Məzərın üstündə ey igid əsgər,
Gələcək nəsillər baş əyəcəkdir!

Vətən igidini sevər əzizlər,
Vətən dara düşsə oğul yar olar!
Hər kəs Elgün kimi, düşünsə bu gün
Ana torpaq gülər, bəxtiyar olar!

Ey, şəhid anası çağrılan ana,
Açma sabahını kədərlə, qəmlə,
Min alqış söyləyir nəsillər sana,
Vətənə borcunu verdin şərəflə!

9. 09-2009-cu il.

## Xocalı

### *E p i l o q*

Xocalı deyilən
Şəhər var idi,
Günəşli, gündüzlü
Səhər var idi!

Şəhər başdan-başa
Gülüstan idi!
Burada hər mənzil
Çırağban idi!

Kim nişan taxırdı,
Kim toy edirdi,
Kimsə dostugilə
Qonaq gedirdi.

Gənclər sevişirdi
Hey gizli-gizli,
Analar, bacılar
Söhbətli, sözlü...
Körpələr çiçək tək
Eli bəzərdi!
Sevimli nəğmələr
Dildə gəzərdi!

Şəhər çox firavan,
Çox xoşbəxt idi!
Gələn qasırğanı
Heç kəs bilmədi!...

Deyirlər söz gəzir,
Qorxu dolanır,
Dumduru axar su,
Birdən bulanır.

Görəsən deyilən,
Qrxu nədəndir?
Qəlblərə sancılır
Oxu nədəndir?

Nədəndir insanlar
Duyur hər şeyi?
Duyğular titrədir
Bu yeri, göyü?

Kim deyir: “Erməni
Marığa yatır!”
Kim deyir: “Ruslardı
Əlindən tutur”.

Sanki şayələri
Yellər aparır,
Ürəklər elə bil,
Tufan qoparır!

I səs (qeybdən):

“Yox, erməni bilməz,
Silah tutmağı,
Tanrının yaramaz,
Əfəl maymağı?

-Ay kişi, qoxmayın,
Ölməmişik ki!
Hər şərə-şürədən
Qorxacağıq biz?

Bəs bizə nə deyər,
İgid nəslimiz???
Hanı, misri-qılınc?
Babək, Koroğlu???”

Ey adam evladı,
Ey Vətən oğlu!!!
Dəyişib, əzizim,
Mizan, tərəzi.

Yaman çoxalıbdır,
Şərin qərəzi.
İndi bir balaca
Dəmir tətiklə

Elə qırğın qopur,
Düşür zəlzələ!
Getmə hər fitvaya,
Aldanma dilə!

Ehtiyatı əldən
Vermə, anamdı!
Arxayın düşmə, yox,
Çətin zamandı!
İgidlər köksünə
Min dağ çəkirlər!
Başına göylərdən
Alov tökürlər!

Sən ki, əzəl başdan
Həyəcanlısan?
Nə olub, ay balam,
Nə dayanmısan?
Niyə bəndlərini
Qorumursan sən?
Düşmənin bic, tülkü

Yoxsa, bilmirsən?

Amandı, bir belə
Arxayın olma!
Düşmənin namərddir,
Yolundan qalma!
Meydanı atlan keç,
Güclən, qol çirmə!
Sənin yurdundur bu
Yadlara vermə!

Könlü səksəkədə,
Qulağı səsdə,
Düşmən qüvvə yığır,
Dəstəbədəstə!
Yağılar xəlvəti
Plan cızırlar!
Ayıl Vətən! Sənə
Qəbir qazırlar!
Düşmənlərin yaman
Birləşmiş, aman!

Varmı bir çəkinən,
Varmı bir qorxan?!

Balaca bir söz də,
Qəlblərə dəyir!
Bir qulaq as, dinlə,
Tarix nə deyuir?

Yoxsa, yaddan çıxmış,
Səhl Sumbatlar?
Andronuk, Şaumyan,

O xain, qəddar?
Ay kişi, niyə sən,
Ayıq deyilsən???
Qorxmursan, iş görər,

Bu xain düşmən???
Düzələr deyirsən
Düzəlmir işlər,
Düşməni saymamaq???

Bu pis vərdişlər!
Şərə çəpərini,
Çox basdırdın sən!
Bu nakəs düşmənə,

Yol gostərdin sən!!!..
Rəhminlə mərhəmət
Hissinlə hər an,

Uduzdun düşmənə,

Ey xalqım, oyan!!!
Sevdin düşməni də,
Xeyirxah oldun?
Niyə səngərə yox?

Mürvətə doldun?
Nədir ürəyində
Bu xoş niyyətin?
Ey mənim azadə,

Gözəl millətim!
Səni ürəyindən güllələdilər!!!
Yox, yox, kürəyindən
güllələdilər!!!

41-45 deyəndə
Buhenvald yada düşür!
Xatın, ya Xerosima,
Neçə od, qada düşür!

Onlar nədir?
Sadəcə düşmən azğınlığıdır!
Sürəkli atəş açan
Əsgər çılğınlığıdır!

Ölüm! Ölüm!
Heç zaman
Yaxşı deyə anılmaz!
Qanlar axıdılıbdır,
Həqiqətdir, danılmaz!
Lakin, ölüm var, ölüm kimi,
Ölüm var, zülüm kimi!
Yox, heç kəs ola bilməz,
Xocalı elim kimi!..

Bu ölümü yurduma
Kimlər qıydı, İlahi!?
Nəydi bu körpələrin,
Ahılların günahı?
Ahısxa türklərinin
Başlarını kəsdilər!
Bu barbarlar, vəhşilər
Tufan kimi əsdilər!

Bir gecədə yurdumu
Al-qana boyadılar!
Dığa, haxçıx, haystan,
“yan, yan, ov” soyadlılar!

Tarix nə belə zülm,
Nə belə şər görübdür!
Bu yaramaz tayfanı,
Ta binayi-qədimdən,

El dərbədər görübdür!
Babamın qapısında
“Appay!”-yeyib, yallanıb,
Bunlar büqələmun tək,

Dondan-dona hallanıb!
Bu sayqısız yağılar,
Çox da indi qudurub?
Tarix var, səlnamə var!

Arxivlər hələ durur!
İrandan, Türkiyədən
Köçürülən erməni,
Məskən saldı yurdumda,
İndi tanımır məni!?

Torpaq mənim, yurd mənim,
Ölkə mənimdir deyir!
Türkü qırır bir əldən,
Türklər qənimdir deyir!

Yerə-göyə sığmayan
Böhtana bax, ay Allah!
Mənim dilbər yurdumun
Savabı olmuş günah!?

Tikəmi yeyə-yeyə,
Erməni deyir yalan!
Deyir, mənim yurdumdur,
Çıx, yurdumdan müsəlman!

Sözə bax, hikkəyə bax!?
Tanımır məni, nadan!?
Torpağımda oturub,
Torpağımdan çıx deyir!
Bunu o zəlil gavur,
Dilənçi haxçıx deyir!?

Vaxt var idi torbası,
Yaxasında gəzirdi.
Pasalaxlı don geyib,
Vəl minib, dən əzirdi!

Mənim bəy babalarım
İyrənirdi onlardan!
Keçmişini unudub,
Yaman çaşıb bu nadan!

Yağış yağan zamanda,
Ağalar tapşırardı:
“Keçməsin ermənilər,
Gölməçəli yollardan!

Birdən ayaqlarından
Bircə damcı sıçrayar,
Mənim pak müsəlmanım
Gavur çirkə bulayar!

Çıxmasınlar komadan,
Yer -yurd quru olunca!”

Erməni öyrəşmişdi,
Pintiliyə, his-pasa!
İndi qudurub dığa,
Yaman çıxır üst-başa!

Əlində ixtiyar var!
Ona silah, pul verir,

Ağızına dil verir,
Arxa dayanır Mişa!-
Qıraq Azərbaycanı,
Talayaq deyir tamam!

Sən özün kömək eylə,
Yeri-göyü Yaradan!
Yəqin bilmir sonunu,
Bu yastıbeyin nadan!
Eşit mənim sədamı,
Sən ey Xaliqi-Sübhan!..

Bir insan sağ çıxmadı,
Yanan yurddan, binadan!
Mənzillərə od vurub,
Mərmi tökdü havadan!

Bombalar guruldadı,
Qradlar çaxdı, haray!
Biganələr bu dərdə,
Kənardan baxdı, haray!

*

Nə bir əlim yetmədi,
Nə bir ünüm çatmadı!
Əliyalın millətim,
Keşik çəkdi, yatmadı!

“Sapı bizdən baltalar!”
Silahları aldılar,
Döyüşkən, mərd Xocalım
Tənha, yalqız qaldılar!

Dağ təpərli igidlər,
Ər hünərli igidlər,
Silahsız, arxasızdı!
Ağızından od çıxdı!
Yumruğundan qan sızdı!

Gözlərinin oduna,
Ürəyinə qısıldı!
Mühasirə daraldı,
Mühasirə yarıldı!
İdidlərim məhv oldu!
İgidlərim basıldı!..

Əliyalın igidlər,
Səbirindən asıldı!
Silahsız, köməksizlər,
Tanrısına qısıldı!?

Bu sadəlövh millətim,
Neyləyəydi görəsən?
Namərdlərin cəzasın,
Tanrım, özün verəsən!

Başbilənim, başsızım!
Silahsız əlacsızım!
Min dərdə dərman bilən,
Hay desən, haya gələn,
Yandı kül oldu, ellər!
Yada qul oldu, ellər!

Niyə hay salmadıq biz?
Cəm, yekdil olmadıq biz?
Yada verdik torpağı?
Bu ğırğın, bir göz dağı!
Bir eli kül etdilər!
Bir xalqı qul etdilər!...

Çaylarım tək al qanım,
Sel olub, axdı, haray!!!
Göylər yerə ələndi,
Şimşəklər çaxdı, haray!!!
Zirehli tanklar ilə,
Düşmən el yıxdı, haray!!!

İgidlər yumruğuna,
Əzminə arxalandı!!!
Binalarım od tutub,
“Ağban evlər”im yandı!!!

Deməyin “ağ yalandı!”
Bu çox böyük qırğındı!
Bu çox böyük talandı!
Haray, haray, ay ellər!!!

Axan qanlar, çay, ellər!!!
Susdurub, lal etdilər!
Şəhəri kül etdilər!!!!!!
Eşit mən, İlahi!!!

Götürmə Sən bu ahı!
Buhenvaldın, Xatının
Harayı təzələndi!
Zalımın, zülmkarın,

Sarayı təzələndi!
İlahi! Heç sormadın,
Nə qırğındır, nə qandır?!
Qarabağda ölən var!
Xocalıda talandır!..

*(Bakıda hamı vəziyyətdən xəbərsizdir. Xocalılar sürəkli kömək- silah və ordu tələb etmələrinə baxmayaraq, onlara inanan olmur, heç kəs bir tədbir görmür. Milli Məclisin qarşısında cəbhədən gəlmiş döyüşçülər xalqla birgə piket keçirirlər )*

Neçə gündür dalbadal,
Güclü mübahisədir!
Eşitmirlər, qanmırlar,
"Xocalı əldən gedir!"-
Bunu deyən gənc yaman,
Hamını tənqid edir:

“Oturmusuz burda siz,
Deputat kreslosunda!
Can isti, ürək rahat,
Papka qoltuğunuzda!

Nə var, nə yox, o yanda,
Bilmirsiz, xəbərsizsiz!
Düşmən orda nə edir?
Torpaqlar əldən gedir,
Bir-bir satılır yurdlar!
Heç olmasa, utanın,
Çəkinin, a manqurdlar!!!”

Kimə dedi sözünü?
Kim eşitdi görəsən?
Bu gənc özünü yorur...
Qarşıdasa, fəlakət,
Təlatümlü gün durur!

Yağı düşmən üstünə,
Yumruğuyla çıxan mərd!
Sinəsi parçalanıb,

Qanı sel tək axam mərd!
Ölümsaçan tanklara,
Gözünün odu neylər?
Bu birləşmiş şərlərə,
Bircə türk adı neylər?

Yetər ki, qanımızı,
İçdi bu namərd yağı!
Ölümsaçan silahla,
Qocaları, qızları,
Körpə südağızları,
Biçdi, bu namərd yağı!

Dayan, dayan, imansız,
Sayğısız, yağı düşmən!
Bu qırdığın oğuzdur,
Görərsən dağı, düşmən!

*(Mili Məclisin deputatları fövqəladə yığıncaq keçirir. Bəzi deputatlar Xocalıdakı qırğını eşidib, riqqətə gəldiklərini söyləyir. Lakin çox qəribə hadisədir ki, bəzi deputatlar bunu danmağa çalışırlar )*

Milli Məclis lal olub,
Danır bu həqiqəti!?
Milləti qırıb yağı,
Anmır bu fəlakəti???
"İki adam ölübdür"!
Deyir deputat "bacı"?
Kürək verib kürsüyə,
Baxır zala qıyqacı?

Belə də zülm olarmı?
Bundan böyük dərd varmı?
Millətini qırıblar!
Oğul olan susarmı?
Zal qaynayır başabaş,
Gözlər dolu qanlı yaş!
Heç kəsə söz verilmir,
Haqq irəli sürülmür!
Qanlar axıdılıbdır!
Heç bir tədbir görülmür?!

"Hərb naziri" mat qalıb,
Sözün düzünü bilmir?
"Yuxarılar barmağı",

Elitanın maymağı,
Özünü maskalayır,
Sözünü maskalayır!
Xəyalən Xocalıdan
Yığdığı silahları,
Üst-üstünə qalayır.

Yuxarıdan bu “işə”,
“Sbosibo!” alacaq!
Yazıq! Özü bilmir ki,
Bədnam bir manqurd kimi,
Tariximdə qalacaq!

Parça-parça edilmiş,
Vətənimin sinəsi!
Evin tikilsin sənin,
Ay bu Vətən yiyəsi!
Vətən oda qalanmış!
Vətən tamam talanmış!
Qarğa-quzğun daraşmış,
Sinəsi parçalanmış!
Aman, dad eylə Vətən!
Dur! Fəryad eylə, Vətən!
Oğulların, qızların,

Körpə südağızların,
Qocalarin, pirlərin,
Ağbirçək yesirlərin,
Ucdu mələk tək, Vətən!
Soldu çiçək tək, Vətən!

Alışan topağım, heyyyyyyyy!
Dağılan növrağım, heyyyyyy!
Vətən! Balan ölübdür,
Sönübdür çırağın, heyyyyyyy!

Dağdan uçan gəlinlər,
Göy guruldar, yer inlər,
Göydə mələklər inlər,
Görsə, fələklər inlər!

Yumruğuyla tankların,
Üstə gedən ərlərim!
Sinəsini Vətənə,
Sipər edən ərlərim!
Sizin nə günahınız?
Bircə gün də yatmadız?
Vətəni Vətən kimi,
Qorudunuz, atmadız!

Bəli! Qorudunuz siz!
Yanıb kül olsanız da!
Əlif kimi qəhrəman,
Unudulmaz dünyada!
İyirmi dörd döyüşçü,
Sona qədər döyüşdü!
Neçə dəfə oğullar,
Mövqeyini dəyişdi!
Başda Əlif Hacıyev,
Yanında mərd igidlər,
Xeyli düşmən öldürdü,
Yağıları güddülər!
Əliyalın milləti,

Qorudular beləcə,
Düşmənin qaynağını,
Dağıtdılar o gecə!
Ölüm-dirim tufanı,
O gün bərqərar oldu!
İgidlərlə düşmənlər,
Qeyri-bərabər oldu!
Oğullar şəhid oldu!
Bu Vətən şahid oldu!

Çınqıl kimi yağının,
Ortasında tək gülüm,

Qanlı tarix anıdır,
Öz şəklini çək, gülüm!
Yaddaşlarda xatirə,
Xatirələrdə yaddaş!
Öz adını özün yaz!
Axan qanınla, qardaş!
Yerləri şahid gətir,
Göyləri şahid çağır!
Yeri-göyü titrədən,
“Misri” de, “Cəngi” bağır!”,
Çağır, fələyi çağır!
Göydə huri-qılmanı,
Ruhu, mələyi çağır!
Dağı, daşı, buludu,
Çaxan şimşəyi çağır!

Çağır, hər yanı çağır!
Sonsuz qan dəryasında,
Batan dünyanı çağır!
İnsanlıq öldü qardaş!
Bunu kim bildi qardaş?!

Göy uçdu, yer dağıldı!
Demə sözün nağıldı!
Bu dərdi danışmağa,
İnanın, gəlmir dilim,
Mərd adını mərd kimi,
Ucaltdın, mənim elim!
Neyləyək ki, yağılar
Tamam səfərbər idi!
Mənim bədbəxt millətim,
Bundan bixəbər idi???!

Bir eli qırdı yağı!
Min eli qırdı dağı!
Azadlıq yollarında,
Əbədi alovlanan,
Məşəli qırdı yağı!
Xocalı dad elədi!
Gəlmədilər fəryada!
Xocalı dad elədi!
Salmadılar heç yada!

Soraq gəldi Bakıya!
Soraq gəldi dünyaya!

Yandı-yaxıldı ellər,
Millət düşdü ah-vaya!

Qan oldu, qisas oldu,
O gün bizə qalanlar.
Ayaq tutub yeridi,
Dünya boyu yalanlar.
Bakılının yuxusu,
O gün ərşə çəkildi,
Təzə-təzə qəbirlər,
Xiyabana əkildi!
"Şəhidlər Xiyabanı!"
Ağlayan Qərənfildi!
Yenə də ağı deyib,
Analar saç yoldular!
İnsan dənizləriylə,
Meydanlarım doldular!

Bu qədər insan, ya Rəb!
Bir eli qorumazdı?
Nəyimiz çatmır, axı?
Bizim nəyimiz azdı?
Qeyrətimiz, arımız?
Yoxsa, sərvət, varımız?

Silahımız, ordumuz,

Hey basılır yurdumuz!?
Nədir bunun səbəbi?
Kimdir buna günahkar?
Nicat ver, bizə, Tanrı!
Bizi bu dardan qurtar!

Vətən, Vətət, can Vətən!
Yurdu yıxılan Vətən!
Obası yandırılıb,
Eli dağılan Vətən!
Birləşmiş “ağa”lara,
Hürüşən dığalara,
Bircə uşaq bəs edər!...
Yumruq vursaq bəs edər!
Vallah, qaçar dığalar!
Vallah, qusar dığalar!
Ətəyimin yeliylə,
Bir uşağın əliylə,
Vallah uçar dığalar!
Onları öyrədən var,
Tası tərsinə dönmüş,
Sinəsinə xaç taxar!...

Onları öyrədən var, :
Arxasında duran var!
Bu qlobal hiyləni,
O yanlarda quran var!

Bilsinlər ki, bizim də,
Əlimizdə Quran var!
“Bu yan”lar, “o yan”larda,
“Ov”larda və “yan”larda,
Bəlkə daha uzaqda,
Barmaqları duzaqda,

Daha çox işləyənlər,
İşləyib-dişləyənlər!
Qoy yıxılsın, İlahi!
Bizi tək onların da,

Ürəkləri, qəlbləri,
Bir sıxılsın, İlahi!
Hökmünə inanıram,
Bu dərd ilə yanıram,
Göstər gücünü, Tanrı!
Bir al öcümü, Tanrı!
Axı sənsən Yaradan,
Bir qəbildəndi insan,

Qoy duysunlar hökmünü!
Göstər mənə o günü!
Nahaqqı qandır, Tanrı!
Haqsızı yandır, Tanrı!

Bizim igid jurnalist,
Bu dərdə dözənmədi!

Torpaq üstə rahatca,
Hamı tək gəzənmədi!
Nələr saldı yadına,
Nə düşündü bu igid?
Həqiqətçün çırpındı,
Hey döyündü, bu igid!
Dərhal coşdu, qaynadı,
O, yerindən oynadı!...

Düşmənlərin üstünə
Silahsız getdi Çingiz!
Kameranın gözüylə,
Gör nələr etdi, Çingiz?
Kamerası çiynində,
Hərbi geyim əynində,
Göydən od tökə-tökə,

Qırğını çəkə-çəkə,
Cəbhəni gəzdi Çingiz!

Dostunu təskin edib,
Özü də dözdü Çingiz!
Kamera gördüyünü
Gözüylə görürdü, o!
Ürəyi parçalanır,
Dərd-qəmdən
Ölürdü o!

Vətənini nə qədər,
Sevirmiş bu gənc, aman!
Ölməz qəhrəmanları,
Yetirir yalnız zaman!

Çingizi zaman doğmuş,
Vətən üçün bağrından!
Qorxmurdu erməninin,
Dolu tək atəşindən!
Yeni səhifə yazdı-
“Can fəda”lar eşqindən!

Onun igidliyindən,
Qorxurdu qorxaq düşmən,
Onun etdikləriylə,
Bir tarix yaşadım mən!
Gülləbəran altında,
Götürdü şəhidləri,
Kamera yaddaşına,
Ötürdü şəhidlıəri!

**Ç İ N G İ Z:**

Vətən məni çağırır:
O müdhiş gecəni çək!
Vətən məni çağırır:
O nakam körpəni çək!
Vətən mənui çağırır:
Ağbirçək ananı çək!
Vətən məni çağırır:
Beşikdə yananı çək!

Vətən məni çağırır:
Ağsaqqal qocanı çək!
Vətən məni çağırır:
Körpəsi yandırılmış,

O kömür beşiyi çək!
Vətən məni çağırır:

Düşmənlər yandırdığı,
Evi çək, eşiyi çək!
Vətən məni çağırır:
Anasının bətnindən
Zor ilə çıxarılıb,
Soyuqdan donanı çək!
Vətən məni çağırır:
Sinəsi bölümlənib,
Ürəyi çıxanı çək!
Vətən məni çağırır:
Yaraqsız döyüşçünün,
Kəsilən qol, qıçını,
Dağılmış başını çək!
Vətən məni çağırır:
Adına türk deyilən,

Ala gözü ovulmuş,
O məsum sonanı çək!
Vətən məni çağırır:
Baş dərisi soyulmuş,
Gözü ovcuna qoyulmuş,
Sarılaraq asılmış,
Boğazları kəsilmiş,
“Lay divar!” oğlanı çək!
Vətən məni çağırır:

Alovu göyə bülənd
Dam-daşı, pəyəni çək!
Vətən məni çağırır:
Dağı çək, dərəni çək!
Yanan xanimanları,
Qırılmış meşəni çək!
Vətən məni çağırır:
Talanmış bağçaları,
Qarsalmış çəməni çək!
Vətən məni çağırır:
Dağıdılan şəhəri,
Uçulan məskəni çək!
Vətən məni çağırır:
Düşmənin tapdağında
Kül olmuş Vətəni çək!!!
Kül olmuş Vətəni çək!!!
Çəkdim yaddaşa qoydum!
Dərdimi qoşa qoydum!

Tarixlə sirdaş kimi!
Bu lentdə mən də varam,
Cüt, qoşa qardaş kimi!
Tarixə sirdaş kimi!...
Çəkdim yaddaşa qoydum,
Dərdimi qoşa qoydum!...

Bax, necə ər doğubsan,
Yaşa, var ol, ay ana!
Sən özün qəhrəman tək,
Gəlmisən bu cahana!

Bu gənc, igid oğulun,
Hünəri asimanmış!
Könüllü qəhrəmanlıq,
Özü elə vulkanmış!?
Böyük hünər sahibi,
Olmalısan gərək sən,
Bu güllə "yağış"ından,
Sağ və qalib dönəsən!?

Çəkdi elin dərdini,
Kamera yaddaşına,
Göydən odlar töksə də,
Dayanmadan başına!
Hər körpəyə, qocaya,
Doğma kimi ağladı,
Vulkan kimi bağırdı,
Tufan kimi çağladı!

Nə idi bu igidlik?
Nə idi bu çırpınma?
Babəkmi dirilmişdi?
Dönmüşdü yaddaşına?
Dünya durduqca bilin,
Bu igidlik qalacaq!
Yeni gələn nəsillər,
Qisasını alacaq!

-İgidlər torpaq olub,
Torpağına qarışdı!
Köksün üstü qan gölü,
Xocalım, nə qarğışdı?
Düşmən gözü kor olmuş,
Sən demə qəsdinədir!
Bu yaramaz qatilin,
Bilmədim qəsdi nədir?!

-Xocalım, gözəl şəhər,
Neçə elin var idi?
Ürəyinin başında,
Heç nisgilin var idi?

Obaların sahibsiz,
Dağlar düşmənə qaldı!
Gülüstanın, çəmənin,
Ağlar, düşmənə qaldı!
Unutduq tarixi biz,
Cəzamızdır çəkirik!
Düşmənə nifrət adlı,
Acı toxum əkirik!

-Qabaqkı qırğnlarım,
İzsiz, soraqsız qaldı!
Xocalı, dəhşətini,
Çingiz tarixə saldı!
Əvvəlki qırğınları,
Bizə unutdurdular!
Xocalı unudulmaz,
Çingiz var!!!
Kamera var!!!
Xocalı unudulmaz!
Çingiz var!!!
Həqiqət var!!!

-Xocalım bir gül idi,
Vətənimdə, elimdə!
Yanılqlı bayatıdır,
İndi ana dilimdə!

-Əzizim, qandı, haray!
Dörd yanım qandı, haray!
Namərdlərin əlində,
Xocalım yandı haray!

Əzizim, od tutubdur,
Od yanıb, od tutubdur,
Qırılıb xocalılar,
Torpağı yad tutubdur!

-Əzizim, nədən oldu?
Sovulub, gedən oldu,
Xocalı tək el yandı,
Qəlb zədən-zədən oldu!
-Əzizim, nədən deyim?
Ruh deyim bədən deyim,
Xocalı oda yandı,
Ağını nədən deyim?

-Əzizim, atmadım mən,
Oyaqdım, yatmadım mən,
Xocalı tək torpağı,
İtirdim, satmadım, mən!

Əzizinəm, güc gəldi,
Yağı mənə güc gəldi,
Talandı mərd Xocalım,
92-m kəc gəldi!

-Əzizim, ucdu neylim,
Əlimdən ucdu neylim?
İndi Xocalı ruhu,
Bir qərib quşdu, neylim?!

Əzizim, göyün altı,
Talandı göyün altı!
Bu qırğını eylədi,
366! Üç yüz altımış altı!

Əzizim, oldu köçdü!
Dərd bizə oldu, köçdü!
Yer kürəsi eşirsin!
Xocalım doldu, köçdü!

Əzizinəm binələr,
Yada qaldı binələr!
Nola, igid ərlərim,
Düşmənləri yenələr!

Əzizinəm adətdi,
Dərdi yenmək adətdi,
Düşmənə əsir düşmək,
Yesir olmaq pis dərdi!

–Əzizinəm pis dərdi,
Qoyma, gələ pis dərdi,
Azad ol, mənim könlüm,
Qov ürəkdən pis dərdi!

Əzizim, çəkərik biz,
Hər dərdi çəkərik biz,
Bizdə nifrət yox idi,
Yenidən əkərik biz!

Əzizim, nə düşməndi?
Yüz feli, yüz fəndi,
Atalar dedi: "Düşmən,
Yüz il qala düşməndi!"

–Əzizim, üz qarası,
Yamandı üz qarası,
Məğlubiyyət pis şeydi,
Onun da yüz yarası,

Əzizim torpaq gedir,
Əlimdən torpaq gedir,
Sevinməsin düşmənlər,
Başımın üstə Haqq gedir!

–Əzizim zəlil olduq,
Şah idik, zəlil olduq!
Düşmən yenilmədisə,
Şikəst və əlil olduq!

Əzizim, damsız qaldıq,
Binəsiz, damsız qaldıq,
Özgəyə ümid olduq,
Piltəsiz, şamsız qaldıq!

Aləmə car çəkdi
Sarı rus bir vaxt,
“Qırdı alman bizi,

Qırdı dünyanı!”
Almanın əsgəri
Mədəni imiş?
Çəkirdi tüfəngi,
Alırdı canı!
Bəs sənin əsgərin
Neylədi, söylə!?
Bakıda törənən
20 Yanvar!
Tiflisdə etdiyin
9-u aprel!
Qazxıstandakı
Qırğın, qadalar!
Bəs Rumın elləri?
Bəs Əfqanıstan?
Çeçen çıxa bilmir,
Qan çanağından!
İndi sən verdiyim
Sualdan utan!

-Söylə, dinc Xocalı
Neylədi sənə!?
Dağ çəkdin!
Dağ çəkdin!

Cavab ver mənə!
Başını qaldırıb,
Haqqı görsənə!
Bir insan cəlladı,
Bir qəssab, əgər,
Sənə təhrik ilə
Bu hökmü verər,
Bəs sənin insafın
Hardaydı, qatil!
Oldun erməniylə,
Müştərək, əlbir?
İnsan da insanı
Yandırarmı heç?
İnsan da insanı
Boğazlayarmı???
Qarşında dayanmış
Müqəddəs körpə,
Onun bu dünyada
Günahı varmı?

Cavab ver sözümə,
Sən ey qaniçən!
Sən axı insansan,
Vəhşi deyilsən!

Tutduğun işlərdən
Peşiman ol bir!
Bu dünya sən görən,
Dünya deyildir!
Durar gözlərinə
Günahsız qanlar!
Sorğusuz, sualsız
Ölən o canlar!!!
Günahsız körpələr,
Qızlar, qarılar...
Ey cəllad! Başına
Dünya dar olar!..
Mənim məmləkətim
Hamıya dostdur!
Zalım zülm evində
Bir gün qan qusur!
Gözlərindən gəlir,
Şərin əməli!
Namərd, nahaqqa sən
Söyləmə, bəli!

-Yurdumun haqqını,
Tapdalayanlar,
Bilsin ki, dünyada

Haqq–ədalət var!
Dövrün ədaləti
Başqa dildədir!
Zamanlar söhbəti
Başqa dildədir!
Qoca tarix bir gün
Cavab istəyər!
Ey zalım dünyanın
Kor xiridarı!
Talandı əlinlə
Xalqımın varı!
Etdiyin dəhşətə
Göylər də dindi!
Bir şair sözünə,
Cavab ver indi!
Bir şair sözünə
–Cavab ver indi!
–Cavab ver!
–Cavab ver!

## Proloq

Bir Azər qızıyam mən,
Adım da var, odum da!
Qərinələr görmüşəm,

Tarixlər var yadımda!

Elə od qızıyam ki,
Odum qalıb yadigar,
Atəşgahda min ildir,
Saxlanılır o odlar!

Soyum, köküm, dünənim,
Sizə minnətdaram mən!
Dinlə elim, vətənim,
Xidmətində varam mən!

Yara dərin, bu gün fəqət,
Qoy eşitsin məni millət,
İradəmiz yenilməsin!
Yağı düşmən qoy gülməsin!

Bu dərdimi ovudacaq,
Səngərləri dağıdacaq,
Bir təpər var ürəyimdə!
Tanrı gücü biləyimdə!

Ordu quraq, səf-səf duraq!
Düşmənlərə qan udduraq!
Kor olmuşduq tüstümüzdən,
Qəza keçdi üstümüzdən!

Alovlanır içim-çölüm!
Ey igidlər, yaxşı bilin!
İndi qeyrət zamanıdır!
Yurdun imtahan anıdır!

Dalğalansın bayrağımız!
Yox! Dağılmaz növrağımız!
Oğuz eli ölməmişdir!
Düşmən görə bilməmişdir!

Damarımda axan qandır!
Həlledici imtahandır!
Ya, bu günüm, ya sabahım!
Qoy qurulsun ordugahım!

Guruldasın mərmilərim!
Düşmən üstədir səfərim!
Mübarizlər doğulacaq!
Düşmənlərim qovulacaq!

Alovlara sinə gərən,
Vətənsevən bir əsgərəm!
Bu gün məğlubdur ölkəmiz!
Vətən eşqim-ümman, dəniz!

Yenilməzlər ordusuyuq!
Canfədalıq bizə buyruq!
Haqq yoluyla mən gedərəm!
Torpağı azad edərəm!

Od almışam ocağımdan,
Ad almışam torpağımdan!
Sadiqəm mən sənə Vətən!
Güləcəksən yenə Vətən!

Yaralarım səngiməyir!
Yurdum intiqam istəyir!
Yürü əsgər, yürü əsgər!
Harda hünər, orda zəfər!

Düşmən bağrını dəlməyə!
Vətən qədrini bilməyə!
Ucal əsgər, ucal əsgər!
Düşmənimdən öc al, əsgər!

Vətən çağırır, dardadır!
Analar intizardadır!
Yağıya gücümü göstər!
Səhvini, suçunu göstər!

Qəlbimdə dözüm var bu gün!
Dünyaya sözüm var bu gün!
Yeriyək düşmən üstünə!
Duraq yağının qəsdinə!

Qüvvəmizə arxalandıq!
Məşəl olub alovlandıq!A
Vətənim bu gün səfərbər!
Yürü əsgər, yürü əsgər!

Qəzəbdən yanar,
Can alovlanar!
Haydı əsgərlər!
Haydı irəli!

Alaq yağıdan,
Anamiz yeri!
Düşməni əzib,
Dönərik geri!

Haydı, əsgərlər,
Haydı, irəli!
İgidlər, ərlər,
Haydı irəli!

Haqqın nəfəsi,
Bizə yar olsun!
Dönmərik geri,
Boran qar olsun!

Haydı, əsgərlər,
Haydı, irəli!
İgidlər,ərlər,
Haydı, irəli!

Anamız bizi,
Görüşə səslər!
Bu ana Vətən,
Aslanlar bəslər!

Haydı, əsgərlər,
Haydı, irəli!
İgidlər, ərlər,
Haydı irəli!

Vətən gözləsin
Yollarımızı!
Hərbdə sınayaq,
Qollarımızı!

Haydı, əsgərlər,
Haydı irəli!
İgidlər, ərlər.
Haydı, irəli!

Sevgili bir yar,
“İntiqam!”–deyir!
Yaralı diyar,
“Qana–qan!”–deyir!

Haydı, əsgərlər,
Haydı, irəli!
İgidlər, ərlər,
Haydı, irəli!

Ey Vətən oğlu!
Müjdələr dolu,
Səhər bizimdir!
Zəfər bizimdir!

Haydı, əsgərlər,
Haydı, irəli!
İgidlər, ərlər,
Haydı, irəli!

Azad ol mənim torpağım,
Azad ol mənim diyarım!
Bu dünyada sənsən mənim
Eşqim, ruhum, dövlət, varım!

Üzüyündə qaş olaram, ana Vətən!
Torpağında daş olaram, ana Vətən!
Parlaram, günəş olaram, ana Vətən!
Sən uca tut məni doğma balan kimi,
Mən hamıdan baş olaram, ana Vətən!

Bal suyuna, saf havana qurban olum!
Əziz, məlhəm dərd-davana, qurban olum!
Mənzilinə, son yuvana qurban olum!
Eşit mənim sözlərimi, ana Vətən!
Yerə qoyma dizlərini, ana Vətən!

Sənə sadiq bir balanam, eşqim təmiz,
Sənə olan məhəbbətim, dərya, dəniz,
Əzəl başdan adın olubdur qibləmiz,
Dönmə sınan murazlara, ana Vətən!
Qan axmasın arazlara, ana Vətən!

Ulu haqqım səni sevər, sən azad ol!
Düşmənin bəlasın verər, sən azad ol!
Zərəngiz sədasın verər, sən azad ol!
Qarabağdır aman yerim, ana Vətən!
Cəngilər çalınan yerim, ana Vətən!



## Zərəngiz Dəmirçi Qayalı

Zərəngiz Dəmirçi (qızı) Qayalı (Mansurova) 1962-ci ildə Qazax rayonunun Daş Salahlı kəndində, qulluqçu ailəsində anadan olub. 1979-cu ildə Daş Salahlı kənd orta məktəbi əla qiymətylərlə bitirib. 1992-ci ildə Bakı Dövlət Universitetinin filologiya (axşam) fakültəsini bitirib. Ata-anası ədəbiyyatsevər insanlar olublar.

Azərbaycan Yazıçılar (AYB) və Jurnalistlər Birliklərinin (AJB), Jurnalist Qadınlar Assosiasiyasının üzvü, Respublika Qadınlar Cəmiyyətinin fəxri üzvü, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin Qadınlar surasının sədr müavinidir. “Qızıl qələm”, “Nəsir İmanquliyev”, “Vicdanlı qələm”, “Ustad jurnalist” “Kəsərli qələm” və digər media mükafatları laureatıdır. Yaradıcılığına görə AYB-nin Yeni Yazarlar və Sənətçilər Qurumunun “İlin qadın şairi”, “Qayalı” kitabı “Qarabağ mövzusunda ilin qadın yazarının kitabı” nominasiyasının qalibi, Beynəlxalq “Nizami Gəncəvi”, S.Vurğunun ev-muzeyinin “Səməd Vurğun”, AYB-nin R.Rza Fondunun Beynəlxalq “Rəsul Rza” və digər mükafatlarına, Mədəniyyət və Turizm Nazirliyi və AYB-nin dəstəyi ilə 2009-2010-cu illərdə Prezident təqaüdünə layiq görülüb. 2010-cu ildə “M. Şəhriyar” Ədəbi Birliyinin dəvəti ilə Təbriz, Məşhəd, Qəzvin, Rəşt, Miyanə və digər 30 şəhərində olub.

Müəllif kimi 6-“Haqqı sevdim” (“Nurlan” nəşriyyatı, 2001), “Vəfam mənim (“Nurlan” nəşriyyatı, 2006)”, “Güllələnmişlər (“Nurlan” nəşriyyatı, 2006)”, “Qayalı” (“UniPrint” nəşriyyatı, 2008), “Əziz rəhbər” (“Poeziya günü” nəşriyyatı, 2013), “Oğul” (“Xan” nəşriyyatı, 2016) adlı şeir və poemalardan ibarət kitabları dərc olunub. AYB-nin dəstəyi ilə 50 illik yubileyi qeyd olunub və haqqında “Yazıçı” nəşriyyatının “Xüsusi buraxılış”ı (“Oğuz eli” qəzetinin ayrıca buraxılışı, 2012) çapdan çıxıb. 2017-ci il martın 10-da Dərbənd şəhər kitabxanasında, aprelin 28-də Neftçala şəhər kitabxanasında şairənin 55 illik yubileyi keçirilib.

Şairə 2016-ci ildə Avrasiya Sanat Kültür Ədəbiyyat və Bilim Federasiyonuna (ASKEF), 2017-ci il yanvarın 17-də Türkiyə İlim və Ədebiyyat Əseri Şairlərinin Məslek Birliyi (İLESAM) qurumuna, aprelin 19-da Rusiya Federasiyası, “Gülüstan”-Dərbənd Ədəbi Birliyinin üzvlüyünə qəbul edilib. Bakı Yunus Əmrə Institutunun keçirdiyi “Tanpınarı kəşf edirəm!” esse yarışmasının 5 qalibindən biri olaraq 2017-ci il, aprelin 21-dən 26-dək Türkiyənin İstanbul, Yolova, Eskişəhər, Bursa, Konya şəhərlərində olub, müqəddəs Mövlana, Şəmsi Təbrizi məqamını, sultanların türbələrini ziyarət edib.

Ailəlidir, 4 övladı, 1 nəvəsi var. YAP-ın üzvüdür



İKSAD
Publishing House

ISBN: 978-625-7687-76-8